# COP29:
# QLOBAL VƏ MİLLİ ÇAĞIRIŞLAR, ELMİN VƏZİFƏLƏRİ

**Bakı – "Elm" – 2025**

**AMEA Rəyasət Heyətinin 29 noyabr 2024-cü il tarixli iclasının 27/1 nömrəli qərarı ilə nəşr olunur.**

**Elmi redaktor:** **İradə Hüseynova**
*AMEA-nın vitse-prezidenti, akademik*

**Tərtibçi:** **Afiq Məmmədov**
*aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent*

**COP29: Qlobal və milli çağırışlar, elmin vəzifələri.**
**Bakı: "Elm", 2025, – 180 səh.**

ISBN 978-9952-570-43-4

DOI 10.59849/978-9952-570-43-4.2025.180

Kitabda Azərbaycan Milli Elmlər Akademiyasında 2024-cü il ərzində "Yaşıl dünya naminə həmrəylik ili" və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ilə bağlı görülmüş işlər, həyata keçirilmiş tədbirlər, nəşr məmulatları, qarşıda duran planlar və perspektivlər haqda çıxışlar, məqalələr, müsahibələr və s. toplanmışdır.

**© ANAS, 2025**




*Mən Bakı nailiyyətini çoxtərəfliliyin təntənəsi kimi qiymətləndirirəm. COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir və mən inanıram ki, bu irs gələcək qlobal iqlim fəaliyyətinə müsbət təsir göstərəcək.*

**Prezident İlham Əliyev**

## Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

**Q Ə R A R**

№ 1/1

Bakı şəhəri 9 yanvar 2024-cü il

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında" 25 dekabr 2023-cü il tarixli Sərəncamının icrasından irəli gələn vəzifələr haqqında

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında" 25 dekabr 2023-cü il tarixli Sərəncam imzalamışdır. Sərəncamda qeyd edilir ki, "Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Azərbaycanın 2030-cu ilə qədər sosial iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.

Sərəncamda o da vurğulanır ki, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar

tətbiq edilir, ekosistem bərpa olunur. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və 2 qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Sərəncamın icrasını təmin etmək məqsədi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın elmi bölmələrinə tapşırılsın ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında" 25 dekabr 2023-cü il tarixli Sərəncamının icrası ilə bağlı AMEA-nın Tədbirlər planının hazırlanması üçün müvafiq təkliflərini 21 yanvar 2024-cü ilə qədər AMEA-nın Rəyasət Heyətinə təqdim etsinlər (əlavə olunur).
2. Təqdim olunmuş təkliflər əsasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında" 25 dekabr 2023-cü il tarixli Sərəncamının icrası ilə bağlı AMEA-nın Tədbirlər planı hazırlanaraq AMEA-nın Rəyasət Heyətində təsdiq edilsin.
3. Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**AMEA-nın prezidenti** **akademik İsa HƏBİBBƏYLİ**

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYƏSƏT HEYƏTİ**

**Q Ə R A R**

№ 7/1

Bakı şəhəri 22 yanvar 2024-cü il

“Azərbaycan Respublikası Prezidentinin
Azərbaycan Respublikasında 2024-cü ilin
“Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi
haqqında 25 dekabr 2023-cü il tarixli Sərəncamının
icrası ilə bağlı AMEA-nın Tədbirlər planı” haqqında

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında” 25 dekabr 2023-cü il tarixli Sərəncam imzalamışdır. Sərəncamın icrası ilə bağlı AMEA Rəyasət Heyətində “Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında” 25 dekabr 2023-cü il tarixli Sərəncamının icrasından irəli gələn vəzifələr haqqında” 9 yanvar 2024-cü il tarixli 1/1 nömrəli qərar qəbul edilmişdir. Qərarın birinci bəndində AMEA-nın elmi bölmələrinə Sərəncamının icrası ilə bağlı AMEA-nın Tədbirlər planının hazırlanması üçün müvafiq təkliflərini 21 yanvar 2024-cü ilə qədər AMEA-nın Rəyasət Heyətinə təqdim edilməsi tapşırılmışdır. Ötən müddət ərzində AMEA-nın elmi bölmələri tərəfindən müvafiq təkliflər AMEA-nın Rəyasət Heyətinə təqdim olunmuş və bu təkliflər əsasında AMEA-nın Tədbirlər planının layihəsi hazırlanmışdır.

“Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında” 25 dekabr 2023-cü il tarixli Sərəncamının icrası ilə bağlı AMEA-nın Tədbir-

lər planı"nın layihəsini müzakirə edərək Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında" 25 dekabr 2023-cü il tarixli Sərəncamı icra üçün əsas sənəd kimi qəbul edilsin.
2. "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında" 25 dekabr 2023-cü il tarixli Sərəncamının icrası ilə bağlı AMEA-nın Tədbirlər planı" təsdiq edilsin (əlavə olunur).
3. Tədbirlər planının icrası üzrə məsul icraçılara tapşırılsın ki, tədbirlərin yüksək elmi-təşkilati səviyyədə həyata keçirilməsini təmin etsinlər.
4. Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**AMEA-nın prezidenti** **akademik İsa HƏBİBBƏYLİ**

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət
Heyətinin 22 yanvar 2024-cü il tarixli 7/1 nömrəli
qərarı ilə təsdiq edilmiş əlavə

**Azərbaycan Respublikası Prezidentinin**
**“Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında” 25 dekabr 2023-cü il tarixli Sərəncamının icrası ilə bağlı**
**AMEA-nın TƏDBİRLƏR PLANI**

| Sıra №-si | TƏDBİRİN ADI | MƏSUL TƏŞKİLAT | KEÇİRİLƏCƏYİ TARİX | NƏŞRİN HƏCMİ |
|---|---|---|---|---|
| **TƏDBİRLƏR** | | | | |
| **HUMANİTAR ELMLƏR BÖLMƏSİ** | | | | |
| 1. | “Azərbaycan ədəbiyyatında iqlim dəyişiklikləri və peyzaj motivləri” mövzusunda elmi konfransın keçirilməsi | AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu | 2024-cü il ərzində | |
| 2. | “Klassik Divan ədəbiyyatında bitki obrazı” mövzusunda elmi- praktik konfransın keçirilməsi | AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu | aprel 2024-cü il | |
| 3. | “Azərbaycan folklorunda təbiət kultu” mövzusunda elmi konfransın keçirilməsi | AMEA-nın Folklor İnstitutu | iyul 2024-cü il | |
| 4. | “İncəsənətdə yaşıl dünya” mövzusunda beynəlxalq konfransın keçirilməsi | AMEA-nın Memarlıq və İncəsənət İnstitutu | sentyabr 2024-cü il | |

| | | | | |
|---|---|---|---|---|
| **İCTİMAİ ELMLƏR BÖLMƏSİ** | | | | |
| 5. | “Yaşıl enerji naminə həmrəylik: müasir çağırışlar və perspektivlər” mövzusunda elmi konfransın keçirilməsi | AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu | 23 sentyabr 2024-cü il | |
| 6. | “Müasir ekoloji problemlər Nəsrəddin Tusinin idrak və əxlaq irsində” mövzusunda elmi konfransın keçirilməsi | AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu | 16 oktyabr 2024-cü il | |
| 7. | “Cənubi Qafqazda ekoloji vəziyyət: dövlətlərin siyasətinin müqayisəli təhlili, təhdidlər və perspektivlər” mövzusunda dəyirmi masanın keçirilməsi | AMEA-nın Qafqazşünaslıq İnstitutu | 25 noyabr 2024-cü il | |
| **FİZİKA-RİYAZİYYAT VƏ TEXNİKA ELMLƏRİ BÖLMƏSİ** | | | | |
| 8. | “Rəqəmsal kəmər və yol” elm proqramı əsasında BMT-nin dayanıqlı inkişaf məqsədləri çərçivəsində təbii fəlakətlərlə mübarizə planının hazırlanması, problemlərin həlli üçün elmi tədqiqatların aparılması və müvafiq sınaqların keçirilməsi | İdarəetmə Sistemləri İnstitutu | 2024-cü il ərzində | |
| 9. | Peyk verilənlərinə görə əkin sahələrinin monitorinq sistemlərinin işlənməsi | Riyaziyyat və Mexanika İnstitutu | 2024-cü il ərzində | |
| 10. | Rezervuarlarda karbohidrogen mayeləri saxladıqda buxarlanmaların qarşısının alınması | Riyaziyyat və Mexanika İnstitutu | 2024-cü il ərzində | |

| | | | | |
|---|---|---|---|---|
| 11. | Naxçıvan Muxtar Respublikası ərazisində istehsalat və məişət tullantılarının təkrar istehsalı "yeni məhsulların alınması və tullantıdan enerjiyə doğru" istiqamətlərinin inkişaf etdirilməsi | Radiasiya Problemləri İnstitutu | 2024-cü il ərzində | |
| 12. | Naxçıvan Muxtar Respublikası ərazisində mövcud göllərin səthində Günəş və Külək qurğularının yaradılması hesabına əlavə alternativ enerji potensialının qiymətləndirilməsi | Radiasiya Problemləri İnstitutu | 2024-cü il ərzində | |
| 13. | "Ağıllı ətraf mühit və yaşıl texnologiyalar" beynəlxalq konfransının keçirilməsi | Odlar Yurdu Universiteti, İnformasiya Texnologiyaları İnstitutu | 11-12 aprel 2024-cü il | |
| 14. | "Yaşıl və rəqəmsal transformasiyalar: qarşılıqlı təsirlərin pozitiv və neqativ aspektləri" respublika elmi konfransının keçirilməsi | İnformasiya Texnologiyaları İnstitutu | oktyabr 2024-cü il | |
| **KİMYA ELMLƏRİ BÖLMƏSİ** | | | | |
| 15. | "Ekoloji problemlərə həsr olunmuş ən yaxşı elmi layihə" müsabiqəsinin keçirilməsi | Akademik Yusif Məmmədəliyev adına Neft- Kimya Prosesləri İnstitutu | fevral-aprel 2024-cü il | |
| 16. | "Yaşıl kimya" fundamental və tətbiqyönlü kimya elminin vacib bir istiqaməti kimi" adlı gənc alim və mütəxəssislərin beynəlxalq onlayn elmi seminarının keçirilməsi | Akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutu (Azərbaycan), Bartin Universiteti (Türkiyə) | may 2024-cü il | |

| | | | | |
|---|---|---|---|---|
| 17. | “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr olunan gənc alim və mütəxəssislər arasında “Ən yaxşı elmi məruzə” müsabiqəsinin keçirilməsi | Akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutu | iyun 2024-cü il | |
| 18. | 8th İnternational Symposium on Materials for Energy Storage and Conversion | Akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu | oktyabr 2024-cü il | |
| 19. | “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr olunan gənc alim və mütəxəssislər arasında “Ən yaxşı elmi məruzə” müsabiqəsinin keçirilməsi | Akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu | noyabr 2024-cü il | |
| **YER ELMLƏRİ BÖLMƏSİ** | | | | |
| 20. | Neft Qaz İnstitutunda hazırlanmış “Azərbaycanda iri sənaye obyektlərindən atmosferə atılan karbon qazının (CO2) tutularaq istifadədən çıxarılmış qaz laylarında yığılması və metanol / karbamid istehsalında xammalı olan təbii metan qazı (CH4) əvəzinə istifadə edilməsi Layihəsi”nin AMEA Rəyasət Heyətinin AMEA Yer Elmləri Bölməsi ilə birgə iclasında müzakirəsi və müvafiq dövlət orqanlarına təkliflərin hazırlanması | Neft-Qaz İnstitutu, AMEA Yer Elmləri Bölməsi, AR Ekologiya və Təbii Sərvətlər, Energetika nazirlikləri, SOCAR | mart-aprel 2024- cü il | |

| | | | | |
|---|---|---|---|---|
| 21. | “Davamlı inkişafın təmin edilməsində yer elmlərinin rolu. Yaşıl enerji və ekologiya kontekstində” mövzusunda elmi konfransın keçirilməsi | AMEA Yer Elmləri Bölməsi | may 2024-cü il | |
| 22. | “Yaşıl Enerji və süni İntellekt” mövzusunda dəyirmi masa | AMEA Yer Elmləri Bölməsi, AMEA FRTEB | sentyabr 2024-cü il | |
| **BİOLOGİYA VƏ TİBB ELMLƏRİ BÖLMƏSİ** | | | | |
| 23. | “Yaşıl enerji və yaşıl iqtisadiyyat problemləri” mövzusunda dəyirmi masa və seminarın keçirilməsi | Biologiya və Tibb Elmləri Bölməsi, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu | iyun 2024-cü il | |
| 24. | “Abşeronda zeytun bitkisinin zərərvericiləri” mövzusunda tədqiqatların yekunlarına həsr edilmiş dəyirmi masanın keçirilməsi | Biologiya və Tibb Elmləri Bölməsi, Zoologiya İnstitutu | sentyabr 2024-cü il | |
| 25. | “Qlobal iqlim dəyşikliklərinin intensivləşməsi fonunda biomüxtəliflik, torpaq və su ehtiyatları” mövzusunda beynəlxalq elmi konfransın təşkili | Biologiya və Tibb Elmləri Bölməsi, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu | oktyabr 2024-cü il | |
| 26. | Ağdam rayonunda “İmarət kompleksi” abidəsi ətrafında yaşıllığın salınması | Biologiya və Tibb Elmləri Bölməsi, Dendrologiya İnstitutu | il ərzində | |
| **GƏNCƏ BÖLMƏSİ** | | | | |
| 27. | “Gəncə – Yaşıl şəhər” beynəlxalq layihəsi çərçivəsində ağacəkmə tədbirlərinin təşkili | AMEA-nın Gəncə Bölməsi | 2024-cü il ərzində | |

| | | | | |
|---|---|---|---|---|
| 28. | “Gəncənin ekoloji problemləri. Torpaq və su ehtiyatlarının qorunması” adlı dəyirmi masanın keçirilməsi | AMEA-nın Gəncə Bölməsi | may 2024-cü il | |
| 29. | Gəncə şəhərin təbiət abidələri siyahısına daxil edilmiş çoxəsrlik ağac növlərinin tədqiq edilməsi | AMEA-nın Gəncə Bölməsi | 2024-cü il ərzində | |
| 30. | “Gəncəmizi təmiz saxlayaq!” mövzusunda ali və orta məktəblərdə maarifləndirici görüşlərin təşkili | AMEA-nın Gəncə Bölməsi | 2024-cü il ərzində | |
| **ŞƏKİ REGİONAL ELMİ MƏRKƏZİ** | | | | |
| 31. | “Yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioteti kimi” mövzusunda dəyirmi masanın keçirilməsi | AMEA-nın Şəki Regional Elmi Mərkəzi | mart 2024-cü il | |
| 32. | “Yaşıl dünya, sağlam landşaft uğrunda” mövzusunda elmi- praktiki konfransın keçirilməsi (ağacəkmə kompaniyası) | AMEA-nın Şəki Regional Elmi Mərkəzi | may 2024-cü il | |
| 33. | “Yaşıl dünya, təmiz səma” mövzusunda seminarın keçirilməsi | AMEA-nın Şəki Regional Elmi Mərkəzi | iyun 2024-cü il | |
| 34. | “Yaşıl dünya və ədəbiyyatın məsuliyyəti” mövzusunda seminarın keçirilməsi | AMEA-nın Şəki Regional Elmi Mərkəzi | iyul 2024-cü il | |
| 35. | “Aqro-ekoloji turizm və dekorativ bağçılıq” mövzusunda dəyirmi masanın keçirilməsi | AMEA-nın Şəki Regional Elmi Mərkəzi | sentyabr 2024-cü il | |
| 36. | “Yaşıl iqtisadiyyat və yaşıl şəhər: çağırışlar və perspektivlər” mövzusunda elmi-praktiki konfransın keçirilməsi | AMEA-nın Şəki Regional Elmi Mərkəzi | oktyabr 2024-cü il | |
| 37. | “Tullantılara həyat verən” mövzusunda seminarın keçirilməsi | AMEA-nın Şəki Regional Elmi Mərkəzi | noyabr 2024-cü il | |

| | | | | |
|---|---|---|---|---|
| | | | | |
| 38. | “Yaşıl dünya naminə həmrəylik ili” adlı virtual və illik ənənəvi kitab sərgilərinin təşkili, lektoriya və dəyirmi masaların keçirilməsi | AMEA-nın Mərkəzi Elmi Kitabxanası | il ərzində | - |
| 39. | “Hər kağızı bir yarpağa dəyişək — təbiəti qoruyaq” adlı aksiya təşkil etmək. Aksiya çərçivəsində yararsız kağızların toplanması və təkrar istehsala qaytarılmasını təşkil etmək | AMEA-nın Mərkəzi Elmi Kitabxanası | il ərzində | - |
| **NƏŞRLƏR** | | | | |
| **HUMANİTAR ELMLƏR BÖLMƏSİ** | | | | |
| 40. | “Ekolinqvistika: Oğuz qrupu türk dillərində flora və fauna leksikası” monoqrafiyasının nəşrə hazırlanması | AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu | 2024-cü il ərzində | 250 s. |
| **KİMYA ELMLƏRİ BÖLMƏSİ** | | | | |
| 41. | “Qlobal ekoloji problemlər, səbəbləri, həlli yolları” adlı kitab nəşri (Müəlliflər: V.M.Abbasov, G.S.Muxtarova, S.H.Qurbanov, L.M. Əfəndiyeva, Z.N.Paşayeva, T.A.Məmmədova, G.A.Əhmədova) | Akademik Yusif Məmmədəliyev adına Neft- Kimya Prosesləri İnstitutu | iyul 2024-cü il | 300 səh. |
| 42. | “Yaşıl kimya və onun perspektivləri” adlı kitab nəşri (Müəlliflər – akademik Dilqəm Tağıyev və k.e.d.,prof. Asif Məmmədov) | Akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu | | “Elm” Nəşriyyatı, 2024-cü il |
| **BİOLOGİYA VƏ TİBB ELMLƏRİ BÖLMƏSİ** | | | | |
| 43. | “Azərbaycanın bitki örtüyü” kitabının hazırlanması və nəşri | AMEA Biologiya və Tibb Elmləri Bölməsi, Bakı Dövlət Universiteti | il ərzində | |

| | | | | |
|---|---|---|---|---|
| 44. | “Həyat Elmləri və Biotibb” jurnalının bir nömrəsinin “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr edilməsi | AMEA Biologiya və Tibb Elmləri Bölməsi | dekabr 2024-cü il | |
| 45. | “Fotosintez, fototənəffüz və bitkilərin məhsuldarlığı” mövzusunda monoqrafiyanın hazırlanması | AMEA Biologiya və Tibb Elmləri Bölməsi, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu | | |
| **GƏNCƏ BÖLMƏSİ** | | | | |
| 46. | Şəhərin park və xiyabanlarında olan ağac növlərinin qorunması ilə bağlı təbliğat lövhələrinin quraşdırılması və maarifləndirici bukletlərin hazırlanaraq paylanması | AMEA-nın Gəncə Bölməsi | 2024-cü il ərzində | |
| **AMEA nəzdində RESPUBLIKA SEYSMOLOJİ XİDMƏT MƏRKƏZİ** | | | | |
| 47. | Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan Muxtar Respublikasında ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi üçün yaşıl enerji zonalarında seysmik təhlükəliliyin qiymətləndirilməsi xəritələrinin hazırlanması | AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi | 2024-2025-ci illər | |
| **ŞƏKİ REGİONAL ELMİ MƏRKƏZİ** | | | | |
| 48. | “Qarabağ və Şərqi Zəngəzur bölgələri təbii resurslarının landşaft-diaqnostik xüsusiyyətləri” adlı kitabın nəşri | AMEA-nın Şəki Regional Elmi Mərkəzi | mart 2024-cü il | 50000 söz həcmli |

| | | | | |
|---|---|---|---|---|
| **MƏRKƏZİ ELMİ KİTABXANA** | | | | |
| 49. | İlham Əliyev yaşıl dünya naminə: sənədlər və materiallar toplusu (2003-2023) | AMEA-nın Mərkəzi Elmi Kitabxanası | il ərzində | 18 ç.v |
| 50. | Azərbaycanda qoruqlar və yasaqlıqlar (məlumat kitabı) | AMEA-nın Mərkəzi Elmi Kitabxanası | il ərzində | 3 ç.v |
| 51. | Yaşıl dünya: biblioqrafik göstərici | AMEA-nın Mərkəzi Elmi Kitabxanası | il ərzində | 20 ç.v |
| 52. | “Yaşıl dünya naminə həmrəylik ili” ilə bağlı Elektron Resurslarda (vikipediyada) yeni məqalələrin yaradılması və mövcud olanların redaktə edilməsi | AMEA-nın Mərkəzi Elmi Kitabxanası | il ərzində | – |
| **SƏRGİ** | | | | |
| **BİOLOGİYA VƏ TİBB ELMLƏRİ BÖLMƏSİ** | | | | |
| 53. | “Təbiəti sevək və qoruyaq” mövzusunda foto, rəsm və əl işlərindən ibarət sərgi | Biologiya və Tibb Elmləri Bölməsi, Botanika İnstitutu, Zoologiya İnstitutu, Dendrologiya İnstitutu və s. | may 2024-cü il | |
| **GƏNCƏ BÖLMƏSİ** | | | | |
| 54. | “Yaşıl dünya naminə həmrəylik ili” mövzusunda sərginin təşkili | AMEA-nın Gəncə Bölməsi | mart 2024-cü il | |
| **MƏRKƏZİ ELMİ KİTABXANA** | | | | |
| 55. | Respublikanın müxtəlif təşkilat və qurumlarında “Yaşıl dünya naminə həmrəylik ili ”çərçivəsində ənənəvi kitab sərgilərinin təşkili | AMEA-nın Mərkəzi Elmi Kitabxanası | İl ərzində | – |

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

**Q Ə R A R**

№ 21/1

Bakı şəhəri 29 noyabr 2024-cü il

İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının
Tərəflər Konfransının 29-cu sessiyası – COP29:
çağırışlar və AMEA-nın qarşısında duran vəzifələr

Məlumdur ki, Azərbaycan Respublikası dünya birliyi tərəfindən ona göstərilən qlobal etimadı yüksək şəkildə doğruldaraq, 11-22 noyabr 2024-cü il tarixlərində dünya üzrə ən möhtəşəm tədbirlərdən birinə — Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) böyük uğurla ev sahibliyi etmişdir. Azərbaycan COP29-un Sədri kimi üzərinə götürdüyü çox mühüm vəzifələrin öhdəsindən şərəflə gəlmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə yüksək peşəkarlıq və fədakarlıq göstərərək Qlobal Şimalla Qlobal Cənub arasında ortaq nöqtələrin tapılması və əlaqələrin yaradılması sahəsində əvvəllər mümkün olmamış nailiyyətlər əldə edə bilmişdir. Cənab Prezident COP29-un başa çatması ilə bağlı paylaşımında bu mühüm reallıqları aşağıdakı kimi ifadə etmişdir: "Mən Bakı nailiyyətini çoxtərəfliliyin təntənəsi kimi qiymətləndirirəm. COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir və mən inanıram ki, bu irs gələcək qlobal iqlim fəaliyyətinə müsbət təsir göstərəcək".

COP29-da Azərbaycanın sədrliyi ilə dünya birliyi vahid məxrəcə gələ bilmiş, inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyi ilə mübarizə üçün ildə ayrılacaq 100 milyard ABŞ dollarının 2035-ci ilə qədər azı 300 milyard dollar məbləğinə qədər yüksəldilməsi haqda yekun qərar qəbul edilmiş,

Bakı Maliyyə Məqsədi (BMG) barədə razılıq əldə olunmuş, Paris Sazişinin 6-cı maddəsi tam şəkildə işlək vəziyyətə gətirilmiş, İtki və Zərər Fondu tam şəkildə insitutlaşdırılmış, Bakı Adaptasiya Yol Xəritəsi yaradılmış, 10 illik Yenilənmiş Gender üzrə Lima İş Proqramı və s. kimi mühüm qərarlar qəbul edilmişdir.

COP29 çərçivəsində keçirilmiş tədbirlər və müzakirələr bir daha göstərmişdir ki, iqlim dəyişikliyindən doğan problemlərin həlli kompleks elmi araşdırmaların, multidissiplinar elmi yanaşmaların aparılmasını tələb edir. Bu istiqamətdə tədqiqatlar və innovasiyalar təkcə texnoloji irəliləyişlərə deyil, həm də bu siyasi mövqenin və adekvat elmi baxışların aparılmasını və konkret elmi təkliflərin hazırlanmasını tələb edir.

COP29 cəmiyyətin bütün sahələrində, o cümlədən elmdə də yeni təfəkkür və yeni sivilizasiyanın əsasını qoymuşdur.

COP29 Azərbaycanın müvafiq elm sahələrinin prioritetlərinə yenidən baxılmasının vacibliyini göstərmiş, elmi mühitə yeni ruh gətirmişdir. COP29 bir daha göstərmişdir ki, yenilənmiş prioritetlər üzrə aparılan tədqiqatlarda yüksək, o cümlədən rəqəmsal texnologiyaların və süni intellektin tətbiqinin uğurlu nəticələrinin alınmasında mühüm vasitə ola biləcəyi nəzərə alınmalıdır, müvafiq kadr hazırlığına, mövcud kadrların bilik və bacarıqlarının artırılmasının vacibliyinə xüsusi diqqət verilməlidir.

COP29-un Azərbaycanda insan kapitalının inkişafına verdiyi töhfələr növbəti dövrdə ölkənin daha da inkişafında, həmçinin xalqlararası və dövlətlərarası əlaqələrində əhəmiyyətli rol oynayacaqdır.

Demək olar ki, "Yaşıl dünya naminə həmrəylik ili" ilə bağlı aparılan fəaliyyətlər və COP29-un yüksək səviyyədə keçirilməsi Azərbaycanı dünyada yeni sivilizasiyanı yaradan mərkəzlərdən biri kimi tanıda bilmişdir.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin "İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası — COP29: çağırışlar və AMEA-nın qarşısında duran vəzifələr" mövzusunda məruzəsini dinləyərək Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin "İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası — COP29: çağırışlar və AMEA-nın qarşısında duran vəzifələr" mövzusunda məruzəsi nəzərə alınsın.
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin COP29-dakı dərin məzmunlu nitqləri, müsahibələri diqqətlə və dərindən öyrənilərək elmi tədqiqatlara tətbiq olunsun.
3. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə COP29-a hazırlıq dövründə həyata keçirilən möhtəşəm tədbirlər, COP29-un təşkili və keçirilməsi sahəsində yaratdığı model elmi şəkildə araşdırılaraq müstəqil elmi tədqiqatlarda əks etdirilsin. Bu mövzuda monoqrafik tədqiqatlar hazırlanıb nəşr edilsin, dissertasiya mövzuları müəyyən olunsun.
4. Azərbaycan elmində, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasında aparılan tədqiqatlarda COP29-un çağırışları əsas kimi qəbul edilməklə, müasir dövrün ümumdünya problemlərinə və ölkəmizin həmin istiqamətdəki reallıqlarına doğru istiqamətləndirilsin.
5. Azərbaycanda iqlim dəyişikliyi, onun doğurduğu fəsadlar, onların aradan qaldırılması və ya təsirinin yumşaldılması istiqamətində, eləcə də elm sahəsində, ictimai və fəlsəfi fikirdə, mədəniyyət və ədəbiyyatda buraxdığı izlərlə bağlı müvafiq elm sahələrinin prioritetlərinə yenidən baxılmasının vacibliyi qeyd edilsin.
6. Elmi tədqiqatlarda yaşıl dünya, yaşıl enerji, yaşıl iqtisadiyyat və yaşıl transformasiyalar, ekolinqvistika və s. əlaqədar məsələlərin araşdırılmasına xüsusi diqqət yetirilsin, bu mövzularda tədqiqatlar, kitablar, məqalələr yazılıb nəşr edilsin.
7. AMEA-nın rəhbərliyinin və nümayəndələrinin "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində, xüsusən COP29-un hazırlıq mərhələsində və keçirildiyi dövrdəki fəaliyyəti təqdir edilsin.
8. AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynovaya tapşırılsın ki, AMEA-nın COP29-a hazırlıqla bağlı və COP29-un keçirilməsi prosesində iştirakı, həmçinin bu böyük beynəlxalq tədbir-

dən irəli gələn məsələlərin müzakirə edilməsi və müvafiq qərarların qəbul olunması ilə əlaqədar sənədlər və materiallar əsasında kitab hazırlayıb 2024-cü ilin sonunadək AMEA Rəyasət Heyətinə təqdim etsin.

9. "COP29-un çağırışları və AMEA-nın vəzifələri" kitabı çap edilmək üçün AMEA-nın 2025-ci ilin nəşriyyat planına daxil edilsin.
10. AMEA-nın "Elm" Nəşriyyatına (filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov) tapşırılsın ki, 2025-ci ildə akademik İradə Hüseynova tərəfindən təqdim edilməsi nəzərdə tutulan kitabın yüksək poliqrafik səviyyədə nəşr edilməsini həyata keçirsin.
11. AMEA Rəyasət Heyəti Aparatının Elm və təhsil şöbəsinə (filologiya elmləri doktoru Sərxan Xavəri) və İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinə (filologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov) tapşırılsın ki, COP29-la əlaqədar məsələlərin populyarlaşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilsin.
12. Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**AMEA-nın prezidenti** **akademik İsa HƏBİBBƏYLİ**

# “Yaşıl dünya naminə həmrəylik ili” və COP29-la bağlı mətbuatda getmiş məqalə və müsahibələr

# YAŞIL SİVİLİZASİYANIN COP29 ANONSU

**İsa Həbibbəyli,**
**AMEA-nın prezidenti, akademik**
"Xalq qəzeti", 16.11.2024

Prezident İlham Əliyevin elan etdiyi "Yaşıl dünya naminə həmrəylik ili" ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası mahiyyəti və hədəfləri etibarilə bir-birini tamamlayan baxışlardan ibarətdir. "Yaşıl dünya naminə həmrəylik ili"nin ölkəmizdə yaratdığı yaşıl hərəkat COP29-un irəli sürdüyü iqlim dəyişiklərinin yarada biləcəyi fəlakətlərdən xilas olmaq üçün yaşıl enerjinin ön mövqeyə çəkilməsi nəticə etibarı ilə ölkələri və dünyanı qorumağa, yaşatmağa və inkişaf etdirməyə xidmət edən qlobal hadisələrdir. Yaşıl dünya naminə hərəkat sahəsində həyata keçirilən tədbirlər Azərbaycan Respublikasının COP29 kimi BMT-nin bir nömrəli beynəlxalq tədbirinə ev sahibliyi etməsinə haqq qazandırır.

Eyni zamanda, müstəqil Azərbaycan Respublikasının hərtərəfli və sürətli inkişafı, beynəlxalq aləmdə əldə etdiyi nailiyyətlər də COP29-u ən yüksək səviyyədə keçirməyə geniş imkan yaratmışdır. Heç şübhəsiz ki, COP29-un estafetini qəbul etmək Azərbaycan Prezidentinin dünya liderləri sırasındakı yüksək nüfuzunun da real təzahürüdür. Prezident İlham Əliyevin açılış iclasındakı parlaq çıxışı COP29 hərəkatının manifestidir. Dərin məzmunlu bu çıxışda COP29-un əsas reallıqları və perspektivləri öz əksini tapmışdır. Prezidentin çıxışı COP29 üzrə Azərbaycan reallıqlarının gerçək təqdimatı, dünya gedişatının obyektiv qiymətləndirilməsi, yaxın-uzaq gələcəyin praqmatik paroludur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Ölkə göstəricilərinin qiymətləndirilməsində Tanrının bəxş etdiyi təbii sərvətlər meyar kimi götürülməli deyil" – mesajı COP29-un ən mükəmməl aforizmidir. Əks halda, dünya ölkələri "Tanrının bəxş etdiyi real təbii sərvətlər"dən tam imtina edib, "yaşıl keçid" axtarışı ilə yeni yaşıl imkanlar əldə edənə qədər böhran təhlükəsi ilə üzləşə bilərlər.

Azərbaycan Prezidentinin sərrast aforizm kimi səslənən fikirləri dünyanın tarazlığını pozmaq həddinə çatmamaq şərti ilə bütün təbii sərvətlərdən yerində və qədərində istifadə etməyin mümkünlüyünə realist baxışın ifadəsidir. Bu, "Tanrının bəxş etdiyi təbii sərvətlər"lə yaşıl

texnologiyalardan əldə olunacaq gəlirlərin düzgün balansının tapılmasının zəruriliyini nəzərə çatdıran praqmatik çağırışdır.

Bu gün dünyanın bir çox ölkələrində, o cümlədən Azərbaycanda "Tanrının bəxş etdiyi təbii sərvətlər" COP29-un hədəflərinin həyata keçirilməsi üçün etibarlı donor funksiyasını yerinə yetirir. Fikrimizcə, o ölkələr "yaşıl keçidə" daha səmərəli şəkildə nail ola biləcəklər ki, onların yaşıl texnologiyalar əldə etmək üçün real təbii sərvətlərdən gələn dayanıqlı gəlirləri vardır. Beləliklə, Tanrının bəxş etdiyi təbii sərvətlər mövcud dayanıqlı inkişafla "yaşıl keçid" arasında yaşıl transformasiya funksiyasını yerinə yetirir. Azərbaycanın mövcud neft-qaz gəlirləri bu gün "yaşıl iqtisadi zona" kimi elan olunmuş Naxçıvan Muxtar Respublikasında, Qarabağda və Şərqi Zəngəzurda, həmçinin Böyük Qayıdış hərəkatında "yaşıl keçid" mərhələsinə uğurla keçidin hərəkətverici qüvvəsidir. Şübhəsiz, yaşıl enerji əsasında XXI əsrin yaşıl iqtisadiyyatını qura bilən və inkişaf etdirən ölkələr yaxın gələcəyin lider dövlətləri sırasına çıxmaq imkanı qazanacaqlar. Bu cəhətdən, Azərbaycan dünyanın ən şanslı ölkələrindən biridir. Çünki Azərbaycan ərazisi məşhur Mendeleyev cədvəlindəki əksər yeraltı və yerüstü təbii sərvətlərlə zəngin olan ölkədir. Bununla yanaşı, Azərbaycanda həm də artıq bir neçə ildir ki, Prezident İlham Əliyevin irəli sürdüyü neftdən asılı olmayan iqtisadiyyat modelinin yaradılması üçün düşünülmüş dövlət siyasəti həyata keçirilir. Artıq Azərbaycan Respublikasının dövlət büdcəsində neftdən asılılığı aradan qaldırmağa xidmət edən aqrar sektordan, turizmdən, nəqliyyat sferasından, iaşə xidmətindən əldə edilən gəlirlər kifayət qədər əhəmiyyətli əmsala malikdir. "Yaşıl dünya naminə həmrəylik ili" və COP29-un çağırışları neftdən asılı olmayan gəlirlərin siyahısına yaşıl iqtisadiyyatdan və alternativ yaşıl enerji mənbələrindən əldə ediləcək maliyyə imkanları da əlavə olunacaqdır.

Hazırda Azərbaycan Respublikasında yaşıl iqtisadiyyaın qurulması istiqamətində genişmiqyaslı işlər aparılmaqdadır. Bundan başqa, ölkəmizdə mövcud təbii sərvətlərin istismarının, emalının, bazara çıxarılmasının yaşıl texnologiyalar əsasında yenidən qurulması prosesləri də genişlənməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin COP29-un açılış mərasimindəki nitqində ölkəmizdə yaşıl iqtisadiyyat infrasturukturunun formalaşdırılması, bərpaolunan enerji mənbələrinin yaradılması istiqamətində həyata keçirilən dövlət proqramlarının və nəzərdə tutulan yeni layihələrin aydın mənzərəsi verilmişdir. Ölkəmizdə aparılan məqsədyönlü müasir siyasi-iqtisadi siyasət dünya reallıqlarına uyğun olaraq, mövcud tə-

bii sərvətlərdən yaşıl texnologiyalar əsasında istifadə etməklə atmosferin sağlamlaşdırılmasına töhfə verməyə, yaşıl enerji əsasında yeni dövrün yaşıl iqtisadiyyatının qurulmasına və meydanının daha da genişləndirilməsinə yaşıl işıq yandırmağa uğurla xidmət edir. Fikrimizcə, yaşıl iqtisadiyyatın Azərbaycan modeli dünya ölkələri üçün də əhəmiyyətli təcrübə ola bilər. Bu mənada Azərbaycan Respublikası Prezidentinin COP29-un Bakı Olimpiya Stadionundakı açılış mərasimindəki çıxışında səslənən bu fikirləri yaşıl iqtisadiyyat anlayışına müasir dövrün realist baxışının ifadəsidir: "Ölkələr onların (Tanrının bəxş etdiyi təbii sərvətlərin – İ.H.) olmasına görə günahlandırılmalı və bazarda tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyil".

Bu, yaşıl enerjiyə keçidə münasibətdə eyforiyaya qapılmağa, yaxud bu qlobal problemə birtərəfli qaydada baxmamağa, məsələyə kompleks yanaşmağa çağırışın konseptual şərhi və aydın ifadəsidir.

"Yaşıl dünya naminə həmrəylik ili"nin və COP29-un ölkəmizə və dünyaya bəxş etdiyi daha bir yaşıl sərvət də bu istiqamətdə dialoqun miqyasının genişləndirilməsindən və məzmunca yaşıl ideyalarla və əməli addımlarla zənginləşdirilməsindən ibarətdir. Bakı şəhərində COP29 miqyasında yüksək səviyyədə təşkil olunan dialoq platforması mədəniyyətlərin dialoquna, ən yeni yaşıl texnologiyaların mübadiləsinə, yaşıl transformasiyaların müzakirəsinə yaşıl işıq yandırmışdır.

Bu gün Bakı Olimpiya Stadionunda yaradılmış COP29 şəhərciyi çoxvektorlu dünya dialoq mədəniyyətinin mərkəzinə çevrilmişdir. Ölkələri əyani şəkildə təqdim edən pavliyonlarda sərgilənən iqtisadi-texniki yeniliklərlə konfrans salonlarında səslənən yaşıl elmi-praktik ideyalar bir yerdə dünyanın yaxın və uzaq yaşıl gələcyi haqqında tam yeni təsəvvürlərin formalaşdırılmasına imkan yaradır. Əslində, Bakı Olimpiya Stadionundakı COP29 Sammitində aparılan müzakirələr dünyanın yeni yaşıl mənzərəsinin dərslərindən ibarətdir.

Son illərdə Azərbaycanda və dünyada yaşıl iqtisadiyyat, yaşıl enerji, yaşıl kimya, biomüxtəliflik, ekomədəniyyət, yaşıl transformasiyalar, rəqəmsal dünya, süni intellekt, elektronəqliyyat, ekolinqvistika, "ağıllı kənd" və sair kimi yeni anlayışlar yaşıl terminologiyanın formalaşdırılmasını şərtləndirmişdir. Və yaşıl terminologiya müasir dövrün yaşıl dünyasının, yaşıl texnologiyasının danışan dili funksiyasını həyata keçirir. Ekolinqvistika anlayışı da yaşıl terminologiyanın sinonimi kimi prosesin daha da genişləndirilməsinə yol açır. Bunlar isə öz növbəsində dünyanın yeni bir inkişaf səviyyəsinə – yaşıl sivilizasiyaya keçidin xüsusiyyətlərini özündə əks etdirir.

XVIII əsrdən etibarən sonrakı inkişaf mərhələlərində dünyada buxar maşınının, elektrik enerjisinin, kosmosun fəthinin, internetin kəşfinin, ağıllı texnologiyaların meydana çıxmasının fərqli sivilizasiyaları və sənaye inqilablarını yaratdığı kimi yaşıl enerji, süni intellekt və rəqəmsal inkişaf da bəşəriyyəti yeni bir inkişaf mərhələsinə doğru aparmaqdadır.

Beləliklə, Bakı Olimpiya Stadionundakı COP29 şəhərciyi yaşıl sivilizasiya problemlərini dünyanın yaşıl gündəliyinin baş mövzusuna çevirmişdir. Hazırda ən müasir yaşıl texnologiyalar əsasında salınmış COP29 şəhərciyi dünyanın yaşıl sivilizasiya müzakirələrinin möhtəşəm xitabət kürsüsüdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin COP29 xitabət kürsüsündən səsləndirdiyi bəyanatlar və mesajlar dünyanın müasir gedişatının yeni yaşıl inkişaf mərhələsinin anonsudur.

Bakı COP29 sessiyası Birləşmiş Millətlər Təşkilatının "yaşıl dünya hərəkatı" mövzusunda keçirilən ümumdünya konfransıdır. Planetimizin 196 ölkəsini təmsil edən 72 mindən çox insanın çoxcəhətli səmərəli fəaliyyətini, təhlükəsizliyini, transferini, hətta, asudə vaxtını yüksək səviyyədə vahid bir ailə kimi təşkil edən Azərbaycan COP29 adlı çoxmillətli bir qitə yaratmağın nümunəsini göstərir. Bu mənada Bakı Olimpiya Stadionu Yer kürəsi, COP29-un Mavi Zonası okeanları, dənizləri, çayları və səmanı, Yaşıl Zona isə landşaftı, təbiəti simvolizə edir. Mifologiyada mavi rəngin genişlik, yaşıl rəngin isə dəyişiklik mənalarını daşıdığını nəzərə alsaq, COP29 qitəsinin müasir mənzərəsinin XXI əsrin inkişaf tendensiyalarını əks etdirdiyi qənaətinə gəlmək mümkündür. Sülh, qarşılıqlı əməkdaşlıq, ədalətli yaşıl cəmiyyət, yalnız rifaha və inkişafa xidmət edən yaşıl texnologiyalar Azərbaycan ölkəsinin yaratdığı möhtəşəm platformadan COP29 qitəsinin səsləndirdiyi yaşıl sivilizasiya çağırışlarıdır…

Azərbaycanın tarixi Qarabağ Zəfərini, Böyük Qayıdış hərəkatını, ən yüksək səviyyədə təşkil olunmuş COP29 yaşıl inkişaf platformasını qəbul edə, həzm edə bilməyən xarici ölkə dairələri öz qapılarını Günəşə qapadıqlarının fərqində olmayan bədbəxtlərdir. Azərbaycanda isə Prezident İlham Əliyevin COP29-un mötəbər xitabət kürsüsündən bütün dünya qarşısında bəyan etdiyi kimi günəşli günlərin sayı ən azı 250-dən çoxdur. Paytaxt Bakının isə bir adı da "Küləklər şəhəri"dir. Azərbaycan günəşli coğrafiyası, yaşıl enerjisi, yaşıl iqtisadiyyatı və ağıllı rəqəmsal inkişafı ilə yaşıl sivilizasiyanın astanasındadır.

# YAŞIL VƏ DAVAMLI İNKİŞAF NAMİNƏ QLOBAL VƏ MİLLİ ÇAĞIRIŞLAR

**İradə Hüseynova**
**AMEA-nın vitse-prezidenti,**
**AR ETN Molekulyar Biologiya və**
**Biotexnologiyalar İnstitutunun baş direktoru, akademik**
"Azərbaycan qəzeti", 23-24.06.2024

**2024-cü ilin noyabr ayında Azərbaycanda BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), həmçinin Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası kimi mötəbər tədbirlər keçiriləcəkdir. Bu barədə keçən il Birləşmiş Ərəb Əmirliklərində baş tutmuş COP28-də dünya birliyi tərəfindən qəbul edilmiş yekdil qərar qlobal siyasi arenada Azərbaycanın özünü etibarlı tərəfdaş kimi sübut etməsinin, BMT-də və digər beynəlxalq təşkilatlarda oynadığı fəal rolun, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin nəinki regionda, hətta bütün dünyada sülhün və beynəlxalq hüquq çərçivəsində ədalətin bərqərar olunması üçün əmək sərf edən güclü lider kimi yüksək şəxsi nüfuzunun nəticəsidir. Cənab Prezidentin çıxışlarından birində qeyd etdiyi kimi, sözügedən qərar eyni zamanda ölkəmizin müxtəlif dövlətləri müəyyən məsələlər ətrafında bir araya gətirmək gücünə və imkanına malik olmasının təsdiqi, Azərbaycana olan böyük etimadın təzahürü və "yaşıl keçid"lə bağlı səylərimizin ən yüksək səviyyədə qəbul edilməsinin göstəricisidir. Qətiyyətlə demək olar ki, ölkəmizin 120 dövləti birləşdirən Qoşulmama Hərəkatına böyük uğurla sədrlik etməsi, BMT-də və digər müxtəlif beynəlxalq təşkilatlarda fəal rolu və təmsilçiliyi COP29-a sədrliyin də uğurlu olması üçün əlverişli imkanlar yaradır və bu imkanların reallaşacağı şəksizdir.**

Məlumdur ki, mavi və yaşıl rənglər insanın müşahidə dairəsində olan kainat daxilində Yer kürəsinin xarakterik simvollarıdır. Kosmosdan məhz bu rənglərdə görünən planetimizdə həyatın varlığını su-okean təbəqəsi və yer üzünün yaşıl örtüyü təmin etmişdir. Bunlar isə təbii olaraq canlıların yaşamı üçün temperatur, rütubət və maddələrin ən optimal nisbətlərinin mövcud olduğu iqlimlə və atmosferin tərkibi ilə sıx əlaqədardır.

Bəşər övladı tarixi ərzində planetə sahibləndikcə, təbiəti tam şəkildə idarə etməyə, onun sərvətlərinin özünün tükənməyən, daim artan ehtiyaclarının ödənməsi naminə səmərəsiz istifadə olunmasına aramsız cəhdlər göstərdikcə ətraf mühitə sağalmaz yaralar vurmuş, qlobal ekoloji durumu fəlakət halına gətirmişdir. Sənaye inqilabları bir-birini əvəz etdikcə dünyanın ekologiyasında təsir və təzyiqlər də durmadan ölçüyəgəlməz dərəcədə artmışdır. Son yüzillikdə isə bioloji müxtəlifliyə qarşı ciddi təhdidlər, növlərin itməsi adi hal almışdır. İqlim dəyişiklikləri içməli və suvarma suları ilə təminatda problemlər yaratmış, buzlaqların və göllərin sahəsi azalmış, növlərin miqrasiyası güclənmiş, ekosistem xidmətlərinin keyfiyyəti aşağı düşmüşdür.

Antropogen fəaliyyətlərin intensivləşməsi sayəsində səhralaşma, yaşıl örtüyün kasadlaşmasının yüksək tempi (məsələn, yüz, hətta min illər ərzində formalaşan meşəliklərin sahəsi təkcə 2001-2021-ci illər arasında 437 milyon ha azalmışdır), qlobal istiləşmə, istixana effekti, atmosferin temperaturunun son 200-250 il ərzində 2°C-yə qədər yüksəlməsi ilə bağlı əsaslı bilgilərin aşkar olunması elm adamlarını, qabaqcıl təfəkkür sahiblərini artan təhlükəni görməyə, həyəcan təbili çalmağa, səsləri eşidilmədikdə isə qərar qəbulu mexanizm və instansiyalarına təsir etmək məqsədilə təşkilatlanma üzrə addımlar atmağa vadar etmişdir.

Beləliklə, bioloji müxtəlifliyə və ümumən təbiətə dağıdıcı təsirlərlə bağlı narahatlıq XX əsrin ortalarına doğru getdikcə daha çox insanı ətrafına toplamağa başlamışdır. Məhz bu hiss könüllü təbiətsevərləri, o cümlədən elm adamlarını, ictimai fəalları adət etdikləri həyat tərzini buraxaraq uzaq səfərlərə çıxmağa, orada dünənə qədər varlığından heç kimin xəbəri olmadığı canlıların xilası naminə ağlasığmaz cəhdlər etməyə məcbur edirdi. Bütün dünyada təbiətin mühafizəsini həyatının mənasına çevirmiş, gördükləri işin səmərə verəcəyinə inanan, qorunan təbiət ərazilərinin, qoruq və yasaqlıqların yaradılması məqsədilə illərlə qərar qəbulu instansiyalarına ayaq döyən, həyəcan təbili çalan insanların cəhdləri heç də həmişə uğurlu alınmırdı. Təəssüf ki, dünya liderlərinin böyük əksəriyyəti “kimsə bir ağac kəsirsə, elə bil mənim qollarımı kəsir” məfkurəsindən, amalından uzaq olmuş, sənayeləşmənin eyforiyasını yaşayan dünya gücləri, böyük dövlətlər, beynəlxalq təşkilatlar ilk vaxtlarda alimlərin çağırışlarını eşitməməzliyə vurmuş, elmi dəlilləri görmək istəməmişlər.

Belə bir zamanda – XX əsrin ortalarından etibarən dünyanın tərəqqipərvər qüvvələrinin getdikcə güclənən vətəndaş mövqeyinin və güclü ictimai fikrin təzyiqi altında Beynəlxalq Təbiətin Mühafizəsi Birliyi

(İUCN, 1948), Ümumdünya Təbiəti Mühafizə Fondu (WWF, 1961), Greenpeace (1971), BMT-nin Ətraf Mühit Proqramı (UNEP, 1972) və s. kimi qurumların, bir çox ölkədə "Yaşıllar" partiyalarının yaradılması, dünya yaşıllar hərəkatının formalaşması, bu hərəkatın ayrı-ayrı ölkələrdə siyasətə və qərarların qəbulu prosesinə ciddi şəkildə nüfuz etməsi bəşəriyyətin özünüxilas instikti ilə elmi biliklərə arxalanma və güvənmənin vəhdətinin bariz göstəricisi olmuşdur.

Mərkəzi iqamətgahı İsveçrənin Qland şəhərində yerləşən İUCN bir təşkilat olaraq üç komponentdən – üzv təşkilatlar, altı elmi komissiya və katiblikdən ibarətdir. IUCN-in üzvləri dövlətlər, dövlət qurumları, beynəlxalq və milli qeyri-hökumət təşkilatları, elmi tədqiqat institut və mərkəzləridir. Hazırda təşkilat 1400-dən çox üzvü, 181 dövlətdən 12000-dən çox alim və mütəxəssisi birləşdirir. UNESCO, ECOSOC və FAO-nun məsləhətçisi statusu olan Birliyin fəaliyyət proqramı 1979-cu ildə qəbul edilmiş Dünya Ətraf Mühit Strategiyası tərəfindən tənzimlənir. Birlik Qırmızı Kitab, elmi ədəbiyyat, serial və digər xüsusi materialları dərc edir və yayır. Qeyd edim ki, İUCN-in üzvləri sırasında Azərbaycanın IDEA İctimai Birliyi də yer almaqdadır.

WWF dünyada beş milyondan çox tərəfdarı olan ən böyük mühafizə təşkilatıdır. 100-dən çox ölkədə fəaliyyət göstərir, 3000-dən çox ətraf mühit layihələrini dəstəkləyir. Fond tərəfindən 1995-ci ildən bəri 12 mindən çox qorunma təşəbbüsünə 1 milyard dollardan artıq sərmayə yatırılmışdır. WWF-in Azərbaycan nümayəndəliyi 2001-ci ildən fəaliyyət göstərir. Bu müddət ərzində nümayəndəlik Azərbaycanda biomüxtəlifliyin qorunması və inkişaf etdirilməsi istiqamətində bir çox layihələr həyata keçirmişdir. Hazırda Qafqazda bəbirlərin mühafizəsi, ceyranların və bizonların reintroduksiyası, iqlim dəyişmələrinə qarşı meşə ekosistemlərinin dözümlülüyünün artırılması istiqamətində layihələr icra edilməkdədir.

Greenpeace (Yaşıl sülh) Avropa, Amerika, Asiya və Okeaniyadakı 40 ölkədə mövcud olan qeyri-kommersiya təşkilatıdır. Təşkilat öz fəaliyyəti üçün dövlətlərdən, şirkətlərdən və siyasi partiyalardan vəsait almır və heç bir sponsorluğu da qəbul etmir, ancaq üzvlərinin maddi və mənəvi yardımları ilə fəaliyyətini davam etdirir. Ətraf mühitə qarşı işlənən cinayət və cinayətkarlara qarşı edilən etiraz aksiyaları, araşdırmalar, mediada yer alan məqalələr sadəcə bütün işin görünən tərəfləridir. Təşkilatın hazırda 24 beynəlxalq və 4 regional ofisi və bu ofislərin fəaliyyətini həyata keçirən 101 ölkədə 2 milyon 800 min fəal tərəfdarı vardır.

BMT-nin Ətraf Mühit Proqramı (UNEP) 1972-ildə yaradılmışdır və vəzifəsi bugünkü və gələcək nəsillərin rifahı naminə ətraf mühitin yaxşılaşması və qorunmasına yönəlmiş tədbirlərin təşkili və həyata keçirilməsindən ibarətdir. Proqramın şüarı "İnkişaf naminə çevrəmiz"dir. Baş qərargahı Keniyanın paytaxtı Nayrobidə yerləşən UNEP-in digər ölkələrdə də altı böyük regional ofisi vardır. Bu qurum qlobal və regional səviyyələrdə ekologiya problemləri ilə bağlı istənilən məsələlərə baxır. Eyni zamanda UNEP yer atmosferi, dəniz və yerüstü ekosistemlərlə bağlı çeşidli layihələr həyata keçirir.

Yaşıllar hərəkatı bizi əhatə edən mühitin dağılmasına qarşı mübarizə aparan, insanla təbiət arasında münasibətlərdə daha çox ahəngin əldə olunmasına çalışan qeyri-hökumət təşkilatlarının, qrupların, cərəyanların ümumiləşmiş adıdır. Yaşıl rəng təbiətin, ümidin, yeniliyin rəmzi olduğu üçün seçilmişdir.

1970-ci illərdə ətraf mühitlə bağlı "Avropa təbiətinin qorunması ili" kampaniyası (1970), Stokholmda keçirilən çevrə problemləri üzrə BMT-nin konfransı (1972) və s. kimi tədbirlər diqqət çəkmişdir.

İlk dəfə Dünya İqlim Konfransı 1979-ci ildə keçirilmişdir. Burada Qlobal İqlim Proqramı qəbul olunmuşdur. 1988-ci ildə Dünya Meteorologiya Təşkilatı və BMT-nin Ətraf mühit Proqramı tərəfindən Beynəlxalq Hökumətlərarası İqlim Panelinin (BHİP) əsası qoyulmuş və Cenevrədə II Dünya İqlim Konfransı baş tutmuşdur.

Bundan başqa, müvafiq məsələlərin ictimailəşdirilərək qərar qəbulu mexanizm və instansiyaları qarşısında qaldırılması istiqamətdə dünyada Donald Worster, James Ephraim Lovelock, Donella Meadows kimi tanınmış ekoloqlar, Azərbaycanda akademiklər Həsən Əliyev, Budaq Budaqov, Cəlal Əliyev kimi görkəmli alimlər də təqdirəlayiq işlər görmüşlər.

Alimlərin fikrincə, sənayeləşmənin sürətli və nəzarətsiz inkişafı, ətraf mühitin sənaye və məişət tullantıları ilə çirkləndirilməsi, ehtiyatların səmərəsiz tükədilməsi, əhalinin intensiv artımı olduğu kimi davam edərsə, yer kürəsində həyatın varlığı təhlükə altına düşəcəkdir. Bunun qarşısının alınması üçün ekoloji və iqtisadi sabitliyə nail olmaq lazımdır. Alimlər çıxış yolunu ekosistemlərin xidmətlərindən istifadənin səmərəliliyinə nail olunmasında, istehsalın ətraf mühitə ziyan vurulmaması baxımından ciddi nəzarətdə saxlanılmasında, ekoloji təmiz texnologiyalara, "yaşıl enerji", "yaşıl iqtisadiyyat" prinsiplərinin tətbiqinə keçilməsində görürdülər.

Tərəqqipərvər bəşəriyyətin, ekoloji fəallar hərəkatlarının, xüsusən alimlərin yüksək səslə həyəcan təbili çalmasının nəticəsi olaraq 1992-ci ildə

dünya birliyi ölkələrinin Rio-de-Janeyro sammitində planetimizdə həyatın davamı üçün mühüm əhəmiyyət daşıyan 2 mühüm beynəlxalq sənəd ərsəyə gətirilmişdir. Bunlardan biri **Bioloji Müxtəliflik haqqında Konvensiya**, digəri **BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyası**dır.

Bioloji Müxtəliflik haqqında Konvensiyanın (BMK) məqsədləri bioloji müxtəlifliyin qorunması, onun komponentlərinin davamlı istifadəsi və bunun nəticəsində yaranan faydaların ədalətli şəkildə bölüşdürülməsi, o cümlədən genetik ehtiyatlara lazımi çıxışın təmin edilməsi, resurslara və innovasiyalara dair bütün hüquqlar nəzərə alınmaqla müvafiq texnologiyaların yaradılması və adekvat maliyyələşdirmə yolu ilə uyğun şəkildə ötürülməsidir. Biomüxtəlifliyin bəşəriyyətin ümumi səyi ilə qorunmasını nəzərdə tutan BMK Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 14 mart 2000-ci ildə ratifikasiya olunmuşdur.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC) atmosferdə istixana qazlarının konsentrasiyalarını sabitləşdirməklə "insanların iqlim sisteminə təhlükəli müdaxiləsi" ilə mübarizə aparmaq üçün ölkələr arasında bağlanmış beynəlxalq müqavilədir. Çərçivə Konvensiyasının son məqsədi onun 2-ci maddəsində: "atmosferdə istixana qazlarının konsentrasiyaları iqlim sisteminə təhlükəli antropogen müdaxilənin qarşısını alacaq səviyyədə sabitləşdirilməlidir" şəklində göstərilmışdır.

Konvensiya 1992-ci ildə Rio-de-Janeyro şəhərində keçirilən Dünya Sammitində 154 ölkə tərəfindən imzalanmış, 21 mart 1994-cü il tarixində 50-ci üzv ölkənin ratifikasiya prosesini tamamlaması ardından qüvvəyə minmişdir. Konvensiyanın Əlavə 1-nə daxil edilmiş ölkələr (əsasən inkişaf etmiş ölkələr) atmosferə tulladıqları istixana qazlarının azaldılmasına dair öhdəliklər götürürlər. Konvensiyaya üzv ölkələrin əksəriyyəti Əlavə 1-ə daxil edilməyən inkişaf etməkdə olan ölkələrdir. Onların qarşısında emissiyaların azaldlıması istiqamətində heç bir öhdəlik qoyulmur.

Çərçivə Konvensiyasının ali qərar qəbul edən orqanı – Konvensiya tərəflərinin konfransları (COP) iqlim dəyişikliyi ilə mübarizədə əldə edilmiş tərəqqini qiymətləndirmək və inkişaf etmiş ölkələr üçün istixana qazı emissiyalarını azaltmaq üçün hüquqi cəhətdən məcburi öhdəlikləri müəyyən etmək üçün keçirilir. Qeyd edək ki, Konvensiya tərəflərinin ilk konfransı (COP1) 1995-ci ildə Berlin şəhərində keçirilmişdir. 2005-ci ildən başlayaraq konfranslar həm də "Kyoto Protokolunun Tərəflərinin Müşavirəsi rolunu oynayan Tərəflərin Konfransı" (CMP) kimi fəaliyyət göstərmişdir. 2011-ci ildən 2015-ci ilə qədər görüşlər iqlim fəaliyyətinə doğru ümumi yol yaradan Durban platformasının bir hissəsi kimi Paris Sazişini müzakirə

etmək üçün istifadə edilmişdir. 12 dekabr 2015-ci il tarixində iqlim dəyişikliyi ilə bağlı hüquqi cəhətdən məcburi beynəlxalq müqavilə olan Paris Sazişi qəbul olunmuşdur. Hazırda 198 ölkə və ərazi İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının tərəfləridir.

Məlumdur ki, Minilliyin İnkişaf Məqsədlərinin davamı olaraq BMT Baş Assambleyasının 2015-ci il 25 sentyabr tarixli A/RES/70/1 nömrəli qətnaməsi ilə növbəti 15 il müddətinə insan inkişafı üçün son dərəcə əhəmiyyətli imkanların yaradılmasına, planetimizi qorumaqla qlobal inkişafın dayanıqlılığının təmin edilməsinə təkan verəcək 17 məqsəd və 169 hədəfdən ibarət “Dünyamızın transformasiyası: 2030-cuilədək dayanıqlı inkişaf sahəsində Gündəlik” (bundan sonra – Gündəlik) təsdiq edilmişdir. Dayanıqlı İnkişaf Məqsədlərinin **(DİM)** özünəməxsusluğu onların bütün ölkələri, o cümlədən yoxsul, zəngin və orta gəlirli ölkələri planetin mühafizəsini təmin etmək şərti ilə tərəqqini təşviq etmək üçün tədbirlər görməyə səsləməsində əks olunur. DİM-lər təsdiq edir ki, yoxsulluğun aradan qaldırılması iqtisadi artımın ətraf mühiti qorumaqla təmin edilməsinə yönələn strategiyalarla əlaqəli şəkildə həyata keçirilməlidir. Məqsədlər təhsil, sosial müdafiə və məşğulluq imkanları da daxil olmaqla geniş spektrli sosial ehtiyacları və bununla yanaşı, iqlim dəyişikliyi ilə mübarizə və ətraf mühitin mühafizəsini ön plana çəkir. Gündəlikdə müəyyən edilmiş qlobal məqsəd və hədəflər dayanıqlı inkişafın bir-biri ilə vəhdət təşkil edən iqtisadi, sosial və ətraf mühit sahələrində tarazlı idarəetmənin həyata keçirilməsi üçün beynəlxalq ictimaiyyət tərəfindən icrası zəruri hesab edilən kollektiv tədbirləri özündə əks etdirir.

Qeyd edək ki, **DİM-lərin** bir neçəsi birbaşa ətraf mühitlə bağlıdır. Bu məqsədləri “təbii ehtiyatların dayanıqlı şəkildə idarə olunması və iqlim dəyişikliyi ilə bağlı təxirəsalınmaz tədbirlər görməklə planeti korlanmadan qoruyaraq indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi” kimi ümumiləşdirmək olar.

İqlimlə bağlı əsas məqsəd (13-cü məqsəd) “**İqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə üzrə təcili tədbirlər görmək”** şəklində formalaşdırılmışdır.

Ətraf mühitə antropogen təsirlər nəticəsində “istixana” effekti yaradan qazların emissiyası artmaqda davam edir və iqlim dəyişikliyinə təkan verir. Qeyd edək ki, alimlər tərəfindən atmosferdə temperatur artımına səbəb kimi göstərilən əsas istixana qazları karbon qazı ($CO_2$), metan ($CH_4$), azot oksidi ($N_2O$) və xloroflorokarbonlardır (CFC). Xüsusən, havada $CO_2$ konsentrasiyalarının artması qlobal ekoloji dəyişmələrin güclənməsinə

(hava şəraitlərindəki fərqlərin və ekstremal hadisələrin tezliyinin artması, uzunmüddətli dəyişikliklər və sürüşmələr) gətirib çıxarmışdır. Ciddi tədbirlər görülməzsə, dünya üzrə havanın temperaturunun 21-ci əsr ərzində 3$^{O}$C artacağı ehtimal olunur.

Heç bir ölkə iqlim dəyişikliklərinin təsirindən sığortalanmamışdır. Ekologiya, təbiət hadisələri siyasi sərhədləri "tanımadığından" sıfır emissiyaya malik ölkələrdə belə stres amillərinin güclənməsi böyük dövlətlərdən fərqli deyildir. Ölkələr daha təmiz, daha stabil iqtisadiyyata keçməlidirlər, alternativ və bərpa olunan enerji mənbələrinə yönəlmək, eyni zamanda uyğunlaşmalara səy göstərmək lazımdır.

Dəyişikliklər lokal ərazilər üzrə məhdudlaşdırıla bilmədiyindən, ortaq qərarların qəbul edilərək ümumi səylərlə yerinə yetirilməsi, beynəlxalq səviyyədə koordinasiya edilən həllər tapılması lazımdır. Bu faktın dərk edilməsi nəticəsində 2015-ci il dekabrın 12-də Parisdə Tərəflərin 21-ci Konfransında (COP21) Paris Sazişi qəbul edilmişdir. Bununla da, sazişə qoşulan ölkələr qlobal temperaturun artım səviyyəsini 2$^{O}$C-dən aşağı səviyyədə məhdudlaşdırmağa razılaşmışlar.

Ətraf mühit problemlərinə az və ya çox dərəcədə aid olan digər məqsədlərdən aşağıdakıları göstərmək olar:

**Məqsəd 2. Aclığa son qoymaq, ərzaq təhlükəsizliyini təmin etmək, qidalanmanı yaxşılaşdırmaq və kənd təsərrüfatının dayanıqlı inkişafına dəstək vermək.**

Aqrar sahədə orta və uzun müddət üçün başlıca məqsədlərdən biri iqlim dəyişiklikləri və streslərin güclənməsi dövründə bitkilərin, xüsusən onların strateji əhəmiyyət daşıyanlarının (Azərbaycan üçün ərzaqlıq buğdanın) məhsuldarlığının və keyfiyyətinin yüksəldilməsinə, kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirlərinin artırılmasına, kənd əhalisinin həyat qabiliyyətli inkişafına, ətraf mühitin mühafizəsi ilə rəqabətqabiliyyətli sektorun təşəkkül tapmasına nail olmaqdan ibarətdir.

**Məqsəd 6. Hamı üçün su və sanitariyaya əlçatanlığı və dayanıqlı idarəetməni təmin etmək.**

Su çatışmazlığı və quraqlıq dünyanın ən yoxsul ölkələrində aclıq və zəif qidalanmanın kəskinləşməsinə səbəb olur. 2050-ci ilə qədər hər dörd nəfərdən ən az birinin uzunmüddətli və ya təkrarlanan şirin su çatışmazlığına məruz qalan ölkələrdə yaşayacağı ehtimal olunur.

**Məqsəd 7. Hamının sərfəli, etibarlı, dayanıqlı və müasir enerji mənbələrinə çıxışını təmin etmək.**

Dayanıqlı enerji fürsətdir – həyatın, iqtisadiyyatın və planetin transformasiyasına imkan verir. “Yaşıl enerji” “yaşıl iqtisadiyyat”ın əsasıdır.

**Məqsəd 11. Şəhər və yaşayış məntəqələrinin açıqlığını, təhlükəsizliyini, davamlılığını və ekoloji dayanıqlılığını təmin etmək.**

İri yaşayış məntəqələrində ekoloji sabitliyə, ətraf mühitin təmizliyinə nail olunması xüsusilə çətindir və böyük həcmdə maliyyə yatırımları və ya iqtisadi rentabelliyin azalmasını tələb edir. Şəhərlərin üzləşdiyi problemləri aradan qaldırmaq üçün resurslardan istifadənin təkmilləşdirilməsi, çirklənmənin və yoxsulluğun azaldılması ilə yanaşı, aqlomerasiyanın normal inkişafı və böyüməsinə imkan verən ekoloji cəhətdən nisbətən təmiz üsullardan istifadə oluna bilər.

**Məqsəd 14. Dayanıqlı inkişaf naminə okeanları, dənizləri və dəniz ehtiyatlarını qorumaq və onlardan səmərəli istifadə etmək.**

Yağış suları, içməli sular, hava, iqlim, sahillər, qidanın əhəmiyyətli bir hissəsi, hətta havadakı nəfəs aldığımız oksigen də nəticə etibarı ilə dəniz tərəfindən təmin edilir və tənzimlənir.

**Məqsəd 15. Yer ekosistemlərini mühafizə və bərpa etmək və onların səmərəli istifadəsinə dəstək vermək, meşələrdən səmərəli istifadə etmək, səhralaşmaya qarşı mübarizə aparmaq, torpaq deqredasiyasını dayandırmaq, ona qarşı əks tədbirlər görmək və bioloji müxtəlifliyin itkisinin qarşısını almaq.**

Azərbaycan 2030 Gündəliyinə nail olmaq baxımından ən hazırlıqlı ölkələrdən biri olmaqla, burada dayanıqlı inkişaf məqsədlərinə sadiqlik yüksək səviyyələrdə dəfələrlə nümayiş etdirilmişdir. Azərbaycan Respublikasının Prezidenti 2016-cı ildə BMT-nin Azərbaycan hökumətinə göstərdiyi dəstəyin əlaqələndirilməsi üçün əsas tərəfdaş kimi fəaliyyət göstərən Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılmasına dair fərman imzalamışdır. Eyni zamanda Azərbaycan DİM-lərə nail olunmasını milli səviyyədə sürətləndirmək üçün atıla biləcək konkret siyasi addımlarını və proqramlaşdırma fəaliyyətlərini əks etdirən MAPS (Gündəlik naminə aktuallaşdırma, sürətləndirmə və siyasətə dəstək) missiyasını həyata keçirən ilk ölkələrdən biri olmuşdur və müvafiq təcrübə 2018-ci ildə Dayanıqlı İnkişaf üzrə Bakı Forumunda təqdim olunmuşdur. Digər məsələlərlə bərabər, forumda 2030 Gündəliyinin yerinə yetirilməsini sürətləndirmək məqsədilə fəaliyyətləri müəyyən edən Bakı Prinsiplərinin qəbul edilməsi gerçəkləşdirilmişdir. 15-16 noyabr 2023-cü il tarixlərində keçirilmiş Dayanıqlı İnkişafa dair 2-ci Bakı Forumunda da bir sıra vacib qərarlar qəbul edilmişdir ki,

bunların arasında ətraf mühit problemləri ilə bağlı məsələlər də yer almışdır.

Bu gün dünyada qlobal iqlim dəyişmələrinin mənfi təsirinə qarşı mübarizə əsasən iki istiqamətdə aparılır. Onlardan biri Çərçivə Konvensiyasının məqsədinə (Paris Sazişinin tələbi olaraq dünyada karbon qazının miqdarını azaltmaqla qlobal istiləşməni ən pis halda 2, yaxşı halda 1,5$^{O}$C ilə məhdudlaşdırmaq) daxildir, yəni əsas məqsəd karbon emissiyasının azaldılması ilə daha çox dəyişilmənin qarşısının alınmasından, onun təsirlərinin yumşaldılmasından ibarətdir. Bununla bağlı, Konvensiyanın tərəfləri öz üzərlərinə bir sıra öhdəliklər götürmüşlər, burada elmin rolu bu öhdəliklərin yerinə yetirilməsinin iqtisadi artıma, əhalinin rifah halına, aclıq və yoxsulluğa qarşı mübarizəyə ciddi təsir etməməsi üçün yolların tapılmasından ibarətdir.

Digər istiqamət təsərrüfat fəaliyyətlərinin, xüsusən kənd təsərrüfatı sistemlərinin, burada istifadə edilən bitki sortları və heyvan cinslərinin iqlimin dəyişmələrinə uyğunlaşmasına nail olunması, müvafiq stres amillərinə davamlı, adaptiv və məhsuldar genotiplərin, eləcə də yeni becərmə və yetişdirilmə texnologiyalarının yaradılması və tətbiqindən ibarətdir.

Klassik seleksiyanın imkanlarının tükəndiyi, əkin və otlaq sahələrinin əhəmiyyətli dərəcədə genişləndirilməsinin mümkün olmadığı, quraqlıq stresinin gücləndiyi müasir dövrümüzdə ərzaq təhlükəsizliyini təmin etməyin yeganə yolu seleksiya fəaliyyətlərində, əkinçilik və heyvandarlıq təcrübəsində məhz elmin müasir biotexnoloji və rəqəmsal metodlarından, genomiks kimi yüksək texnologiyalardan istifadə etməklə aparılan elmi tədqiqatlar ola bilər. Bütün bunların vaxtında dərk edildiyi, müvafiq strategiyaların qurularaq həyata keçirildiyi ölkələrdə nəinki ərzaq təhlükəsizliyi problemi həll edilmişdir, bu ölkələr həmçinin aqrar bölməni ekologiyaya az ziyan vurmaqla, yüksək gəlir gətirən iqtisadiyyat sahəsinə çevirə bilmişlər. Bu gün inkişaf etmiş ölkələrdə davamlılıq kimi multimürəkkəb əlamətlərin genetik "arxitekturası"nın təyini üzrə irimiqyaslı genetik tədqiqatlar aparılır. Milli səviyyədə məqsədlərin gerçəkləşdirilməsi üçün Azərbaycan elmi də müvafiq problemlərin həlli istiqamətində dünya ilə ayaqlaşmaq məcburiyyətindədir.

Böyük alim və ictimai-siyasi xadim akademik Cəlal Əliyevin yaratdığı AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda AR KTN Əkinçilik ET İnstitutu ilə əməkdaşlıqda yuxarıda qeyd olunmuş istiqamətlərdə bir sıra mühüm fundamental və tətbiqi nailiyyətlər əldə olunmuş, rəqəmsal fenomiks, genomiks, molekulyar, biokimyəvi, morfo-fizioloji və

biofiziki parametrlərin bioinformatik proqramlarla kompleks müqayisəli analizinin nəticələri artıq davamlı sortların yaradılmasında birbaşa tətbiq edilmişdir.

Bütün tarix ərzində insan cəmiyyətinin yaşamaq üçün mübarizə gedişində təbiət üzərində apardığı iri həcmli eksperimentlər, o cümlədən Neolit inqilabı, ictimai-siyasi formasiyaların dəyişməsi, dünyanın daim yenidən bölüşdürülməsi uğrunda böyük müharibələr müəyyən qrup toplumların əsasən ötəri, konkret, fiziki və hegemonluq ehtiyaclarının ödənməsinə xidmət göstərməklə yekunda ətraf mühitdə ciddi dağıdıcı izlər buraxmışdır. Lakin bəşəriyyət ətraf mühitə az ziyan vurmaqla özünə uyğun nəticələrin məhz elmin və elm adamlarının iştirakı ilə əldə edilməsi üzrə bu günə kimi nadir rast gəlinən proseslərə də şahidlik etmişdir. Bunlardan biri dünyanın yaşıl örtüyünün qorunması, təbii landşaftların, meşə və otlaq ekosistemlərinin deqredasiyasının imkan daxilində azaldılması şərtilə əhalinin ərzaq, geyim, təsərrüfat ehtiyaclarının ödənməsində mühüm mərhələ olmuş "Yaşıl inqilab" hesab edilə bilər.

"Yaşıl inqilab" termini ilə 1940-cı illərlə 1970-ci illərin sonları arasında dünyada ərzaq təhlükəsizliyini təmin etmək üçün kənd təsərrüfatı sistemləri və istehsalı ilə bağlı bir sıra tədqiqat və texnologiyaların yaradılması, inkişafı və ötürülməsi istiqamətində həyata keçirilən təşəbbüslər adlandırılmışdır.

"Yaşıl inqilabın atası" hesab olunan Nobel mükafatı laureatı Norman Borlaugun və ardıcıllarının ideyaları və tədqiqatları 1960-70-ci illərdə milyarddan çox insanı aclıqdan xilas etməklə yanaşı, əkin sahələrinin meşələr, otlaqlar, savannalar, digər yaşıl örtük daşıyıcıları hesabına artırılmasının qarşısını almağa yardım etmiş, təbii ehtiyatlardan səmərəsiz istifadəni azaltmaq imkanı yaratmışdır. İnqilabi yenilik ondan ibarət idi ki, kənd təsərrüfatı istehsalı intensiv əsaslara keçirilir, aqrar sahəyə investisiyalar artırılır, sintetik gübrələrin və pestisidlərin kütləvi istifadəsi, proseslərin mexanikləşdirilməsi, yüksək məhsuldar sortların əldə edilərək tətbiq olunması və bunun üçün genetik yaxşılaşdırılma kimi tədqiqat fəaliyyətləri sistem halında birləşdirilirdi. Qeyd edilənlərin hesabına dünyada kənd təsərrüfatı məhsullarının, xüsusən də buğda, düyü, qarğıdalı kimi dənli bitkilərin məhsuldarlığının və ümumi istehsalının güclü artımı mümkün olmuşdu. Amma kimyəvi zəhərli vasitələrdən geniş istifadə nəticəsində bu inqilabın ətraf mühitə mənfi təsirləri də olmuşdur ki, bunlar ekosistemlərin keyfiyyətini aşağı salmışdır. Ona görə də bu gün dünyada "ikinci yaşıl inqilab"a cəhdlər edilməkdədir. Məqsəd yeni elmtutumlu innovativ texnologiyaları yaratmaq və kənd təsərrüfatında tətbiq etməklə daha məhsuldar, keyfiyyət-

li ərzaq məhsullarının əldə edilməsinə, aqroekosistemlərin bütövlüyünü saxlamaqla, ətraf mühitin sağlamlığına zərər verməməklə nail olunmasından ibarətdir.

Ətraf mühitə, təbiətin gözəlliklərinə həssas münasibət, yaşıl dünyanın sərvətlərindən ekologiyaya, canlı növlərə zərər verilmədən istifadə olunması tarixən Azərbaycan coğrafiyasında yaşamış xalqların ənənəvi fərqləndirici xüsusiyyətlərindən olmuş, müvafiq dünyagörüşü yerli folklorda, sənət əsərlərində, tarixi mədəniyyət abidələrində, klassik ədəbiyyatda geniş şəkildə əks edilmişdir.

XX əsrin ikinci yarısında və XXI əsrdə Azərbaycan xalqının və dövlətçiliyinin siyasi və mənəvi liderliyi missiyasını böyük şərəf və uğurla həyata keçirmiş Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daha da inkişaf etdirdiyi ekologiyanın sağlamlaşdırılmasına, təbiətin yaşıl örtüyünün genişləndirilməsinə istiqamətlənmiş siyasi kurs bu mənada olduqca xarakterikdir və bütün dünyaya nümunə göstərilə bilər.

Heydər Əliyev ölkəyə rəhbərlik etməyə başladığı andan karbohidrat ehtiyatları hasil edən, ərazisinin məhdudluğu ilə müqayisədə kifayət qədər karbon emissiyasına malik olan, neft-kimya sənayesinin miqyası və gücü, kənd təsərrüfatı sistemi ilə fərqlənən ölkənin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına, ətraf mühitin mühafizəsinə, təbiətdən səmərəli istifadə məsələlərinə hər zaman böyük diqqət yetirmiş, Azərbaycanın bioloji müxtəlifliyin qorunub saxlanmasını özünün dövlətçilik fəaliyyəti üçün başlıca məqsədlərdən biri kimi müəyyənləşdirmişdir.

Ulu Öndərin Azərbaycanın elm adamlarının, o cümlədən böyük təbiətşünas alim akademik Həsən Əliyevin "Həyəcan təbili" əsərində qaldırdığı problemlərin ciddi təhlili və həll yollarının araşdırılmasına əsaslanan bu siyasətində doğma Azərbaycanın yaşıl aləminə, zəngin bitki örtüyünə, əsrarəngiz landşaftlarına, gözəl təbiətinə özünün formalaşdırdığı azərbaycançılıq ideyası prizmasından yanaşması mühüm rol oynamışdır. Böyük strateq Heydər Əliyev bilirdi ki, elm Yer üzündə canlı həyatın davamında və bəşəriyyətin yaşam keyfiyyətinin yüksəldilməsində, insan cəmiyyətinin tərəqqisi və rifahının yaxşılaşdırılmasında, daim qloballaşan dünyada dayanıqlı inkişafın, beynəlxalq sülh və əməkdaşlığın təmin olunmasında və dərinləşdirilməsində başlıca hərəkətverici qüvvədir.

Azərbaycan alimləri də Ulu Öndərin çağırışlarına səs verərək nadir və itmək təhlükəsində olan fauna və flora növlərinin, torpaq və su resurslarının, milli sərvətimiz olan təbiət incilərinin öyrənilməsi, bərpası, qorunub

saxlanılması, ətraf mühitin mühafizəsi ilə bağlı konseptual ideyalar, dərin elmi mühakimələr irəli sürür, proseslərdə fəal iştirak etməyə çalışırdılar.

1970-ci illərin əvvəllərindən başlayaraq Ulu Öndərin məqsədyönlü siyasəti və planlı fəaliyyəti sayəsində təbiətin Azərbaycana verdiyi imkan və potensialdan daha geniş və səmərəli istifadə edilməyə başlanmış, ölkənin bioloji ehtiyatlarının qorunub-saxlanması, nəsli kəsilmək təhlükəsi altında olan bir sıra bitki və heyvan növlərinin bərpa edilərək reintroduksiyasına nail olunması, areallarının genişləndirilməsi üçün geniş həcmdə işlər aparılmış, yeni-yeni yaşıl massivlərin, meşə zolaqlarının salınması kütləvi xarakter almış, prosesə geniş şəkildə dövlət resursları və əhali cəlb olunmuşdu.

1970-ci illərdə Ulu Öndərin dəstəyi ilə Azərbaycanda biologiya və ekologiya elmlərinin inkişafında, biomüxtəlifliklə bağlı strateji sənədlərin hazırlanmasında akademik Cəlal Əliyevin istiqamətverici rolu xüsusilə diqqətəlayiqdir. Həmin dövrdən başlayaraq bu böyük alimin rəhbərliyi ilə aparılan kompleks tədqiqat işləri kənd təsərrüfatı bitkilərinin potensial məhsuldarlığının reallaşdırılmasının fizioloji-genetik əsaslarının öyrənilməsi ilə yanaşı, biomüxtəlifliyin və onun genetik ehtiyatlarının tədqiqi, qorunub saxlanılması və səmərəli istifadəsinə yönəldilmişdi.

Ulu Öndər sadəcə müxtəlif tədbirlərdə çağırışlarla kifayətlənmir, bütün ideyalarının qanunvericilik müstəvisində təsbitinə çalışırdı. Əlamətdar haldır ki, təkcə Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə Ümummilli Liderin təşəbbüsü və səyləri ilə ekologiya, ətraf mühitin mühafizəsi və təbii resurslardan səmərəli istifadəyə dair çox mühum 8 qanun, Azərbaycan KP MK-nın və Nazirlər Sovetinin 32 qərarı qəbul olunmuşdur.

Məlumdur ki, qorunan təbiət əraziləri, dövlət təbiət qoruqları səciyyəvi və nadir təbiət komplekslərini və obyektlərini təbii vəziyyətində qoruyub saxlamaq, təbiət proseslərinin və hadisələrinin gedişini öyrənmək məqsədilə yaradılan təbiəti mühafizə, elmi müəssisə və ya təşkilat statusuna malik olan ərazilərdir.

1969-cu ildən başlayaraq bu cür ərazilərin sayının artırılması və sahələrinin genişləndirilməsi xüsusilə intensivləşmişdir. Burada Ulu Öndərin qətiyyəti və uzaqgörənliyi sayəsində yaradılmış dövlət təbiət qoruqlarını, yasaqlıqları, o cümlədən 1969-cu ildə təşkil edilmiş və Heydər Əliyevin 2003-cü il 5 iyul tarixli sərəncamı ilə milli parka çevrilmiş Şirvan qoruğunu, 1978-ci ildə Ağ göl, 1981-ci ildə İsmayıllı qoruqlarının formalaşdırılmasını, Azərbaycan SSR Nazirlər Sovetinin 4 iyul 1974-cü il tarixli qərarı ilə Bəsitçay çinar meşəsinin qoruq elan edilməsini xüsusi qeyd etmək lazımdır.

Bildiyimiz kimi, quru yarımsəhra iqlimi zonasında yerləşən Bakı və Abşeron yarımadasında bir ağac əkib ərsəyə gətirmək üçün uzun illərin zəhməti və elmi əsaslı qulluq, resurslar tələb olunur. Ötən əsrin əvvəllərində buraları ziyarət etmiş səyyahların xatirə yazılarında Bakı böz rəngdə, bitkisiz bir səhraya bənzər şəkildə təsvir edilmişdir. Tarix göstərdi ki, həqiqi vətənpərvərlik və xalqsevərlik, təbiətə real sevgi, güclü istək, dəmir iradə sayəsində səhralarda da "yaşıl dünya" yaratmaq mümkündür. Bu bir faktdır ki, 1970-ci ilə qədər, təqribən 50-60 il ərzində Bakı şəhərində adambaşına düşən yaşıl sahəni yalnız 6,5 kvadratmetrə çatdırmaq mümkün olmuşdusa, Ulu Öndərin təşəbbüsu ilə 7 sentyabr 1971-ci ildə Bakı şəhərinin yaşıllaşdırılması haqqında verilmiş mühüm qərar sayəsində 1975-ci ildə bu göstərici 17,5 kvadratmetr olmuşdu.

Qeyd edildiyi kimi, Azərbaycan əsasən quraq iqlimə malik olmaqla azmeşəli ölkələrdəndir. Üstəlik burada məhdud meşəlik sahələrı antropogen təsirlər, səmərəsiz istifadə nəticəsində asanlıqla sıradan çıxa bilir. Ölkənin 1960-cı illərdə azalmış yaşıl örtüyü 1969-1982-ci illər ərzində Heydər Əliyevin ardıcıl fəaliyyəti və şəxsi təşəbbüsləri nəticəsində təkrar genişlənmiş, dövlət meşə fondu torpaqlarında 51 min hektar sahədə yeni meşəliklər salınmışdı.

Azərbaycanın əsrarəngiz yaşıl örtüyə malik təbiətinin və zəngin bioloji müxtəlifliyinin mühafizəsi üzrə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün inkişafına ilk növbədə ehtiyac duyulan tədqiqat sahələri sırasında ekologiya, botanika və zoologiya elmlərini qeyd etmək lazımdır. Məhz 1970-ci illərin əvvəllərindən başlayaraq bu və digər əlaqədar elm sahələrinə ayrılan diqqətin, o cümlədən resursların artırılması, yeni imkanların yaradılması, kadrların düzgün seçilməsi və yerləşdirilməsi sayəsində Azərbaycan SSR EA-nın Botanika, Zoologiya, Torpaqşünaslıq və Aqrokimya institutlarında və s. elmi müəssisələrdə bütün keçmiş İttifaq üçün əhəmiyyətli sayılan nailiyyətlər qazanılmışdır.

Əkinçilik fəaliyyətlərinin əhəmiyyətli bir hissəsinin quraq iqlimə malik yarımsəhra landşaftlarında cəmləşdiyi Azərbaycanda yuxarıda qeyd edilən "Yaşıl inqilab"ın həyata keçirilməsində bazis rolunu kənd təsərrüfatı sistemlərinin su ilə təminat məsələləri oynayır. Suvarma problemi hər zaman ölkə üçün aktual olmuşdur, qlobal ekoloji dəyişikliklərin intensivləşdiyi dövrdə bu aktuallıq daha da artmışdır. Ulu Öndər yaxşı bilirdi ki, qeyd edilən problemi həll etmək üçün müvafiq addımlar atılmadan ərzaq təhlükəsizliyinə, kənd təsərrüfatı sahələrinin inkişafına nail olmaq mümkün olmayacaqdır.

Böyük Liderin təşəbbüsləri ilə 1969-1982-ci illərdə Ceyranbatan gölünün su təchizatının yaxşılaşdırılması, yeni su kəmərlərinin və kanallarının çəkilməsi, Arpaçay, Vayxır, Şamxor su anbarlarının və s. yeni su obyektlərinin tikilməsi, Baş Mil-Muğan kollektorunun yenidən qurulması, Kür-Araz düzənliyində 280 min ha sahədə torpaqların yuyularaq duzlardan təmizlənməsi qlobal iqlim dəyişmələrinin intensivləşdirdiyi stres amillərinə qarşı görülən vacib tədbirlər olmuşdur. Bu istiqamətdə atılmış addımlar sırasında həmçinin ümumi suvarılan əkin sahələrinin 1450 milyon ha-a çatdırılması, 550 min ha sahədə kompleks meliorasiya sistemlərinin yaradılması, 400 min ha sahədə otlaqlara su çıxarılması göstərilə bilər.

Bütün bu tədbirlər əhalinin ərzaq və təsərrüfat ehtiyaclarını əhəmiyyətli dərəcədə ödəməklə, təbii meşə və otlaqların əkin sahəsinə çevrilməsinin qarşısını almağa, təbiətdən səmərəsiz istifadəni məhdudlaşdırmağa, eyni zamanda quraq ərazilərdə yaşıllıq zonalarının yaradılmasına kömək etmişdir.

Azərbaycan müstəqillik qazanandan sonra xalqın çağırışı ilə hakimiyyətə qayıdan və xilaskarlıq missiyasını uğurla həyata keçirən Ümummilli Liderin ilk addımlarından biri də "Yaşıl dünya" məfkurəsinin yenidən ön plana çıxarılması olmuşdur. Təbiətə qarşı hər hansı dağıdıcı və ya etinasız hərəkətdən dərin narahatlıq hissi keçirən Ulu Öndərin ətrafda gördüklərinə etinasız yanaşması mümkün deyildi: "Mən 1993-cü ildə Bakıya gələrkən, bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsilməsini görərkən, elə bildim ki, məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir.... İnsan qurmalıdır, yaratmalıdır... hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü özünə xəyanət edir. Ona görə də siz hər bir ağacı qorumalısınız, hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız...". "1970-ci ildə mən ilk dəfə Bakıda yaşıllıq işləri aparılması təklifini irəli sürdüm, böyük bir proqram hazırladıq və Bakını sürətlə, ilbəil yaşıllaşdırmağa başladıq... Doğrudur, mən Azərbaycandan gedəndən sonra və xüsusən 1987-1988-ci illərdə çox nadan adamların respublikamıza rəhbərlik etdikləri dövrdə, bundan sonra Azərbaycanda, o cümlədən Bakıda hərc-mərclik, özbaşınalıq hökm sürdüyü zamanda cinayətkar adamların, dəstələrin böyük vəzifələr tutduğu, hakimiyyətə gəldiyi dövrdə Azərbaycan, Bakı üçün əziz olan bu sahə nəinki unuduldu, hətta, bizim böyük əziyyətlərlə əkdiyimiz, becərdiyimiz, boya-başa gətirdiyimiz ağacları kəsməyə başladılar". Bu sözlər görkəmli dövlət xadi-

minin təkcə vətənimizin deyil, eyni zamanda yer üzərində canlı həyatın gələcəyini düşündüyünün bariz göstəricisidir.

Azərbaycan təbiətinin böyük hamisi qısa müddətdə bütün digər sahələrdə olduğu kimi, biomüxtəlifliyin və ətraf mühitin mühafizəsi, ekologiyanın sağlamlaşdırılması istiqamətlərində də dövlət siyasətinin əsaslarını yenidən formalaşdırdı. Böyük dövlət xadiminin təşəbbüsləri ilə Azərbaycan Respublikası ətraf mühit və biomüxtəlifliklə bağlı çoxsaylı beynəlxalq sənədlərə, o cümlədən yuxarıda qeyd edilən və digər konvensiyalara, onların protokollarına (1993 – UNESCO-nun Ümumdünya mədəni və təbii irsin qorunması haqqında Konvensiyası; 1998 – Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında Konvensiya; 1999 – Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında Avropa Konvensiyası (Bern Konvensiyası); 2000 – BMT-nin Bioloji müxtəliflik haqqında Konvensiyası; 2005 - Bioloji müxtəliflik haqqında Konvensiya üzrə Biotəhlükəsizliyə dair Kartagena Protokolu; 2000 – UNESCO-nun Əsasən su quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyətli olan sulu-bataqlıq yerlər haqqında Konvensiyası (Ramsar Konvensiyası); 2011 – Avropa Landşaft Konvensiyasına qoşulmuş, beynəlxalq öhdəliklər də nəzərə alınmaqla ölkə qanunvericiliyi təkmilləşdirilmişdir.

Azərbaycanda müvafiq tədqiqat və təhsil müəssisələrinə, nəbatat bağlarına göstərilən yüksək diqqət və qayğı, akademik Cəlal Əliyevin rəhbərliyi ilə Genetik Ehtiyatlar üzrə Milli Proqramın qəbulu və həyata keçirilməsi, Biomüxtəliflik üzrə Dövlət Komissiyasının, ölkədə ilk Milli Bitki Genbankının, digər toxum banklarının yaradılması, "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsi üzrə Milli Strategiya və Fəaliyyət Planı"nın (2006) qəbulu və sonrakı illərdə dəfələrlə yenilənməsi, tədqiqat institutlarının inkişafı və yenilərinin təşəkkülü, botanika bağları şəbəkəsinin genişləndirilməsi və s. Ulu Öndərin Azərbaycan təbiətinə məqsədyönlü hamiliyinin bariz nümunələri olmaqla həm xalqımız, həm də bütün tərəqqipərvər bəşəriyyət tərəfindən yüksək dəyərləndirilmiş və təqdir edilmişdir.

Ulu Öndərin "yaşıl dünya" ilə bağlı siyasi kursu Azərbaycanın təbətinə, bioloji müxtəlifliyinə daim xüsusi həssaslıqla yanaşan cənab Prezident İlham Əliyev tərəfindən 2003-cü ildən böyük uğurla davam və daha da inkişaf etdirilmişdir. Ölkə Başçısının rəhbərliyi ilə Azərbaycanda ətraf mühitin sağlamlaşdırılması, biomüxtəlifliyin qorunub saxlanması istiqamətində inanılmaz dərəcədə böyük işlər görülmüşdür. Cənab Prezidentin aşağıdakı sözləri aparılan fəaliyyətlərin leytmotivi hesab edilə bilər: "İn-

sanın yaxşı həyatını təmin edən amillərdən biri də ekoloji vəziyyət, sağlamlıq və təbiətin, ətraf mühitin qorunmasıdır. İnsanların sağlamlığı, ekoloji vəziyyət, udduğumuz hava, içdiyimiz su – bütün bunlara biz çox böyük diqqət göstərməliyik...”

Heydər Əliyev Fondu və IDEA İctimai Birliyi tərəfindən respublikamızda nadir və həssas növlərin bərpası məqsədilə əhəmiyyətli tədbirlər, o cümlədən ceyran, bəbir, bizon, bezoar keçisi, muflon və maralların tarixi yaşayış məskənlərində bərpa edilməsi, Fondun “Hərəmiz bir ağac əkək” kimi layihələri, Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə 650 min ağacın əkilməsi təşəbbüsü, mütəmadi həyata keçirilən “Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair Milli Strategiya”lar və fəaliyyət planları, 2010-cu ilin “Ekologiya ili” elan olunması, Cənubi Qafqazda ilk dəfə Azərbaycanda Vəhşi Təbiətin Bərpası və Reabilitasiya Mərkəzinin yaradılması, Ulu Öndərin 100 illik yubileyi münasibətilə xüsusilə böyük vüsət almış və bütün ölkəni (həmçinin işğaldan azad edilmiş əraziləri) əhatə edən ağacəkmə kampaniyaları ekologiyanın sağlamlaşdırılması istiqamətində atılan addımlara, görülən işlərə gözəl nümunələrdir. Bütün bu proseslərdə Mehriban xanım Əliyevanın rolu və xidmətləri də xüsusi qeyd edilməlidir. Mehriban xanımın özü və rəhbərlik etdiyi qurumlar tərəfindən Azərbaycan və azərbaycançılıq naminə, xalqımızın rifahı, haqq səsinin dünyaya çatdırılması üçün, biomüxtəlifliyin mühafizəsi, nadir və itmək təhlükəsində olan heyvan və bitki növlərinin bərpası istiqamətində görülən müqayisəyəgəlməz işlər xalq arasında olduğu kimi, dünyada da rəğbətlə qarşılanmış, həmçinin ölkəmizin və azərbaycanlı məfhumunun beynəlxalq imicinə da müsbət təsir etmişdir.

Nadir və nəsli kəsilməkdə olan flora və fauna növləri, habelə onların mühafizəsi və bərpası üçün zəruri tədbirlər haqqında illüstrasiyalı elmi tədqiqat məlumatlarını özündə əks etdirməklə mühüm istiqamətverici sənəd olan Azərbaycan Respublikasının “Qırmızı Kitab”ının Ulu Öndərin 100 illik yubileyinə həsr edilmiş 3-cü nəşrinin bir il əvvəl nəfis tərtibatda çapdan çıxmasını da xüsusi qeyd edtmək lazımdır. Bu kitabın bioloji müxtəlifliyin mühafizəsində mühüm rol oynayacağına şübhə yoxdur. “Qırmızı Kitab”ın təsis edilməsi haqqında ilk hökumət qərarının qəbul olunmasının məhz Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrə – 1977-ci ilə təsadüf etməsi də mühüm əhəmiyyət kəsb edir. Kitab digər özəllikləri ilə birgə, həmçinin ölkədə müxtəlif təşkilatların, elmi kollektivlərin “yaşıl dünya”

məqsədləri ətrafında kompleks, multidissiplinar tədqiqatlar aparmaq imkanları və qabiliyyətinə gözəl nümunə kimi göstərilə bilər.

Onu da qeyd edim ki, müvafiq məsələlər AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin daim diqqət mərkəzində olmuşdur. Ölkənin elmi tədqiqat və təhsil müəssisələrində aparılan tədqiqatlar üçün müəyyənləşdirilmiş prioritet istiqamətlər arasında mühüm yerlərdən birinin "Biomüxtəlifliyin, torpaq və su ehtiyatlarının müasir yanaşmalarla tədqiqi, bərpası, mühafizəsi, səmərəli istifadəsi, elektron məlumat bazaları və xəritələrinin yaradılması"ndan ibarət olması heç də təsadüfi deyildir.

Bölmənin müəyyənləşdirdiyi digər bir istiqamət "Bioloji proseslərin molekulyar-genetik və fiziki-kimyəvi əsasları, genom, proteom və metabolom tədqiqatları, yeni bio-, nano- və postgenom texnologiyalarının fundamental və tətbiqi əsaslarının işlənib hazırlanması" adlanır ki, bu istiqamət "yaşıl enerji" və "yaşıl iqtisadiyyat" problemlərini də əhatə edir.

Ulu Öndərin Azərbaycan xalqı qarşısında tarixi xidmətlərindən biri də qeyd edilən istiqamətlərdə, xüsusilə insan-təbiət vektoru üzrə ekoloji baxışlar sistemi çərçivəsində ictimai şüurun milli ənənələrə uyğun şəkildə yenidən tərbiyə edilməsindən ibarətdir. Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi ilk günlərdən ekologiya sahəsində tutduğu mövqe, "yaşıl örtük siyasəti" sonralar neçə-neçə nəslin şüurunda, deyərdim ki, qan yaddaşında təbiətə münasibətlə bağlı dərin izlər buraxmışdır.

Ulu Öndərin siyasətini uğurla davam etdirən cənab Prezident İlham Əliyevin atdığı addımlar, həmçinin Heydər Əliyev Fondu və IDEA İctimai Birliyi tərəfindən görülmüş işlər yeni nəsillərin vətənpərvərlik və dövlətçiliyə sədaqət ruhunda tərbiyələndirilməsi ilə yanaşı, onlara vətənin hər qarışına, bütün canlı və cansız aləminə dərin sevgi hissinin aşılanmasına xidmət etmişdir. Ulu Öndər öyrədirdi ki, Vətən sevgisi kor-koranə olmamalı, dərin biliklərə, insanın özünüdərkinə, ölkəsini və xalqını tanımasına əsaslanmalıdır.

Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi strateji qərar olmaqla, "yaşıl iqtisadiyyat"ın, "yaşıl enerji"nin, "yaşıl texnologiyalar"ın, "yaşıl dünya"nın inkişafına, respublikada "yaşıl ətraf mühit"in və "yaşıl artım"ın təmin edilməsinə töhfə verəcəkdir.

Bildiyiniz kimi, enerjinin davamlılığı ətraf mühitə, iqtisadiyyata və cəmiyyətə təsirlərinə görə müəyyən edilir. Enerji o zaman davamlı hesab olunur ki, "bugünkü ehtiyacları gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətinə xələl gətirmədən ödəsin".

Ekoloji tarazlığın qorunub saxlanılması "yaşıl iqtisadiyyat"a keçidlə – enerjinin alınması, çevrilməsi və enerjidən istifadənin innovativ yollarla yenilənməsi ilə sıx bağlıdır. Dünyada mineral yanacaq ehtiyatlarının azalması fonunda bəşəriyyətin ekoloji təmiz, dayanıqlı enerjiyə ehtiyacı artmaqdadır. Bu rolu bərpa olunan enerji – günəş, külək, axar su və dəniz dalğalarının enerjisi, geotermal enerji, bioenerji, hidrogen və s.-nin oynaması mümkündür ki, bu da enerji təhlükəsizliyini və deməli, "yaşıl iqtisadiyyat"a keçidi təmin edir. Bu enerji növləri iqlim, region və mövsümdən asılı olmayan, tez bərpa olunan, iqtisadi və ekoloji cəhətdən sərfəli olmalıdır. Dünyada ekoloji təmiz, bərpa olunan enerji növlərinin tədqiqinə, bu sahədə yeni texnologiyaların yaradılması və tətbiqinə böyük maliyyə vəsaitləri xərclənir.

Azərbaycanda da bərpa olunan enerji növləri elmi yanaşmalarla öyrənilir, istifadəsinin praktiki məqsədlərlə əsaslandırılmasına dair intensiv tədqiqatlar aparılır. Bu tədqiqatlar multidissiplinar xarakterə malik olmaqla, böyük maddi vəsait, fizika, kimya, mühəndislik, fiziki-kimyəvi biologiya və biotexnologiyalar üzrə yüksək hazırlıqlı tədqiqatçıların uzun illər davam edən fəaliyyətini tələb edir.

Yuxarıda qeyd edildiyi kimi, ekoloji təmiz, təbiətə ziyan vurmadan, onu çirkləndirmədən əldə edilən enerji növlərindən istifadə "yaşıl iqtisadiyyat"ın təməlidir. "Yaşıl dünya"nın əsası olan "yaşıl iqtisadiyyat" isə "yaşıl" mədəniyyətin, "yaşıl əxlaq"ın cəmiyyət həyatında, insan toplumunun şüurunda və əməllərində özünə yer qazanması sayəsində qurula və fəaliyyət göstərə bilər. "Yaşıl iqtisadiyyat"ın qurulması da öz növbəsində "yaşıl mədəniyyət"in, "yaşıl həyat" tərzinin inkişafına, insanların gündəlik fəaliyyətlərində uyğun prinsiplərlə yaşamalarına rəvac verəcəkdir.

"Yaşıl enerji"nin ən mükəmməl nümunəsini təbiət özü təqdim etmişdir, bu, bitkilərdə gedən, su və karbon qazının günəş şüaları altında üzvi maddələrə çevrilməsinə əsaslanan, Yez üzərində canlı həyatın əsası olan fotosintezdir. Hazırda dünyada süni fotosintez, müxtəlif üsullarla hidrogenin əldə edilməsi, saxlanılması və onun enerjisindən istifadə üzrə tədqiqatlar geniş vüsət almışdır. Günəş və külək enerjisindən, eləcə də müxtəlif enerji növlərinin istehsalı zamanı tullantısız texnologiyalardan optimal istifadə məsələləri də təmiz ətraf mühit üzrə elmi tədqiqatların mühüm istiqamətləri sırasındadır. Bütün bu sahələrdə Azərbaycanda da tədqiqatların yüksək səviyyədə təşkili, müvafiq imkanların yaradılması, kadr hazırlığının gücləndirilməsi, dünya elmi ilə inteqrasiyanın təmin edilməsi dövrün tələbidir.

Perspektivlər haqqında mülahizələr yürütməklə yanaşı, Ulu Öndərin qayğı və diqqəti ilə hər zaman əhatə olunan Azərbaycan elmi tərəfindən

“yaşıl dünya” tədqiqatlarına bu günə kimi verilmiş dəyərli töhfələri mütləq qeyd etmək lazımdır. Bunlar həm “yaşıl dünya”nın, həm də müvafiq elm sahələrinin populyarlaşdırılması üçün də əhəmiyyət daşıyır. Böyük alim və ictimai-siyasi xadim akademik Cəlal Əliyevin elmi yaradıcılığı fotosintez tədqiqatların ən yüksək zirvəsi hesab edilə bilər. Cəlal müəllimin fotosintez və fototənəffüz sahəsində əldə etdiyi mühüm elmi nailiyyətlər Azərbaycan elminə dünya səviyyəsində şöhrət gətirmişdir. Akademik Cəlal Əliyev həmçinin Azərbaycanda 1970-ci illərdən başlayaraq həyata keçirilən “yaşıl inqilab”ın atası hesab edilir. Sevindiricidir ki, görkəmli alimin yaratdığı elmi məktəb bu gün də öz tədqiqatlarını davam etdirməkdədir.

Bildiyimiz kimi, özünün insan resursları, iqlimi, flora və fauna müxtəlifliyi, bərəkətli torpaqları, şəfalı suları ilə həmişə seçilmiş Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğalı nəticəsində bir sıra beynəlxalq konvensiyalara (Orxuskaya – 1951, QAAQ – 1965, Ramsar – 1971, Pan-Avropa (Bolqarıstan) – 1995, BMT-nin Biomüxtəlifliyə dair Beynəlxalq Konvensiyası – 1992, Bern – 1999 və s.), BMT-nin Davamlı İnkişaf Məqsədlərinə, digər beynəlxalq sənədlər və qanunvericilik aktlarına zidd olaraq bu bölgənin unikal biomüxtəlifliyinə, təbii landşaftlarına, torpaq və su resurslarına ciddi ziyan vurulmuş, regionda 13197,5 ha sahədə meşə sahəsi misli görülməmiş dəyişikliklərə uğramış, qiymətli ağac növləri kəsilərək Ermənistana daşınmış, otlaq sahələri, kolluqlar, yaşayış məntəqələri qəsdən yandırılmışdır. Unikal təbiət abidələri hesab edilən, yaşı 1000 və 2000-ə çatan şərq çinarları amansızcasına partladılaraq kəsilmişdir. Aqroekosistemlər, insanlar tərəfindən salınmış bağlar və yaşıllıq massivləri ya qəsdən tamamilə məhv edilmiş, ya da baxımsızlıq səbəbindən yer üzündən silinmişdir.

30 ilə yaxın bu cür ekoloji terrora məruz qalmış və Müzəffər Ali Baş Komandanın möhtəşəm rəhbərliyi, silahlı qüvvələrimizin, şəhid və qazilərimizin səyi ilə azad edilmiş və suverenliyi tam bərpa olunmuş Vətən torpaqlarının, qoruq və yasaqlıqların, təbii sərvətlərimizin, o cümlədən meşə resurslarının bərpası, yeni yaşıllıqların salınması dövrümüzün ən böyük çağırışıdır. Azad edilmiş ərazilərin yenidən qurulmasında, Böyük Qayıdışda, həyata keçirilən genişmiqyaslı bərpa işlərində ekoloji tələblərin nəzərə alınması, ətraf mühitin qorunması dövlətin prioritetləri sırasındadır.

Bu gün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında biomüxtəlifliyin bərpası və reintroduksiya üzrə işlər görülür, kütləvi ağacəkmə aksiyaları keçirilir (Təkcə Füzuli, Zəngilan və Ağdam rayonları ərazilərində 2000-dən çox müxtəlif növ ağac əkilmiş, 200 kq-dan artıq palıd və digər oduncaqlı bitkilərin toxumları səpilmişdir), Cəbrayılda təbiətə ceyranlar, su höv-

zələrinə müxtəlif növ balıqlar buraxılmışdır. Cənab Prezidentin regiona hər səfərində ağac əkməsi həm də təbliğat xarakteri daşımaqla, insanlarda böyük ruh yüksəkliyi yaradır. Yaşıl təbiətə və "yaşıl təbliğat"a töhfələr baxımından Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İB-nin rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü ilə uğurla həyata keçirilən "Gənclərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin ekoloji qiymətləndirilməsində iştirakı" layihəsini də qeyd edə bilərik.

Qüdrətli dövlət və yüksək rifah cəmiyyətinin qurulması istiqamətində ardıcıl səylər göstərən Azərbaycanın sosial-iqtisadi inkişafına dair 2030-cu ilə qədər reallaşdırılması planlaşdırılan beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı sənəddə yuxarıda qeyd edilən prioritet daxilində strateji dövrdə aşağıdakı iki məqsədin effektiv reallaşdırılmasına nail olunmalıdır:

– yüksək keyfiyyətli ekoloji mühit;

– yaşıl enerji məkanı.

1-ci mədsədin həyata keçirilməsi üçün uzun illər ərzində yaranan ekoloji problemlərin kompleks həlli və bu sahədə davamlı inkişafı diqqət mərkəzində saxlamaq, iqtisadi və demoqrafik artımdan ətraf mühitə gələ bilən riskləri azaltmaq lazımdır.

Ölkədə yüksək ekoloji tələblərə cavab verən yaşayış məntəqələrinin, "ağıllı" kənd və şəhərlərin salınması, mövcud şəhərlərin ekoloji durumun sağlamlaşdırılmasına, qapalı sənaye dövrlərinə, təmizləyici qurğulara, tullantıların utilizasiyasına istiqamətlənmiş tədbirlərin görülməsi, bütün bunlara külli miqdarda vəsait xərclənməsi 1-ci məqsədin reallaşdırılmasına ciddi tohfələr verir.

2-ci məqsədlə bağlı indiki və gələcək nəsillərin tələbatını dolğun ödəmək məqsədilə ekoloji baxımdan əlverişli olan "yaşıl texnologiya"ların tətbiqi genişləndirilməlidir. Alternativ və bərpa olunan enerji mənbələrinin ilkin istehlakda payı artırılmalıdır.

Bu istiqamətdə aparılan fəaliyyətlər Azərbaycan üçün yeni deyildir. Hələ 2004-cü ildə "Azərbaycan Respublikasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" qəbul edilmiş və yerinə yetirilmişdir.

Bu sahədə görülən işlərin davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 sentyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi yaradılmış, 2021-ci il 31 may tarixində "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq edilmişdir.

SOCAR-ın metan tullantılarının sıfıra endirilməsi ilə bağlı könüllü öhdəlik götürməsi ölkəmizin iqlim problemlərinə həssaslığının təzahürüdür. Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləmişdir. Azərbaycan Respublikasının Prezidenti tərəfindən işğaldan azad edilmiş torpaqlar "Yaşıl enerji" zonası elan edilmiş, 2022-2026-cı illər üzrə Tədbirlər planı təsdiqlənmişdir, bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

Artıq bu istiqamətdə çox vacib layihələr icra edilmişdir və edilir. Bunlardan biri kimi, cənab Prezidentin 25 dekabr 2023-cü il tarixli Sərəncamı ilə 2024-cü ilin olkədə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmasını qeyd etmək lazımdır. Bu sərəncam ölkədə "yaşıl iqtisadiyyat"ın, "yaşıl enerji"nin, "yaşıl texnologiya"ların tətbiqinə, geniş mənada "yaşıl artım"a hesablanmış strateji addımdır.

Azərbaycanın elmi ictimaiyyəti "yaşıl dünya"mızın qorunması da daxil olmaqla bütün istiqamətlərdə Ümummilli Liderin əsasını qoyduğu və cənab Prezidentin uğurla davam və inkişaf etdirdiyi siyasi kursu tam dəstəkləyir, dövlətimizin bütün layihələrində, o cümlədən ekoloji mühitin sağlamlaşdırılması ilə bağlı tədbirlər planlarının icrasında fəal iştirak etməyə çalışır.

Martın 1-də AMEA Rəyasət Heyəti və AR Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun birgə təşkilatçılığı ilə "Yaşıl dünyamızı qoruyaq" mövzusunda keçirilmiş konfrans, "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar tədbirlər planı çərçivəsində ilk addımlardan biri kimi əhəmiyyət daşımışdır.

Bu istiqamətdə növbəti maraqlı tədbir 5 aprel 2024-cü il tarixində AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda keçirilmişdir. "Yaşıl enerji və yaşıl iqtisadiyyat problemləri" mövzusunda beynəlxalq iştirakla elmi seminarda müvafiq sahə mütəxəssisləri tərəfindən son illərdə "Yaşıl enerji" tədqiqatlarında qazanılan, yeni, ekoloji təmiz energetik texnologiyaların yaradılması və tətbiqi sahəsində əldə edilən elmi-metodiki və texniki uğurların, yeni yanaşmaların nümayişi həyata keçirilmiş, problemin

nəzəri-fundamental və elmi-praktiki aspektləri və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur. Seminar yeni, qabaqcıl texnologiyaların öyrənilməsi, yaradılması və idxalına təkan verməklə, onların Azərbaycanda tətbiqinə müsbət təsir göstərəcəkdir.

23-24 may 2024-cü il tarixlərində Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə "Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda keçirilmiş elmi-praktiki konfrans "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində növbəti mühüm addım olmuşdur. Bu konfransın respublikada "yaşıl dünya"nın inkişafına və "yaşıl artım"ın təmin edilməsinə töhfə verəcəyinə şübhə yoxdur.

İnanıram ki, Azərbaycan tarixinin yeni mərhələsində cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən "yaşıl" siyasət, ardıcıl tədbirlər, görülən irimiqyaslı işlər sayəsində bütün digər sahələrdə olduğu kimi, ölkəmizdə təmiz ətraf mühit və "yaşıl artım"ın da tam təmin edilməsi istiqamətində böyük uğurlar qazanılacaqdır.

# AKADEMİK ARİF HƏŞİMOV: "COP29 HƏM GƏLƏCƏYƏ ÜNVANLANMIŞ, HƏM DƏ HESABAT XARAKTERİ DAŞIYAN MÜHÜM BİR HƏMRƏYLİK TƏDBİRİ OLACAQ"

**Müsahibəni apardı:**
**Nərgiz QƏHRƏMANOVA,**
**AMEA Rəyasət Heyəti aparatının sektor müdiri**
"Xalq qəzeti", 07.11.2024

**Bacarıqlı elm təşkilatçısı, tanınmış ictimai xadim, AMEA-nın akademik-katibi, Elm və Təhsil Nazirliyi Fizika İnstitutunun baş direktoru, akademik Arif Həşimov ölkəmizdə keçiriləcək COP29 tədbiri ərəfəsində aktual mövzulara dair suallarımızı cavablandırıb. O, müasir dövrdə Azərbaycan elminin inkişafı istiqamətində görülən işlər, energetika sahəsində aparılan tədqiqatlar, eyni zamanda "Yaşıl dünya naminə həmrəylik ili" və COP29 çərçivəsində həyata keçirilən tədbirlərdən və perspektivlərdən danışıb.**

***– Hörmətli Arif müəllim, qarşıda AMEA-nın 80 illik yubileyi gəlir. Uzun illər bu elm ocağında rəhbər vəzifələrdə çalışmısınız, Azərbaycan elminin inkişafına mühüm töhfələr vermisiniz. Son illər AMEA-da aparılan islahatları, elmin tərəqqisi yönündə həyata keçirilən tədbirləri necə qiymətləndirirsiniz?***

Əvvəlcə onu qeyd edim ki, AMEA-da aparılan islahatlar təkcə bu qurumun deyil, bütövlükdə Azərbaycan elminin gələcək inkişafına yönəlmişdir. Təkcə bu gün əldə olunan nailiyyətlərlə kifayətlənmək yox, eyni zamanda həm keçmişə, həm də gələcəyə baxmaq, bütün dövrləri təhlil etmək lazımdır. Hər kəsə məlumdur ki, AMEA-nın 80 illik yubileyi yaxınlaşır. Tarixi nöqteyi-nəzərdən 80 rəqəmi o qədər də böyük deyil. Lakin mən hesab edirəm ki, bu illər ərzində Azərbaycan elmində ümumilikdə əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur. Həmin nailiyyətlərin qazanılmasında təkcə AMEA və onun elmi müəssisələrinin deyil, həm də respublikanın bütün elmi tədqiqat qurumları, ali təhsil ocaqları və əlbəttə ki, elmlə məşğul olan hər kəsin payı vardır.

Ölkəmizdə elm sahəsində aparılan islahatlara gəldikdə, təbii ki, indiki dövrdə bu istiqamətdə həyata keçirilən tədbirlər, əsasən XXI əsrin tələblərinə, qlobal çağırışlara cavab verməli və əvvəlki illərlə müqayisədə

fərqələnməlidir. Müasir dövrdə bütün cəmiyyət, bəşəriyyət elmdən daha çox nailiyyətlər, yeniliklər gözləyir. Aydın məsələdir ki, dünyada gedən rəqəmsallaşma prosesləri, IV Sənaye İnqilabı və süni intellektin gətirdiyi yeniliklər, eyni zamanda informasiya bolluğu elmin qarşısında yeni vəzifələr, prioritetlər qoyur. Bütün bunlar AMEA-da da dünya elminin tələblərinə cavab verən elmi tədqiqatların aparılmasını, gələcək inkişafa ünvanlanmış yeni islahatların həyata keçirilməsini tələb edir. Artıq Akademiyada AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin rəhbərliyi və birbaşa təşəbbüsü ilə Azərbaycan elminin inkişafı və beynəlxalq aləmə sürətli inteqrasiyası istiqamətində yenilikçi islahatlara təkan verilib. Bu islahatların əsas fərqi ondan ibarətdir ki, elmin, alim və ziyalıların qarşısına tamamilə yeni vəzifələr qoyulub. Təbii ki, həyata keçirilən bütün tədbirlər Sovet və keçid dövründə aparılan islahatlardan fərqlənir. Bu gün Azərbaycan müstəqil və öz torpaplarını işğaldan azad etmiş bir ölkə kimi bütün dünyada yüksək nüfuza, strateji mövqeyə malikdir.

Xüsusilə qeyd etməliyəm ki, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın son illərdə qazandığı nailiyyətlər ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş məqsədyönlü siyasətin məntiqi davamı və real nəticəsidir. Təbii ki, Azərbaycan alimlərinin də, AMEA üzvlərinin də ümdə vəzifələrindən biri və əsası bu strateji xətti davam etdirərək Azərbaycan elminin inkişafını sürətləndirmək, beynəlxalq aləmə inteqrasiyasını təmin etmək, alim və ziyalılarımızın əldə etdikləri mühüm elmi nailiyyətləri dünya ictimaiyyətində tanıtmaq, təbliğ etməkdir.

***– Müasir dövrdə ölkəmizdə energetika sahəsində aparılan tədqiqatlar və əldə olunan nəticələr sizi qane edirmi? Bu istiqamətdə hansı problemlərin araşdırılması zəruridir?***

Bu sual təkcə elm ictimaiyyətini deyil, həm də bütövlükdə respublikanı əhatə edir. Çünki, hər bir ölkənin inkişafı və gələcəyi onun energetika təhlükəsizliyi ilə birbaşa bağlıdır. Bu gün Azərbaycanda energetika sahəsində aparılan uğurlu dövlət siyasətinin nəticəsidir ki, ölkəmiz enerji təhlükəsizliyi baxımından özünü tam təmin edir. Əminliklə demək olar ki, Azərbaycanda elektroenergetika sahəsi artıq dünyanın bu yöndə ən qabaqcıl sistemlərindən birinə çevrilmişdir. Son illər ölkəmizdə tikilən ən müasir tipli elektrik stansiyaları, elektrik veriliş xəttləri və həyata keçirilən digər məqsədyönlü tədbirlərin hesabına Azərbaycanda elektrik enerjisinin təminatı nəinki yaxşılaşmış, həm də onun keyfiyyəti artmış, eyni zamanda bir kilovat/saat elektrik enerjisinə düşən yanacağın sərfi də əhəmiyyətli dərəcədə azalmışdır. Nəticədə, böyük həcmdə yanacağa qənaət edilmişdir.

Məlumdur ki, Azərbaycanda ölkənin təbii potensialından istifadə etməklə alternativ enerji mənbələrinin inkişafı dövlət başçısı tərəfindən xüsusi diqqət yetirilən əsas məsələlərdən biridir. Bu istiqamətdə kifayət qədər işlər görülüb və hazırda da davam etdirilməkdədir.

Azərbaycanda dayanıqlı elektrik enerjisi təminatının, energetika sisteminin inkişafının əsasında böyük zəhmət və əmək dayanır. Çünki, istehsal etdilən enerji həm də satılmalıdır. Bu istiqamətdə də ölkəmizdə xeyli işlər yerinə yetirilib. Enerji sisteminin müasirləşdirilməsi, rəqəmsallaşdırılması, onun idarə olunması, eləcə də süni intellektdən istifadə əsasında aparılan tədqiqat işləri və onların praktikada tətbiqi bu sahənin dayanıqlığında ciddi uğurların əldə olunmasına gətirib çıxarmışdır. Eyni zamanda, müvafiq sahədə müasir tələblərə cavab verən yüksəkixtisaslı kadr potensialının formalaşdırılması sahəsində ciddi tədbirlər görülmüşdür.

Bundan əlavə, Azərbaycanın enerji təhlükəsizliyinin dayanıqlı, etibarlı inkişafının təmin edilməsi istiqamətində görülən işləri bir-biri ilə əlaqələndirmək lazımdır. Alternativ enerji mənbələrinin – su, günəş, külək və s. əsasında böyük stansiyaların tikilməsi, quraşdırılması və onların sistemə qoşulması prosesində müəyyən problemlər vardır. Onların həlli üçün böyük çevik yanaşmalar, manevretmə qabiliyyətinə malik sistemin qurulması tələb olunur. Əgər bu kimi problemlər öz həllini tapmazsa, həmin enerji mənbələrinin yaradılması, sistemə qoşulması üçün müəyyən maneələr yarana bilər. Ona görə də bu gün Azərbayan energetikləri, bu sahədə fəaliyyət göstərən alim və mütəxəssislərin qarşısında çox ciddi, taleyüklü vəzifələr dayanır. Bu istiqamətdə fəaliyyət uğurla davam etdirilsə də, qarşıda görüləcək işlər hələ çoxdur. Yəni, sistemdə çevik dəyişmələrə cavab verən infrastruktur yaradılmalıdır. Nəzərə çatdırım ki, elektrik enerjisinin istehsala ötürülməsi və istehlakı eyni vaxtda gedir. Yəni, elektrik enerjisinin saxlanması, qorunması və istifadə edilməsi üçün də yeni yanaşmalar formalaşmışdır. Azərbaycan energetikləri, elmi-tədqiqatla məşğul olan mütəxəssislər bu sahədə də geniş səpkili işlər yerinə yetirir.

Onu da qeyd edim ki, yeni yanacaq növlərinin, məsələn hidrogen energetikasının istifadə problemləri üzərində də artıq bir müddətdir ki, müzakirələr aparılır, əməli addımlar atılır. Həmçinin tullantı qazlarının tutulması, gələcəkdə onlardan istifadənin qarşısının alınması və müəyyən həddə saxlanılması istiqamətində müvafiq tədbirlər görülür, praktiki işlərin yerinə yetirilməsi üçün innovativ layihələrin həyata keçirilməsi planlaşdırılır.

***– Arif müəllim, bərpaolunan və alternativ enerji mənbələrindən istifadənin mövcud vəziyyəti və perspektivləri barədə də fikirlərinizi öyrənmək istərdik. Zəruri tədbirlər görülməzsə, cəmiyyəti hansı təhlükələr gözləyir?***

Sualın cavabına keçməzdən əvvəl qeyd edim ki, ölkəmizdə energetika sahəsində bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi Prezident İlham Əliyev tərəfindən prioritet vəzifə olaraq irəli sürülüb. Azərbaycan 2030-cu ilə qədər bərpaolunan enerjinin payını 30 faizə çatdırmağı hədəfləyir.

Əvvəlki illərdə aparılan tədqiqatlar nəticəsində, alternativ və bərpaolunan elektrik stansiyalarında elektrik enerjisi istehsalının həcmi ümumi istehsalda artmaqdadır. Hazırda respublikamızın digər regionlarında, o cümlədən Naxçıvanda yeni Günəş Elektrik Stansiyalarının tikintisi davam etdirilir. Stansiyadan alınan nəticələr göstərdi ki, elektrik stansiyasının tikilməsi üçün düzgün ərazinin seçilməsi əsas şərtlərdən biridir.

Bundan başqa, dövlət başçısının iştirakı ilə respublikanın müxtəlif bölgələrində bir sıra stansiyaların təməlqoyma mərasimləri keçirilib, həmçinin ölkəmizin enerji potensialını gücləndirəcək böyük stansiyalar istifadəyə verilmə ərəfəsindədir. Günəş, külək elektrik stansiyalarından sonra işğaldan azad edilmiş Qarabağ torpaqlarında çoxlu sayda kiçik su elektrik stansiyaları tikilib. Bu ərazilərdə indiyədək 270 meqavat gücündə 32 su elektrik stansiyası istismara verilib.

Ölkəmizdə su potensialından tam səmərəli istifadə etmək üçün "Azər-Enerji" ASC tərəfindən bir sıra stansiyaların tikintisi davam etdirilməkdədir. Yaxın gələcəkdə işğaldan azad olunmuş ərazilərin, ətraf rayonların elektrik enerjisi təchizatını alternativ enerji mənbələrinin, əsas da su elektrik stansiyalarının hesabına təmin etmək mümkün olacaq. Bu stansiyaların hər biri həm də ölkənin ümumi enerji sisteminə inteqrasiya olunub.

Bayaq qeyd etdiyim kimi, elektrik enerjisinin istehsalından başqa, onun ötürülməsi də böyük problemlərdən biridir. Bu səbəbdən hazırda elektrik veriliş xəttlərinin çəkilməsi, onların çəkilməsində ekoloji problemlərin həlli və digər məsələlər kompleks şəkildə araşdırılır.

Bundan başqa, Azərbaycan və İran arasındakı dövlət sərhədində yerləşən, Araz çayı üzərində tikilmiş "Xudafərin" və "Qız qalası" su elektrik stansiyalarının tikintisi başa çatdıqdan sonra ucuz elektrik enerjisi istehsalı respublikamızın enerji sisteminə tam şəkildə qoşulmaqla enerji təhlükəsizliyinin, enerji təminatının keyfiyyətini daha da artıracaq.

Eyni zamanda, bu stansiyaların tikilməsi su problemlərinin həllində, yəni su anbarları kimi istifadə olunmasında da böyük əhəmiyyət kəsb edir.

Xatırladım ki, Azərbaycan dünyada su ehtiyatları az olan ölkələrdən biridir. Bu səbəbdən xeyli sayda su anbarları tikilmişdir. Məlumdur ki, ölkənin ən böyük çayları olan Kür və Araz öz mənbələrini başqa ölkələrdən götürürlər. Yəni, bizim su ehtiyatlarımız adətən qonşu dövlətlərdə formalaşır. Bu səbəbdən həmin çaylardan səmərəli istifadə etmək üçün süni göllərin yaradılmasına da ehtiyac vardır. Bu süni göllər elektrik enerjisinin alınmasında çox əhəmiyyətlidir.

Respublika ərazisində ən böyük su anbarı Mingəçevir su anbarıdır ki, Yuxarı Qarabağ, Aşağı Qarabağ kanalları bu su-elektrik stansiyasının (SES) hesabına tikilmişdir. Mingəçevir SES-in istehsal etdiyi elektrik enerjisi su ilə yanaşı, ölkəmizin enerji təchizatında da xüsusi önəm daşıyır.

***– Bildiyimiz kimi, bu il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub. Həmçinin ölkəmiz COP29 kimi mötəbər bir tədbirə ev sahibliyi etməyə hazırlaşır. Sizcə bu tədbir Azərbaycanda "yaşıl təfəkkür"ün formalaşması, ekoloji problemlərin həlli istiqamətində hansı töhfələri verəcək?***

Prezident İlham Əliyevin ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Sərəncamında Azərbaycanın beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verdiyi qeyd olunub. Sənəddə, eyni zamanda, respublikamızın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair 5 milli prioritetindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyənləşdirildiyi bildirilib.

Həmin prioritetə uyğun olaraq ölkəmizdə artıq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından, həmçinin dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin gerçəkləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsinə başlanılıb.

Qürur hissi ilə qeyd etməliyəm ki, ötən əsrdə iqtisadi fəaliyyətin ekosistemin ekoloji tutumundan kənara çıxmasının gözlənilən fəsadlarına dair ilk çağırışları edən Ümummilli Lider Heydər Əliyevin qardaşı, görkəmli alim, akademik Həsən Əliyev olmuşdur. Bu, həm də onun sübutudur ki, Azərbaycanda "yaşıl təfəkkür"ün, ekoloji düşüncənin tarixi heç də son onilliklərdəki dünyanın yeni çağırışları ilə bağlı deyildir. Bizim elmi fikir tariximizdə belə mütərəqqi yanaşmaların tarixi xeyli əvvəlki dövrlərə təsadüf edir. Belə ki, SSRİ EA və müttəfiq respublikaların Elmlər akademiyaları arasında ilk dəfə olaraq 1955-ci ildə Azərbaycan EA Rəyasət Heyəti nəzdin-

də Təbiəti Mühafizə Komissiyası təşkil edilmişdir və bu komissiyaya akademik Həsən Əliyev başçılıq etmişdir. Görkəmli akademik bu məsələlərə xüsusi diqqət göstərmiş və beləliklə, bu istiqamətdə işlər daha sistemli şəkildə davam etdirilməyə başlamışdır.

Azərbaycan COP29-la əlaqədar tədbirlərə ciddi şəkildə hazırlaşır. Şübhəsiz ki, COP29 bir növ həm gələcəyə ünvanlanmış, həm də hesabat xarakteri daşıyan mühüm bir həmrəylik tədbiri olacaq. İştirakçı ölkələr planetimizin qorunması ilə bağlı görülən işlər, mövcud problemlər və onların həlli yollarına dair hesabatlarını təqdim edəcəklər. Bundan başqa, COP29 çərçivəsində qlobal təhlükəsizliyi təmin edən enerji mənbələrindən istifadənin vacibliyi diqqətə çatdırılacaq və müvafiq qərarlar qəbul olunacaq.

Prezident İlham Əliyev COP öncəsi tədbirinin iştirakçılarına müraciətində demişdir: "Mən COP29-da tarixi razılaşmanın – "Bakı Sazişi"nin əldə olunmasını gözləyirəm". Düşünürəm ki, bu, olduqca böyük əhəmiyyətə malik çıxışdır. Əgər həmin sazişin imzalanması gerçəkləşsə, Azərbaycanın adı tarixə qızıl hərflərdə yazılacaq. Bu razılaşmanın əhəmiyyətini indi tam dərk edə bilməsək də, bir neçə ildən sonra daha dolğun şəkildə ifadə etmək mümkün olacaq. Hər bir alim öz çıxışında və hazırladığı statistik məlumatlarda tullantıların həcmi, görülən işlər və gözləntilər haqqında məlumat verir. Lakin gələcəkdə bu işləri daha da təkmilləşdirmək və problemləri aktuallaşdırmaq üçün "Bakı Sazişi"ndən böyük gözləntilər var.

COP29-un əsas vəzifələrindən biri, bütün tərəflərin ehtiyaclarını nəzərə alan iqlim maliyyəsi üçün aydın və iddialı yeni kollektiv kəmiyyət hədəfi müəyyən etməkdir. Yəni, bütün dünya bu sahədə görülən işlərin maliyyələşmə mexanizmini ortaya qoymalıdır. Bundan sonrakı işlər "Bakı Sazişi"ndən asılı olacaq və bu məsələ həllini tapsa, ölkə Prezidentinin dediyi kimi, böyük tarixi bir məsələnin həlli təmin olunacaq.

Mən ölkəmizin daha da yaxından tanıdılması baxımından COP29-un əhəmiyyətini xüsusi qeyd etməliyəm. Prezident İlham Əliyev tərəfindən 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi müasir dünyanın çağırışlarını bütün istiqamətlərdə tam şəkildə əhatə edir. Düşünürəm ki, COP29-da bu sənəddə əks olunan məsələlər bir daha nümayiş etdiriləcək.

# AZƏRBAYCAN TARİXİNİN ƏN MÖHTƏŞƏM DÖVRLƏRİNDƏN BİRİNİ YAŞAMAQDADIR

**İradə Hüseynova,**
**AMEA-nın vitse-prezidenti, akademik**
"Azərbaycan" qəzeti, 13.11.2024

Ərazisi və əhali sayı ilə çox da fərqlənməyən Azərbaycan Respublikası Ulu Öndər Heydər Əliyevin dövlət və cəmiyyət həyatının bütün sahələrində əsasını qoyduğu analoqsuz siyasi kursun Prezident İlham Əliyev tərəfindən ardıcıl həyata keçirilməsi və inkişaf etdirilməsi sayəsində milli, regional və hətta qlobal problemlərin həllində öz sözü və imzası olan nüfuzlu və qüdrətli bir dövlətə çevrilmişdir.

Azərbaycan beynəlxalq təşkilatların 30 il ərzində edə bilmədiyini - Qarabağla bağlı BMT-nin qətnamələrinin həyata keçirilməsini öz gücü ilə həll etməyi bacarmış, tarixi İpək yolunun bərpası, Avropanın enerji təhlükəsizliyi kimi layihələrdə önəmli rol oynamış, Qoşulmama Hərəkatının lideri kimi bu hərəkata ikinci nəfəs gətirə bilmiş, regional sülh və əməkdaşlığın təmin olunmasına real töhfələr vermişdir.

Bu baxımdan BMT-nin Baş Assambleyasından sonra ikinci böyük tədbiri olan İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-un dünya birliyinin yekdil qərarı ilə ölkəmizdə keçirilməsi Azərbaycan Respublikasının qlobal problemlərin həllinə verdiyi töhfələrin, əldə etdiyi davamlı mövqeyin, oynadığı mühüm rolun növbəti göstəricisidir.

Belə bir nüfuzlu tədbirə evsahibliyi etməyimiz, eləcə də 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması kimi ölkədə "yaşıl iqtisadiyya"tın, "yaşıl enerji"nin, "yaşıl texnologiya"ların tətbiqinə, geniş mənada "yaşıl artım"a hesablanmış strateji qərar Azərbaycan Respublikasına beynəlxalq səviyyədə əhəmiyyətli siyasi dividendlər qazandırmaqla yanaşı, ekologiya, iqlim dəyişiklikləri, biomüxtəliflik, bio- və ərzaq təhlükəsizliyi, bərpaolunan, emissiyasız enerji və sairə kimi sahələrdə milli elmimizin və təhsilin inkişafına, yüksək texnologiyalar üzrə əməkdaşlıq və bilik mübadiləsinə əhəmiyyətli təkan verəcəkdir.

COP29-un Bakıda keçirilməsi ilə bağlı bir ilə yaxın davam edən hazırlıq işləri, həyata keçirilən yerli, regional və beynəlxalq tədbirlər, həmçinin cəmiyyətin diqqətinin əlaqədar sahələrə yönəldilməsi, sağlam ətraf mühi-

tin, təbiətin və onun yaşıl örtüyünün qorunması və artırılmasının, ümumən bioloji müxtəlifliyin əsl dəyərinin dərk edilməsi, deməli, ictimai şüurun yeni, "yaşıl dəyərlər" əsasında formalaşdırılması baxımından da mühüm irəliləyişlərə nail olunmasına imkan verəcəkdir.

Bu gün Azərbaycan müasir texnoloji inkişafa açıq olan, növbəti sənaye inqilablarında seyrçi deyil, iştirakçı olmağı hədəfləyən modern ölkədir. Azərbaycan Prezidentinin müasir dövrün, 4-cü sənaye inqilabının çağırışlarına, ərzaq və bioloji təhlükəsizliyin təmin olunmasına, süni intellektə əsaslanan texnoloji – "yaşıl iqtisadiyyat"ın ölkənin uzunmüddətli ehtiyaclarına istiqamətlənməsinə dair müvafiq elmlərin inkişaf perspektivləri ilə bağlı verdiyi sərəncam və fərmanları, dəyərli tövsiyə və tapşırıqları elm sahəsində yaxın perspektiv üçün çağırışların strateji istiqamətlərini müəyyən etmişdir.

Elmin inkişafı üçün ən vacib məsələlərdən biri Prezident İlham Əliyevin qeyd etdiyi kimi, prioritetlərin düzgün seçilməsidir. Ətraf mühitin sağlamlaşdırılması, iqlim dəyişikliyinə və onun fəsadlarına qarşı mübarizə kimi COP məqsədləri üzrə strateji istiqamətlərin və prioritetlərin dövrün tələblərinə uyğun şəkildə müəyyənləşdirilməsi, ekosistem və molekulyar səviyyələrdə müasir yanaşmalarla kompleks tədqiqatların aparılması zəruri olan bir çox problemlərin ön plana çıxarılmasını vacib edir:

– İqlim ssenariləri və onlarla bağlı proqnozların işlənib hazırlanması;

– ölkənin təbii landşaftlarının, torpaq, su və yaşıl örtük resurslarının, atmosferin vəziyyətinin, onun element tərkibində baş verən dəyişikliklərin, çirklənmə dərəcəsinin, radiasiya fonunun daimi monitorinqi;

– səhralaşmanın, torpaqların deqradasiyaya uğramasının qarşısının alınması, bərpası, ekoloji təmiz şəkildə yaxşılaşdırılması;

– ölkənin yerüstü və yeraltı su ehtiyatlarının müasir vəziyyətinin ekosistem yanaşmalarla kompleks şəkildə (geoloji, geocoğrafi, mikrobioloji, hidrobioloji, sanitar-epidemioloji, fiziki-kimyəvi) qiymətləndirilməsi, onlardan davamlı inkişaf prinsiplərinə müvafiq istifadə imkanlarının müəyyənləşdirilməsi;

– eko- və biotəhlükəsizlik standartlarının dəqiqləşdirilməsi, identikləşdirilməsi, uyğunluq monitorinqləri, bioloji təhlükəsizlik prinsiplərinin hazırlanması;

– bərpaolunan, ekoloji təmiz - "yaşıl" enerji, o cümlədən bioenerji məsələlərinin tədqiqi, "yaşıl enerji" zonaları və dəhlizlərinin yaradılması;

– iqlim dəyişikliyindən doğan fəsadların ətraf mühitə, bitki, heyvan və xüsusən insan sağlamlığına təsirinin qiymətləndirilməsi və s.

Eyni zamanda su hövzələrinin, tranzit çayların çirklənmə vəziyyəti və çirkli sulardan təkrar istifadə üçün onların təmizləməsində yeni fiziki-kimyəvi və bioloji metod və yanaşmaların hazırlanaraq tətbiq edilməsi, kənd təsərrüfatı və meşə bitkilərinin xəstəlik və zərərvericilərinə qarşı ətraf mühitə ziyan vurmayan inteqrir mübarizə üsullarının yaradılması və tətbiqi, nadir və itmək təhlükəsində olan bitki və heyvan növlərinin vəziyyətinin, areallarının dəyişmə dinamikasının daimi izlənməsi, onların bərpası, artırılması və reintroduksiyası üzrə tədbirlərin görülməsi vacibdir. Qorunmasına ehtiyac duyulan biomüxtəliflik elementlərinin, rüşeym plazmasının xüsusi şəraitlərdə, o cümlədən genbanklarda mühafizəsinin təşkili, müxtəlif heyvan, o cümlədən köçəri quş növlərinin populyasiyalarında dəyişikliklərin, miqrasiya məsələlərinin tədqiqi, nadir təbiət abidələrinə, əsrlərlə yaşı olan ağaclara xüsusi qoruma rejiminin tətbiqi, fitosintez prosesinin (idarəolunması, süni fotosintez və s.) yeni metodlarla öyrənilməsi də xüsusi əhəmiyyət kəsb edir.

Aparılan tədqiqatlarda yeni nəsil, o cümlədən rəqəmsal texnologiyaların və süni intellektin tətbiqinin uğurlu nəticələrin alınmasında mühüm vasitə ola biləcəyi nəzərə alınmalıdır, müvafiq kadr hazırlığına, mövcud kadr potensialının bilik və bacarıqlarının artırılmasının vacibliyinə diqqət artırılmalıdır. Təsadüfi deyildir ki, COP29 sədrliyinin təşəbbüsləri sırasında "Yaşıl rəqəmsal fəaliyyət" də yer almışdır. Bu təşəbbüs üzrə bəyannamə İKT sektorunda iqlimə müsbət təsir göstərən rəqəmsallaşma və emissiyaların azaldılmasını sürətləndirmək və "yaşıl rəqəmsal texnologiya"ların əlçatanlığını artırmaq məqsədi daşıyır.

Azərbaycanda dövrün tələblərindən biri, yuxarıda qeyd edilmiş bütün istiqamətlərdə "yaşıl təhsil" sisteminin qurulması və inkişafından ibarətdir. Bu sahədə ilk addımlardan biri kimi, məsələlərə yeni, daha modern dünyagörüşü ilə yanaşılması, ali və orta ixtisas məktəblərində ümumən "ekologiya" ixtisası ilə yanaşı, "mühəndislik ekologiyası", "iqlim-menecment", "landşaft ekologiyası", "ekoloji hüquqşünaslıq", "ekoloji jurnalistika", "ekoloji urbanist" və s. kimi dar ixtisas sahələrində müxtəlif profilli iqlim mütəxəssislərinin hazırlanması vacibdir. Bu ideya təhsil, bacarıqlar, sağlamlıq və rifah halına, təhsil standartları vasitəsilə ekoloji savadlılığın artırılmasının təmin edilməsinə istiqamətlənmiş "İqlim davamlılığı üçün insan inkişafı üzrə Bakı Təşəbbüsü"ndə də özünə yer almışdır.

COP29-un müvafiq elm və təhsil sahələrinin inkişafına, cəmiyyətdə "yaşıl düşüncə" tərzinin təsbit olunmasına verəcəyi real təkanları qeyd etməklə yanaşı, digər məsələlərə də diqqət çəkilməlidir. COP29-la bağlı Azər-

baycana gəlmiş on minlərlə xarici ölkə nümayəndəsi, KİV və vətəndaş cəmiyyəti, beynəlxalq təşkilat təmsilçiləri Vətənimizin təbii və antropogen landşaftlarının özəlliklərini, ölkənin siyasi sistemində və sosial-iqtisadi inkişafında qazanılmış nailiyyətləri, əhalinin sabitlik, əmin-amanlıq və rifah halında yaşayışını, dövlətin dini və etnik tolerantlığa əsaslanan dünyəvi quruluşunu, insanlarımızın xeyirxahlığı və qonaqpərvərliyini, yüksək mədəniyyətini öz gözləri ilə seyr etmək imkanı əldə edirlər. Bu isə Azərbaycan dövlətinin və xalqının beynəlxalq imicinin daha da yaxşılaşmasına, turizm sektorunun intibahına, ölkə iqtisadiyyatına xarici investisiya qoyuluşunun artmasına real töhfələr verəcəkdir.

Əminliklə demək olar ki, Azərbaycan Respublikası bütün digər sahələrdə olduğu kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə özünün daim yüksələn insan kapitalı, iqtisadi gücü, elmi və texnoloji potensialı ilə qarşıya qoyulmuş bütün "yaşıl" prioritetlərə, ətraf mühit və biomüxtəlifliklə bağlı Davamlı İnkişaf Məqsədlərinə, COP29-un öhdəliklərinin, şüar və qərarlarının milli səviyyədə səmərəli icrasına ən qısa zamanda optimal şəkildə nail olacaq, "təmiz ətraf mühit və yaşıl artım ölkəsi"nə çevriləcəkdir.

# BİTKİ GENETİK MÜXTƏLİFLİYİ QLOBAL İQLİM DƏYİŞİKLİYİNƏ UYĞUNLAŞMALIDIR

**Zeynal Əkpərov,**
**AR ETN Genetik Ehtiyatlar İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü,**
"Azərbaycan" qəzeti, 14.11.2024

COP29-un Azərbaycanda keçirilməsi ölkənin davamlı inkişafa və beynəlxalq əməkdaşlığa sadiqliyini vurğulamaqla bərabər, həmçinin dövlətimizin nüfuzunun daha da güclənməsinin göstəricisidir. COP29 istixana qazı emissiyalarını azaltmaq öhdəliklərinin yerinə yetirilməsinə kömək edəcək, bu isə atmosferin ekoloji vəziyyətini, havanın keyfiyyətini yaxşılaşdıracaq və nəticədə iqlim dəyişikliyini və onun təsirlərini azaltmağa kömək edəcəkdir.

Azərbaycan istixana qazı emissiyalarını 2050-ci ilə qədər 40 faiz azaltmaqla Paris Sazişinə uyğun olaraq, qlobal iqlim məqsədlərinə töhfə verəcəkdir.

COP29 biomüxtəlifliyin itirilməsi kimi problemləri də ön plana çıxarır və onların həlli üçün əlavə resursların ayrılmasına imkan yaradacaqdır.

İqlim dəyişmələri qlobal bir proses olub, onun nəticələrini adi insanlar Azərbaycanda da hiss edirlər. Bəzən fəsillərin, ayların yerinin dəyişdiyini iddia edirik. Bütün bunlar qlobal səviyyədə atmosferin sərhədinin olmadığından iqlim dəyişmələrinin lokal təsirlərinin nəticəsidir. Məhz buna görə də iqlim dəyişmələrinin təsirlərinin yumşaldılması üçün tədbirlər həyata keçirilməli və ona uyğunlaşmaq məqsədilə zəruri addımlar atılmalıdır.

Qlobal iqlim dəyişikliklərinin intensiv xarakter aldığı müasir dövrdə aqrobiomüxtəliflik canlı həyatın mühafizəsində, insanların ərzaq və digər ehtiyaclarının ödənməsində və davamlı inkişafa nail olunmasında xüsusilə mühüm əhəmiyyətə malikdir.

Azərbaycan bir çox bitki növlərinin ilkin əmələgəlmə və mədəniləşdirmə mərkəzlərindəndir. Müsbət əlamətlərin, davamlılıq genlərinin daşıyıcısı kimi böyük əhəmiyyətə malik yabanı əcdad növlər və xalq seleksiyası

nümunələrinin qiymətli müxtəlifliyi məlum səbəblərdən azalmış, bəzi növ və sortlar isə itmiş və ya itmək təhlükəsindədir.

Hazırda, yabanılarda və qədim xalq seleksiyası sortlarında mövcud olan qiymətli genlərin ənənəvi və biotexnoloji metodlarla köçürülməsi dəyişən mühitə uyğunlaşmağa kömək edən və yeni formaların yaradılmasında yeganə ehtiyat mənbəyidir. Onların təhlili, itmə təhlükəsinin vaxtında aşkara çıxarılması və toplama prioritetlərinin təmin olunması olduqca vacibdir. Ərzaq və kənd təsərrüfatı bitkilərinin biotik və abiotik stres amillərinə davamlılığının artırılması strategiyalarının əsasında da genetik müxtəlifliyin qorunub saxlanması və artırılması durur. Bu məqsədlə Milli Genbankda, genefond bağlarında, əsasən, yerli genetik müxtəlifliyin qiymətli nümunələri toplanaraq bərpa və mühafizə edilir.

Mühafizə strategiyalarının düzgün və elmi əsaslı tətbiqi mühüm əhəmiyyət daşısa da, başlıca məqsəd genefondun səmərəli istifadəsinə nail olmaqdan ibarətdir. Deməli, toplanmış genetik materialın qiymətli donorları seçilməli və seleksiya proqramlarına cəlb edilməli, ətraf mühitin dəyişikliklərinə daha adaptiv xüsusiyyətlərə malik sortların yaradılması ön plana çıxmalıdır. Bu mühüm vəzifələr nəzəri və praktiki tədqiqatlar, seleksiya və biotexnologiya proqramları və s. vasitəsilə həyata keçirilməlidir.

Qlobal iqlim dəyişmələri şəraitində yeni sortların yaradılmasına həm də ekosistem yanaşma olmalıdır. Bu sahədə uzun müddət ərzində toplanmış çoxillik təcrübi materiallar ətraf mühitin dəyişməsi baxımından ciddi təhlil edilməli və bunun əsasında aqroekoloji proqnozlaşdırma modelləri hazırlanmalıdır. Bu zaman iqlim dəyişikliklərinin bitkilərin becərmə şəraitinə təsiri də nəzərə alınmalıdır. İrəli sürülmüş və əsaslandırılmış proqnozlar əsasında bitkilərin müvafiq əlamətlərə malik yeni sortlarının yaradılması və istifadəsinə başlanılmalıdır. Bütün bunlar seleksiya proqramlarında bitki genetik ehtiyatlarından (BGE) istifadənin keyfiyyətcə daha yüksək səviyyəyə qaldırılmasını tələb edir.

Bu baxımdan BGE-nin etibarlı mühafizəsi və səmərəli istifadə olunması informasiya sistemlərindən asılıdır. Məlumat bazaları pasport, botaniki və ekoloji verilənlərlə yanaşı, səciyyələndirmə və qiymətləndirmə məlumatlarını da əhatə etməlidir. Bu, seleksiyaçıların bitki ehtiyatlarına müraciət və seçmə imkanlarının artırılmasına xidmət göstərməsi baxımından çox vacibdir.

İqlim dəyişilmələri reallıqdır və hətta bütün mənfi antropogen təsirləri gecikmədən dayandırmaqla belə, onu saxlamaq mümkün deyildir. Ona görə də biz mümkün dəyişilmələrin nəticələrinin yumşaldılmasına və onlara uyğunlaşmağa istiqamətlənmiş səylərimizi genişləndirməliyik.

Bu gün iqlim dəyişiklikləri tarixdə misli görünməmiş sürətlə baş verir. Ümumiyyətlə, bu dəyişikliklər nə qədər sürətlə gedirsə, insanlara və ekosistemlərə təsiri bir o qədər güclü olur. Nəticələrin yumşaldılması üzrə tədbirlərə əlavə olaraq, iqlim dəyişilməsinə qarşı təcili uyğunlaşma planlarının hazırlanması və reallaşdırılması vacibdir. Hesab edirəm ki, COP29 bu sahədə də tədqiqatlara təkan verəcəkdir.

## QLOBAL İSTİLƏŞMƏ, COP29 VƏ AZƏRBAYCAN

**Elşad Qurbanov,**
**Bakı Dövlət Universitetinin Botanika və bitki fiziologiyası kafedrasının müdiri,**
**AMEA -nın müxbir üzvü**
"Azərbaycan" qəzeti, 15.11.2024

XXI əsrin əsas çağırışlarından biri ekoloji tarazlığın təmin edilməsidir. Buraya təbii resursların intensiv istismarının, neft-qaz və kömür hasilatının məhdudlaşdırılması, bərpaolunan enerji növlərinə, "yaşıl və mavi iqtisadiyyat"a üstünlük verilməsi, su ehtiyatlarının səmərəli istifadəsi, karbon qazının həcminin azaldılması, təkrar emal və digər məsələlər daxildir.

Bitkilər planetdəki bütün canlıların həyatının əsasını təşkil edir, üzvi aləm və canlı həyat onlarla başlamışdır. Bitkilər aləmi müşahidə etdiyimiz Yerin görünüşünü yaradan unikal fotosintez prosesi sayəsində günəş işığından birbaşa istifadə etmək qabiliyyətinə malikdir. Yer kürəsini oksigenlə təmin edən və bununla da təkamülün hərəkətverici qüvvəsi rolunu icra edən məhz bitkilərdir. Onlar üzvi maddələrin zəngin ehtiyatı və çox qiymətli sərvətdir. Hər bir regionun bitki örtüyü ərazinin mühit amillərinin fasiləsiz kompleks təsiri nəticəsində daim dəyişikliyə məruz qalır. Bu dəyişikliklər ərazinin fiziki-coğrafi şəraitindən, qlobal istiləşmədən, atmosferin ekoloji balansının pozulmasından asılı olaraq baş verir.

Qlobal istiləşmənin birbaşa floraya, dolayısı ilə insanların sağlamlığına və bütövlükdə canlı ekosistemə təsiri bəşəriyyətin daim diqqət mərkəzindədir.

Texnologiya inkişaf etdikcə qlobal iqlim dəyişikliyi dünya floristlərini və ekoloqları narahat edən əsas problemlərdən biridir. Anomal iqlim dəyişikliyi nəticəsində yaranan təbii fəlakətlərin miqyası ildən-ilə artmaqda davam edir. Qlobal istiləşmənin təsirindən bölgələrdə uzunmüddətli quraqlıq və səhralaşma baş verir, bitki aləmi tamamilə yox olur, ya da azalır, Yer kürəsində ekoloji tarazlıq və enerji balansı pozulur.

Alimlərin fikrincə, kontinental buzlaqların tam əriməsi və suyun istidən genişlənməsi nəticəsində okeanların səviyyəsi indikinə nisbətən 70-80 santimetr artacaq, hazırda milyonlarla insanın məskunlaşdığı sahilyanı yaşayış məntəqələri su altında qalacaq ki, bu da siklonların və antisiklonların illik hərəkət trayektoriyalarının dəyişəcəyinə və iqlim dəyişikliyinin

intensivləşəcəyinə, beləliklə, bir çox bitki növünün nəslinin kəsilməsinə səbəb olacaqdır.

Yer kürəsini fəlakətli iqlim dəyişikliyindən xilas etməkdə bitkilərin potensial rolu bəşəriyyətə məlumdur. Lakin son zamanlar dünya ekoloqları, floristləri tərəfindən aparılmış bəzi tədqiqat işləri nəticəsində məlum olmuşdur ki, Yer kürəsinin bitki örtüyü insan fəaliyyəti nəticəsində atmosferə buraxılan karbon qazını əvvəllər düşünüldüyündən daha çox udmaq iqtidarındadır. Tədqiqatçılar müəyyən ediblər ki, XXI əsrin sonunda bitkilər tərəfindən karbon qazının udulması artacaq. İndi karbon dioksidin yarpaqda nə qədər səmərəli hərəkət edə biləcəyini, bitkilərin temperatur dəyişikliklərinə necə uyğunlaşdığını və qida maddələrinin necə paylandığını müəyyən etmək mümkündür.

Uzun illər insanların fəaliyyəti ətraf mühitə geri dönüşü olmayan zərbələr vurmuşdur. Bir neçə il əvvəl bəşəriyyət "bizdən sonra nə olur-olsun" prinsipi ilə yaşayırdı. Xoşbəxtlikdən bu tendensiya dəyişmişdir. Belə ki, ekosistemin sərvətlərinin istismarı təbii sistemlərin bərpasına zərər verməyəcək səviyyədə məhdudlaşdırılır. "Yaşıl iqtisadiyyat"ın inkişafı bunun birbaşa sübutudur. "Yaşıl iqtisadiyyat" insanların təbii ehtiyatlara məsuliyyətli münasibətini nəzərdə tutan iqtisadi inkişaf modelidir. O, rifahın artırılması ilə təbii ehtiyatların qorunması arasında ağlabatan kompromis tapmağa yönəlmişdir.

İnkişaf etmiş ölkələr inkişaf etməkdə olanlara iqlim dəyişikliyinin təsirini azaltmaq və uyğunlaşmaqda kömək etmək üçün maliyyə yardımı toplayırlar. Beləliklə, dünya florasına iqlim dəyişikliyinin təsirini azaltmaq üçün tədbirlər sayəsində bitki növlərini xilas etməyin mümkün olduğunu hər bir insan düşünür.

Sürətli qlobal istiləşməni dayandırmaq, ekstremal hava şəraitini ram etmək, buzlaqların əriməsinin sürətini azaltmaq və biosferi xilas etmək naminə atmosferdən artıq karbonu çıxarmaq üçün zəkalı insanlar çıxış yolu tapmalıdır. Bitki örtüyü canlı ekosistemin tərkib hissəsi kimi daim dəyişikliyə məruz qaldığından insanlar bitkiləri tanımalı, mütəxəssislər yaşadıqları ərazilərin florasının qorunması və bərpası tədbirlərini işləyib hazırlamalıdırlar.

2024-cü il qalıq yanacaq istehsalçısı və ixracatçısı hesab olunan Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etməyi ilə əlamətdardır. Azərbaycan Respublikasının rəhbərliyi iqlim dəyişikliyi ilə bağlı ciddi tədbirlər görmək strategiyasını nümayiş etdirməyi qarşısına

məqsəd qoymuşdur. COP29 ekoloji problemlərin müzakirəsi və həlli üçün birlikdə mühüm addımların atılacağı qlobal forumdur. Bakı iki həftə ərzində dünyanın diqqət mərkəzində olacaq. COP29-un Azərbaycanda keçirilməsi ilk növbədə ölkəmizin iqlim məsələsində üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsinin etirafıdır.

Bundan əlavə, COP29-un Azərbaycanda reallaşdırılması BMT səviyyəsində ölkədə siyasi və iqtisadi sabitliyin tanınmasından xəbər verir. Bu qərar həm də Azərbaycanın "yaşıl enerji" siyasətinə qlobal dəstəyi ifadə edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Neft-qaz ölkəsi olan Azərbaycan "yaşıl enerji" növlərinin yaradılmasını və dünya bazarlarına nəqlini hazırda enerji siyasətinin yeni prioritet istiqaməti kimi müəyyənləşdirmişdir. Bərpaolunan və "yaşıl enerji" əsasında istehsal edilən elektrikin ixracı ölkənin enerji strategiyasında yeni eranın başlanmasına səbəb olub. COP29-un Azərbaycanda keçirilməsi ekoloji, iqtisadi, innovasiya və texnologiya sahəsində nailiyyətlər əldə etməsi üçün geniş imkanlar yaradacaq.

Bu mühüm beynəlxalq tədbirin Azərbaycana verə biləcəyi siyasi və iqtisadi üstünlüklər ölkənin regional və beynəlxalq arenada mövqeyini möhkəmləndirmək baxımından əhəmiyyətlidir. COP29 çərçivəsində Azərbaycan qlobal iqlim dəyişikliyi ilə mübarizədə fəal iştirak edərək, müasir dünyanın qarşılaşdığı əhəmiyyətli problemlərə diqqət çəkmək imkanı qazanır.

COP29-un keçirilməsi siyasi müstəvidə Azərbaycanın beynəlxalq aləmdəki müsbət imicini artırır. Bu proses respublikanın ekoloji siyasətinin, enerji effektivliyinin və sərvətlərin səmərəli idarə olunmasının geniş müzakirəsinə şərait yaradır.

COP29 "yaşıl texnologiyalar"ın transferinə, innovativ layihələrin həyata keçirilməsinə və xarici investorların maraq dairəsinin genişlənməsinə xidmət edir. Nəticədə Azərbaycanın qlobal iqlim siyasətindəki rolu onun iqtisadiyyatını və beynəlxalq əlaqələrini daha da gücləndirir.

# COP29-UN AZƏRBAYCANDA KEÇİRİLMƏSİ ÖLKƏMİZƏ GÖSTƏRİLƏN ÇOX BÖYÜK ETİMADDIR

*Həyata keçirilən təşkilati tədbirlər sayəsində Bakı konfransı uğurla davam edir*

**Vaqif Novruzov,**
**Gəncə Dövlət Universitetinin kafedra müdiri, AMEA-nın müxbir üzvü**
"Azərbaycan" qəzeti, 15.11.2024

BMT-yə daxil olan ölkələrin 2000-ci ilin sentyabrında qəbul etdiyi "Minilliyin deklarasiyası"nın iqlimin dəyişilməsi, biomüxtəliflik, səhralaşma, meşə və su ehtiyatlarının qorunmasına dair bölmələrində XXI əsrdə baş verəcək qlobal ekoloji böhrana qarşı fəaliyyətlərin optimal strategiyası işlənib hazırlanmışdır.

Bəşəriyyət öz inkişafında elə bir mərhələyə çatmışdır ki, elmi-texniki tərəqqi təbiətə öz mənfi təsirini göstərmiş və təbii sərvətlərdən səmərəsiz istifadə dünya miqyasında əsaslı dəyişikliklər – torpaq, akvatoriyalar, hava, flora və fauna kimi həyat amillərinin çatışmazlığı təhlükəsini yaratmışdır.

Dünya təcrübəsi göstərir ki, təbiəti böhran vəziyyətindən çıxarmaq üçün yeganə həll cəmiyyətin mövcudluğunun əsasını təşkil edən bioloji müxtəlifliyin qorunmasıdır.

Bu problemin həlli insan sivilizasiyası, o cümlədən müstəqil Azərbaycan Respulikası üçün həyati əhəmiyyət kəsb edir. Çünki biomüxtəlifliyin bütövlüyü ekosistemlərin stabilliyini əks etdirir. Biomüxtəliflik azalırsa, təbii ekosistemlərin kütləvi məhv edilməsi prosesi sürətlənir.

Azərbaycan Respublikasını "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi"nə çevirmək istiqamətində intensiv fəaliyyətlər həyata keçirilir. Çirklənmiş ərazilərin bərpası, meşələrin, bitki və heyvanat aləminin qorunması, quru ərazilərdə torpaqların münbitləşdirilərək yaşıllaşdırılması, iqlim dəyişikliklərinin zərərli təsirlərinin azaldılması başlıca fəaliyyət proqramı kimi həmişə diqqət mərkəzindədir. İqlim dəyişiklikləri ilə əlaqədar qarşıya qoyulan problemin həlli isə yalnız dövlət və insanların birgə səyləri ilə mümkün ola bilər.

Azərbaycanın "Qırmızı kitabı"nın I nəşrində nadir, nəsli kəsilmək təhlükəsi altında olmaqla, qorunmasına ehtiyac yaranan 108 növ heyvan

və 140 növ bitki, II nəşrində 223 növ heyvan və 300 növ bitki əksini tapmışdısa, III nəşrə 460 növ bitki, 241 növ heyvan, 47 növ göbələk adı daxil edilmişdir.

İlk dəfə olaraq Kiçik Qafqazın şimal-şərq hissəsinin xüsusi mühafizə olunan ərazilərinin (Göygöl Milli Parkı, Eldar Şamlığı Dövlət Təbiət Qoruğu, Qarayazı Dövlət Təbiət Qoruğu, Korçay Dövlət Təbiət Qoruğu) flora biomüxtəlifliyinin 107 fəsilə, 465 cins və 1208 növ, qaya və töküntülərin 34 fəsilə, 106 cins, 187 növdən ibarət olması aşkar edilmişdir.

Çayların iqlim və relyefin qeyri-bərabər paylanmasındakı rolunu nəzərə alaraq, Kiçik Qafqazın şimal-şərq yamacı çay hövzələrinin (Kürəkçay, Şəmkirçay, Qoşqarçay, Zəyəmçay, Gəncəçay, Ağstafaçay) intrazonal bitkiliyi və yarğanların flora biomüxtəlifliyinin inventarlaşdırılması, nadir və məhvolma təhlükəsində qalan növlərin monitorinqi aparılmış, taksonomik strukturu dəqiqləşdirilmiş, bitkiliyin müasir təsnifatı verilərək, genofondun mühafizəsi üçün tədbirlər sistemi işlənib hazırlanmışdır.

COP29 ərəfəsində zəngin tarixi memarlıq və arxeoloji abidələri ilə zəngin olan Qazax rayonu ərazisində yerləşən Damcılı bulağı ilə məşhur olan "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunda və Gədəbəy rayonunun Şır-Şır şəlaləsində monitorinqlər aparılmışdır. Ekoloji tarazlığın qorunması və iqlimin tənzimlənməsində bitki örtüyünün rolu açıqlanmış və bu istiqamətdə təbliğat işlərinin aparılması məqsədəuyğun hesab edilmişdir. Məşhur Azərbaycan şairi Səməd Vurğun Damcılını dünyanın 8-ci, Azərbaycanın birinci möcüzəsi adlandırmışdır. Qazax rayonu ərazisində zəngin tarixi memarlıq və arxeoloji abidələri ilə zəngin, 200 min il tarixə malik qədim Daş dövrünün yadigarı olan möcüzəli Damcılı mağarası və Gədəbəy rayonu ərazisində Haçaqaya dağında yerləşən Şır-Şır şəlaləsi COP29-a gələn qonaqlar üçün ekskursiya marşrutu hesab oluna bilər.

AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsi və ARETN Molekulyar Biologiya və Biotexnologiya İnstitutunun birgə təşkilatçılığı ilə 14-15 oktyabr 2024-cü ildə "İqlim dəyişikliyi və ekosistemlərin davamlılığı: Təhdidlər, çağırışlar, həllər" mövzusunda elmi sessiyada giriş sözü ilə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA-nın vitse-prezidenti, ARETN Molekulyar Biologiya və Biotexnologiya İnstitutunun baş direktoru akademik İradə xanım Hüseynova "Qlobal iqlim dəyişiklikləri dövründə davamlı inkişaf naminə qlobal və milli cağırışlar" mövzusunda geniş məruzə ilə çıxış etmişlər. Sessiya bütövlükdə COP29, "Yaşıl dünya naminə həmrəylik ili"nin tələbləri səviyyəsində keçmişdir.

Azərbaycanda iqlim dəyişmələrinin torpaqların deqradasiyasına təsirinin qiymətləndirilməsi, Azərbaycanın su ehtiyatları – müasir vəziyyət, biotəhlükəsizlik problemləri və onların həlli yolları, iqlim dəyişikliyinin patogenlərin yayılmasına və inkişafına təsiri, iqlim dəyişmələrinin flora və fauna biomüxtəlifliyinə təsiri, COP29: Karbon emissiyasının azaldılmasına elmi baxış, insan sağlamlığında iqlim faktoru, ekosistemlərin biomüxtəlifliyinin dayanıqlılığının qiymətləndirilməsi, qlobal iqlim dəyişmələrinin aqrar sahəyə təsiri, iqlim dəyişmələri dövründə ərzaq təhlükəsizliyi probleminin həllinə yeni yanaşmalar, Xəzərin Azərbaycan sektorunda qlobal iqlim dəyişmələrinin hidrobiontların növ müxtəlifliyinə təsiri və s. məsələlər müzakirə olunmuşdur.

Sessiyada COP29-la əlaqədar iqlim dəyişmələrində ekosistemlərin rolu, davamlılığının qiymətləndirilməsi, biomüxtəlifliyin inventarizasiyası, qorunması, o cümlədən növlərin nəslinin kəsilməsinin qarşısının alınması, genetik müxtəlifliyin qorunması istiqamətində elmi-tədqiqat işlərinin nəticələri və istiqamətləri ümumiləşdirilmişdir.

# PREZİDENT İLHAM ƏLİYEVİN BƏDXAHLARI MƏYUS EDƏN XƏBƏRLƏRİ VƏ YA AZƏRBAYCANIN GENİŞ AÇILAN QANADLARI

**Rafael Hüseynov,**
**Milli Məclisin sədr müavini, akademik**
"Xalq qəzeti", 15.11.2024

Siyasətlər həmişə ayırır, hər tərəf öz maraqlarını güddüyündən fürsətdən də bacardıqca daha artıq yararlanmağa çalışır.

Ən böyük siyasi məclislərin, ən mötəbər siyasi təşkilatların da içərisində zahirən yekdilliyə can atılsa belə, həmişə mövqe, düşüncə, yanaşma müxtəlifliyi hökm sürür.

Dünyanın bugünündə artıq iqlim də ayrı bir siyasətdir.

İqlim siyasət olmasaydı, Birləşmiş Millətlər Təşkilatı illərdən bəri bu mövzunu gündəliyində sabit saxlamaz, bütün dünya dövlətlərini mütəmadi olaraq müzakirələr masası arxasına əyləşdirməzdi.

Ancaq iqlim dəyişikliyi məsələlərinin bütün başqa siyasətlərdən ən əsaslı fərqi ondan ibarətdir ki, oyundan rəqibinə nisbətən həmişə daha uduşla çıxmaq məqsədi daşıyan bütün digər siyasətlərdən fərqli olaraq, iqlim siyasəti yaxınlaşdıran, birləşdirən, yekdil edəndir.

Hansı qitədə, hansı ölkədə, hansı şəhərdə, ya kənddə yaşamağımızdan asılı olmayaraq, hansı siyasi əqidəyə mənsubluğumuza baxmayaraq, bütün Yer Kürəsinin əhli bir-birinə o məqamda lap yaxındır ki, hamımız Yerliyik!

Yəni bu da həmyerliliyin daha bir şəkli, ancaq bütün xırda hisslərdən uzaq, son ucda ən yüksək insani dəyərlərə səmtlənən təzahürüdür. Dünyamızçün faydalı belə YERLİPƏRƏSTLİKdən gözəl nə ola bilər!

Ortaq Yuvamız – Kainatda əbədi uçuşunda olan planetimizin taleyi bu gün Yer Üzündəki bütün ziddiyyətlər və fərqliliklərin fövqünə qalxır, müştərək GƏMİNİN SAKİNİ olmağımız hamımızınkı sayılan YERimizi və YERdəki həyatı daha artıq yaşamalı etməkçün onu daha çox qorumağa çağırır.

İqlimin, ətraf mühitin yalnız Təbiət, Allah işi olması haqda qənaətlər çoxdan köhnələrək dünəndə qalıb.

Haçandır ki, insan oğlunun torpağın altında, üstündə, səmada və sularda etdikləri iqlimin də, ətraf mühitin də necəliyinə birbaşa təsir

göstərir, başverənlərdən Kürəmizin hərarəti də qalxır, nəfəsi də tıncıxır, nəbz döyüntüləri də dəyişir.

Ona görə 2024-cü ilin noyabr günlərində Azərbaycanın Ev Sahibliyi ilə BMT növbəti dəfə dünya dövlətlərini paytaxt Bakıda iqlim dəyişikliyi ilə bağlı hamımıza aid ümdə məsələlərin müzakirəsinə toplayıb.

Bütün dövlətlərin və xalqların məqsədinin bir olduğu BMT məclisinə Azərbaycanın evsahibliyinin rəmziliyi və qanunauyğunluğu nədən ibarətdir?

200-dək dövlətin rəyi ilə bu mühüm tədbirin Azərbaycanda keçirilməsinə qərar verilməsi bir tərəfdən ölkəmizin beynəlxalq miqyasda artan nüfuzunun göstəricisidirsə, digər yandan da həmin etibaretmənin arxasında son iyirmi ildən artıq müddətdə bir çox beynəlxalq mərasimlərə uğurla evsahibliyi etmək təcrübəmizin yaratdığı inam dayanırdı ki, ötən dəfələrdə olduğu kimi, Azərbaycan bu kərə də qarşıya qoyulan vəzifəni layiqincə yerinə yetirəcək.

Azərbaycanın QADİRLİYİNİ aləmə tanıdan Qarabağ Zəfərimizdən sonra bütün ölkələrin diqqətini yurdumuza yönəldən və bu qədər dünya liderini Bakıda toplayan COP29 Zirvəsi, zənnimcə, Zəfərdən sonrakı daha bir Zəfərimiz hesab edilə bilər.

Bakıda düzənlənəcək bu məclisin Azərbaycanın beynəlxalq nüfuzunu artıracağı əlavə siqləti də, ümumdünya əhəmiyyətli bu tədbirin Qarabağ Zəfərimizə yeni işıq tutacağını da, əlbəttə ki, irəlicədən təxmin edənlər az deyildi. Ona görə də bu müvəffəqiyyətə sevinənlər sevinirdi, yüksəlişlərimizə darılanlar isə təlaş içindəydilər.

Söz yox, bu təlaş yalnız onların xıltlı daxilini gəmirən bulaşıq hisslərlə məhdudlaşmır, qərəzli hərəkətlərə də çevrilirdi.

O cür tərpənişlərin hamısı iflasa uğradıqdan, bütün hazırlıq işləri yüksək peşəkarlıq və fədakarlıqla qısa zaman kəsiyində gərəyincə başa çatdırılandan sonra, COP29-un təntənəli açılış mərasimində Prezident İlham Əliyev qonaqları salamlayarkən həmin təfərrüatları da unutmur, belə bir fərəhli günə gəlib yetişənədək, konfransın arzulanan səviyyədə keçirilməsindən ötrü bütün lazımi işləri görməklə yanaşı, xeyli umulmaz maneələri də adlamalı olduğumuzu diqqətə çatdırırdı: "Azərbaycan COP29-a ev sahibi seçildikdən dərhal sonra biz əlaqələndirilmiş və yaxşıca təşkil olunmuş qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrildik. Qərbin yalan xəbər mediası, dırnaqarası müstəqil QHT-ləri və bəzi siyasətçiləri sanki ölkəmiz haqqında dezinformasiya və səhv məlumatın yayılmasında yarışa çıxıblar".

Elə Qarabağ Zəfərimizə aparan əyyamlarda – 2020-ci ilin oktyabr-noyabr günlərində olduğu kimi, Prezident İlham Əliyev sərrast və iynəli deyişlərlə hücumları təşkil edənləri və ələbaxan icraçıları danılmaz sübutlarla yenə dünyanın gözü qarşısında, bu dəfə həm də əksər dünya dövlətləri liderlərinin hüzurunda mərd-mərdanə qınayır, irəli sürülmüş bütün saxtakar ittihamları aşkar dəlillərlə puça çıxarır, əslində ittiham etmişlərin özlərinin ittihamlara daha layiq olduğunu sübutlarıyla bəyan edirdi.

Ad çəkmirdi, ancaq o ad yiyələrinin özləri də, başqa hər kəs də, söhbətin kimlərdən getdiyini yaxşı anlayırdı və Azərbaycan dövlət başçısının çıxışı həm də bir daha o həqiqətin ifadəsi idi ki, böyüklüyün yeganə düzgün ölçüsü haqq, ədalət, doğrunun özüdür.

Nə qədər iri olursan ol, haqqı deyirsənsə müraciət etdiyin haqsız sənin qarşında aciz qalacaq, mağmun olacaq: "Dünyada bir nömrəli neft və qaz hasilatçısı olan, Azərbaycandan 30 qat artıq neft hasil edən ölkənin yalan xəbər mediası bizi neft dövləti adlandırır. Yaxşı olardı ki, ən azı onlar özlərinə və Azərbaycandan 10 dəfə artıq neft hasil edən özlərinin qonşuluğundakı ölkəyə baxsınlar. Neftimizin olmasında bizi ittiham etmək bir növ Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi suçlamağa bənzəyir. Bu, Tanrının bəxş etdiyi hədiyyədir. Hər bir təbii sərvət – istər neft, qaz, külək, günəş, qızıl, gümüş və mis – bunların hamısı təbii sərvətlərdir. Ölkələr onların olmasına görə günahlandırılmalı və bazarda onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər".

Əks-sədası Yer Kürəsinin bütün media quruluşlarından gələn, dünya dövlətlərini qovuşduran ən birinci və ən böyük təşkilatın məclisində – COP29-un rəsmi açılış mərasimindəki nitqində Prezident İlham Əliyev münasib girəvəni qaçırmayaraq bir daha Qarabağ Zəfərimizi yada salmaqla yanaşı Birləşmiş Millətlər Təşkilatının illərcə kağız üzərində qalmış qətnamələrinin məhz Azərbaycanın səyləri ilə yerinə yetirildiyini, bununla da əslində yalnız ölkəmizin təkcə özü üçün həyati məna daşıyan bir məsələni deyil, ahəngdar dünya nizamından ötrü vacib olan daha bir açıq yaranı sağaltdığını diqqətə çatdırırdı.

Və bunu deyərək əslində həm də onu vurğulamış oldu ki, əgər o cür pırtlaşıq düyünü çözmüşüksə, o ağırlıqda işin öhdəsindən gəlmişiksə, COP29-un cari sədri kimi də Dünya Ailəsinə töhfəmizi verməyi bacaracağıq: "Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalına, etnik təmizləməyə və bir milyon azərbaycanlının öz doğma torpaqlarından qovulmasına baxmayaraq, biz

özünü təmin edən iqtisadiyyata və müstəqil siyasətə malik güclü ölkəni qura bildik. Dörd il öncə biz İkinci Qarabağ müharibəsində tarixi Qələbəni qeyd etdik. Bir il əvvəl biz BMT-nin Nizamnaməsinə, beynəlxalq hüquqa və BMT-nin Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalmış qətnamələrinə uyğun olaraq, suverenliyimizi tam bərpa etdik. Biz həmin qətnamələri özümüz icra etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik və Ermənistanın işğalına son qoyduq. COP29-un sədri kimi Azərbaycan inkişaf etmiş və inkişaf edən ölkələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün əlindən gələni edəcək".

Beləliklə, mahiyyətcə dünya ölkələri və xalqlarını yaxınlaşdıran, BMT çətiri altında birləşən dövlətləri vahid məqsədə yönəldən, fəlsəfəsi ilə siyasətlərin ən nəciblərindən olan iqlim dəyişikliyi müzakirələri üçün məkanın Dünya Saatının indiki dönəmində məhz Azərbaycan seçilməsi həm məntiqli, həm qanunauyğun, həm də çox rəmzidir.

Mahiyyəti ilə sülhə, anlaşmaya, dinc və rahat birgəyaşayışa, bir-birinə dayaq olub əl uzatmaya yönələn ali BMT Məclisi – COP29 müasir dövrün ən uzunmüddətli hərbi münaqişələrindən birinə son qoyaraq işğalçının xarabazara çevirdiyi torpaqları dirçəldən, viranəliklərə yeni həyat bağışlayan, qapılarını səmərəli əməkdaşlıq və xeyirxah həmrəylik çağırışları ilə dünyanın üzünə açmış yüksələn Azərbaycanda deyil, başqa harada keçirilməli idi ki?!

Prezident İlham Əliyev Azərbaycanın bir zamanlar – XIX yüzilin sonlarında, həqiqətən, dünyanın neft istehsalı xəritəsində ən öndə gedən ölkə, dövrünə görə dünya neft sənayesində birincilik imzasını qoyanlardan olduğunu söyləyir, amma bu gün vaxtın çağırışlarına da ən fəal cavab verənlərin qabaq cərgəsinə çıxmaqla yaşıl enerji səmtində durmadan addım-addım irəlilədiyini bildirirdi. Həm də Azərbaycan liderinin bu açıqlamalarının özünəməxsusluğu və cəlbediciliyi onda idi ki, dünyaya təzadlı bir mənzərəni təqdim edir, xeyirin şər üzərində qələbəsinin hansı bəhrələr verə biləcəyini car çəkirdi – ÖLKƏNİN Yaşıl Gündəliyində indi qabarıq işarələnən həmin ərazilər dörd il əvvələdək işğal altında idi və təcavüzkar həmin bərəkətli torpaqlardan terrorçuların gizli təlim düşərgələrini yerləşdirmək, bir də narkotiklərin əkilib-becərilməsi və digər ölkələrə ötürülməsi üçün nəzarətdənkənar ərazilər kimi istifadə edirdi.

Bu gün Fransanın silahlandıraraq yeni qarşıdurmalara şitəndirdiyi Ermənistan belə etmişdi, indi Azərbaycansa azad Cəbrayılda Günəş enerjisi stansiyası qurmaq niyyətindədir, 2030-cu ilə qədər təxminən altı giqavatlıq Günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırır, ölkə

ərazisinin dörddəbirini yaşıl enerji bölgələri elan edərək Naxçıvan, Qarabağ və Şərqi Zəngəzurda məqsədyönlü fəaliyyətə başlayıb.

Yəni məkrli makronların və onlaratayların barmağının tuşlaması ilə nə yalanlar üyüdürsünüz üyüdün, amma Azərbaycan öz düz yolunda, gərəkli işlərini görməkdədir.

Dünən və bu gün Azərbaycan Avropanın enerji ehtiyaclarını ödəməkdə hansı xidmətini göstəribsə, sabah qitəyə yaşıl enerji ixrac etməkdə də ön sırada olacaq, çünki artıq bunun tədarüklərini görməkdədir.

Başqa sözlə, bihudə deyingənliklər və çeşidli fitnəkarlıqlar Azərbaycana badalaq vurmaq istəyənlərin özləri ilə qalacaq, uzaq olmayan sabahlarsa 2024-cü ilin noyabr günlərində başlıca hədəflərindən biri məhz yaşıl enerji olan İqlim Dəyişikliyi üzrə Konfransın təxirsiz məsələlərinin müzakirələri üçün BMT-nin Azərbaycanı ən münasib meydan olaraq seçməsindəki haqlılıq və uzaqgörənliyi bir daha isbata yetirəcək.

...Əslində o xəbərləri ki Azərbaycan dövlətinin başçısı insanlara və dünyaya çatdırır, onların hamısı mahiyyətcə xoş xəbərlərdir, sevinməli xəbərlərdir.

Amma niyyəti də, əməlləri də qara olanlarçün başqasının sevincinə üzdə olsa belə şadlanmaq həmişə müşküldür, dərd yüküdür.

Azərbaycan illərcə işğal altında qalmış torpaqlarını təcavüzdən xilas edib, yüzminlərlə məcburi köçkün üzücü ayrılıqlardan sonra dədə-baba torpaqlarına qayıtmağa başlayıb, dünyanın böyük yaralarından birinə əncam çəkilib, o işi ki dünyanın mötəbər beynəlxalq təşkilatları görməli olduqları halda yerinə yetirə bilməmişdilər, Azərbaycan özü həll edib və zahirən bütün bunlar gərək içərisində ədalət, düzlük, insaf hissi olan hər kəsi məmnun edə.

Ancaq Zəfərimiz daş olub düşüb bir bölük çürük fikirlinin, Cənubi Qafqazda qəsbçi maraqları olanların başına.

Yaxşı, o daş, o da onların başı, uzaqdan diş qıcadanların azarı məlumdur.

Di gəl, adı guya bizdən olmuş sayılan, bir qismi burda yaşayan, bir parası Vətəndən aralıda baş girləyənlərdən də o səslərə səs verənlər, Azərbaycanın hər nailiyyətinə elə düşmənin pəjmürdə olduğu kimi hiddətlənən, ağzı köpüklənə-köpüklənə kölgəmizi qılınclayanlar, qaramıza yazıb-danışanlar necə olsun?!

Axı bu cır səsləri dinləyincə onları kimin mumuc elədiyi xəbis deyişlərin eyniliyindən dərhal sezilir.

Görəndə ki bu günlərdə hamınız necə səs-səsə veribsiniz, necə canfəşanlıqla yaxa yırtırsınız, gendən aydınca sezilir və anlaşılır ki, tapşırıq

eynidir, göstəriş eyni mərkəzdən gəlir. Ağalar dəyişilə bilər, ata-ana kimi, Vətən də insana anadangəlmə nəsib olur. Dünyanın harasında yaşayıb hansı məzhəbə və məsləkə qulluq edirsən et, Vətən axıracan səninlə qalır, ona xəyanət edənləri də öz bildiyi kimi gec-tez hökmən cəzalandırır.

Axı onun-bunun qapısında sülənməklə millət, Vətən satıcılığı kimi rəzalətə uğrayanlar alver masasına hansı müqəddəs, toxunulmaz dəyərləri çıxarmalarının gərək fərqində olalar.

Axı texnolojilərin indiki səviyyəsində tarixin bunları yadda saxlayıb gələcəyə ötürmək imkanı daha çoxdur!

Axı onların indiki əməlləri və sözlərinə görə xəcaləti gələcəkdə, artıq onların olmadığı çağlarda oğul-uşaqları, nəvə-nəticələri çəkməli olacaqlar.

Hərçənd Vətən və millət tüccarının nə vecinə oğul-uşağın aqibəti!

…Azərbaycan öz yaxın tarixindən yaxşı bilir ki, təklənmək, haqq səsinin eşidilməməsi, ya eşitməzliyə vurulması, beynəlxalq birliyin və cavabdeh dünya təsisatlarının laqeydliyi nə deməkdir. Ona görə də həmdərd olmaq, tək qalana əl uzatmaq, haqsıza yerini göstərmək Azərbaycan üçün təbii hissdir.

Noyabrın 13-də COP29 çərçivəsində daha bir Zirvə gerçəkləşirdi – inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) sammiti keçirilirdi və yenə Prezident İlham Əliyev kürsüdə idi, "Yanınızdayıq!" deyirdi, "Kiçik ada dövlətlərinin səsi qlobal arenada eşidilməlidir" söyləyirdi, inkişaf etmiş bütün ölkələrə səslənirdi ki, iqlim dəyişmələrinin fəsadlarından qoruna bilmələri üçün kiçik ada dövlətlərinə maddi və texniki dəstək göstərin.

Azərbaycanın lideri mətləblərini yüksək kürsüdən sammit iştirakçılarına elan edirdi, ancaq COP29-un bütün aləmə açıq kamera və mikrofonlarından bu ümid verən, hayan duran səs dünyanın dörd bucağına yayılırdı. Əlbəttə ki, xeyirxahlıq, insanpərvərlik, həmrəylik dolu bu bəyanat ada dövlətlərinin Bakıya təşrif gətirmiş təmsilçilərini də, uzaqlardakı hər vətəndaşını da sevindirən, ümidləndirən, inamını artıran şad xəbər idi, ancaq bədxahlar, üzüqara müstəmləkəçilik keçmişli olanlarçün də bəd xəbər idi: "Qoşulmama Hərəkatında dördillik sədrliyimiz dövründə biz 80-dən artıq ölkəyə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərmişik. Azərbaycan kiçik ada dövlətlərinə özünün birmənalı dəstəyini nümayiş etdirir. Həmin ölkələrin üzləşdiyi çağırışların aradan qaldırılması COP29-da Azərbaycanın göstərdiyi səylərin əsasını təşkil edir".

Son illərdə dünyanın ictimai-siyasi həyatındakı ən sanballılardan biri kimi baş tutmuş Bakı COP29-unun şəksiz uğuruna məğlub acizanəliklə guya dodaq büzməyə cəhd edən üstümüzə qısqırdılmış riyakar səslər

mırıldanırlar ki, müqayisə edin, COP28 vaxtı iştirakçıların sayı indikindən bir az çoxmuş, nə bilim, hava daha günəşliymiş, yağış daha yumşaq yağırmış. Fransanın, Niderlandın dövlət başçılarının Bakıya gəlməməsi də onların, sən demə, buraları saya salmamasıymış.

Düz ediblər ki, gəlməyiblər, gəlsəydilər, rastlaşacaqları töhmət və qaxınclar çox ağır olacaqdı, odur ki, onların nə özlərinin, nə muzdlu səslərinin bəhanələri keçərli deyil.

Prezident İlham Əliyev zalımları ifşa edirdi, məzlumlara ürək-dirək verir, ürəklərindən tikan çıxarırdı: “Yeni Kaledoniya, Fransa Polineziyası, Mayot, Vallis və Futuna, Korsika, Reunion, Qvadelupa, Martinika, Fransa Qvianası, Sen-Pyer və Mikelon, Sent-Mert və Sent Varfolomey kimi Fransa müstəmləkələrinin xalqları, eləcə də Niderlandın Aruba, Kurasao, Sənt-Maarten, Boneyr, Sent Yefstaxiy və Saba kimi müstəmləkələrinin xalqları, – gəlin həmin ərazidəki xalqları alqışlayaq, – bu gün, XXI əsrdə də müstəmləkə hakimiyyətindən əziyyət çəkirlər. Hazırda Fransa Polineziyası və Yeni Kaledoniya 1946-1947-ci illərdə BMT tərəfindən qeyri-özünü idarə edən ərazilər kimi tanınır. Bununla belə, onların dekolonizasiya prosesi hələ də yubanır”.

Kiçik ada dövlətlərinin sammitində Azərbaycan Prezidentinin bu sözlərini bürüyən alqışlar zədəli, ziyankar xətti ilə böyük ölkəsini mikronlaşdıranların qulaqlarında ən gur atəşlər kimi səslənməyə bilməz!

Şübhə yoxdur ki, özü burda olmasa da, qulağı və gözü Bakıya zillənmiş Makron administrasiyası Prezident İlham Əliyevin bu ittihamlarından noyabrın 13-də anındaca agah olurdu və yekə-yekə danışmağa adətkərdə olanlara belə soyuq duşlar dünyamızın daha əmin-aman olmasından ötrü daim lazımdır: “1966-1996-cı illər ərzində Fransa Polineziyası Fransanın apardığı 193 nüvə sınağı səbəbindən ətraf mühitin ciddi pozulması ilə üzləşib. Fransa orada torpaq və suyun kəskin dərəcədə zəhərlənməsi və radiasiyasına görə məsuliyyət daşıyır. Radiasiya səviyyəsi 4900 faizi keçib. Əgər buna Fransanın Əlcəzairdə illər boyu işğalı zamanı həyata keçirdiyi 17 nüvə sınağını əlavə etsək, biz həmin ölkə tərəfindən planetin ekosisteminə hansı zərərin vurulduğunu görərik”.

Xeyli müddətdir siyasi möhtəkirlik oylağına çevrilmiş Avropa Şurasına biz 2001-ci ildə ilk dəfə qədəm basarkən müəyyən qüvvələr qabaqdangəlmişlik edərək, heç şübhəsiz ki, mütəmadi qaldıracağımız Ermənistanın ona havadar qüvvələrlə Azərbaycan ərazilərini işğal etməsi məsələsindən diqqəti yayındırmaqçün qondarma “siyasi məhbus” məsələsini ortaya atmışdılar, bu saqqızı da sonra uzun müddət çeynədilər. Ancaq

o dövrdə mən AŞPA-da yetərincə həmfikirlər də toplayaraq "Avropada siyasi məhbuslar" mövzusunda sənəd hazırlayıb nəşr etdirəndə, bu mövzunun da müzakirəyə çıxarılmasını istəyəndə ənənəvi ikili standartlar işə düşdü, "siyasi məhbus anlayışının meyarları yoxdur" dedilər.

COP29-un gedişini izləməkçün qeydiyyatdan keçmiş 3500 kütləvi informasiya nümayəndəsi arasında düymələrinin haradan basıldığı ağızlarını açan kimi bəlli olanlar da vardı ki, ağlasığmaz səylərlə Bakımızın bu mühüm tədbir ərəfəsində daha da göyçəkləşdirilməsindən başlamış konfransın bütün təşkilati ayrıntılarınadək yerinə yetirilmiş miqyaslı işləri xəbisliklə gözdən salmaq qəsdi ilə iqlim dəyişikliyi ilə bağlı qayğılardan qabaq insan haqlarına daha yaxşı riayət etmək zəruriliyindən dəm vururdular. Onlar qımıldanınca xoruzun quyruğu dərhal görünürdü (elə bil atalarımız qədimlərdə bu ifadəni dilə-dişə salarkən elə indinin siyasi müstəvisini də irəlicədən təsəvvür ediblərmiş), ötürmənin hardan qaynaqlandığı duyulurdu.

Prezident İlham Əliyev bu məqamda da bədxahlarımızın ovqatını təlx edən, kürkünə birə salan neştərli sözləri deyirdi, Fransanın dırnaqarası dəniz ərazilərində törətdiyi ekoloji cinayətləri sadaladıqdan sonra keçirdi bu ölkədəki rejimin insan hüquqlarına qarşı törətdiyi həqarətlərin siyahısına: "Prezident Makronun rejimi Yeni Kaledoniyada kanakların builki legitim etiraz aksiyasında 13 nəfərin həyatına son qoymuş, 169 nəfəri yaralamışdır. 1700 insan həbs edilmişdir. Həmçinin bu il Martinika və Qvadelupada etirazlar zamanı 38 nəfər həbs olunub. Bütün bunlarla yanaşı, Fransa nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də ki, Avropa Şurasının Parlament Assambleyası tərəfindən pislənildi. Bu, siyasi riyakarlıqdır. Siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat – Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası günahsız insanların qətlinə görə Prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşür. Fransadakı bütün siyasi məhbuslar dərhal azad olunmalıdır".

Di al payını!

...Noyabrın 12-də müasir Azərbaycan tarixinin hədsiz qürurverici tədbiri açılırdı.

Bütün dünyanın gözü Azərbaycana dikilibsə, hansı vicdanlı millət övladı bundan qürur duymaz?!

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası işə başlayırdı, Prezident İlham Əliyev kürsüdə idi, Liderlər Sammitinin iştirakçılarına üz tutmuşdu.

Həmişəki kimi vüqarlı, inamlı, ötkəm.

Əlbəttə ki, bu anlarda o, məsud idi.

10 milyonluq Azərbaycana dünyanın 196 (!) ölkəsindən gələn 72 min qonağı, onların da arasında 80 prezident, vitse-prezident və baş naziri öz millәti və dövləti adından salamlamaq imkanını tale hər liderə nəsib etmir.

Bu ali millətlər məclisini nə şəkildəsə gözdən salmaq, üstümüzə çirkab atmaq, dünya əhəmiyyətli bu tədbirin lazımınca alınmaması üçün iblisə də yalvararaq dua etməkdən tutmuş qarğışa, efir və yazı fitnəkarlığınacan hər cür çirkinliyə əl atmışların kirli arzuları ürəklərində qalmışdı.

BMT və Azərbaycanın böyük bayramı alınmışdı, uğurla başlanırdı və millətini, yurdunu sevən hər bir azərbaycanlının iftixar edəcəyi, ölkəmizin qanadlarını geniş açmasının daha bir təntənəsi olan bu möhtəşəm hadisənin müqəddiməsindəki açılış nitqində EV SAHİBİ Prezident İlham Əliyev bədxahlara bəd xəbər çatdırmağa məcbur idi.

Həm də bu ismarışı yalnız indiki deyil, gələcəkdəki bütün mümkün bədxahlara da ünvanlayırdı ki, Azərbaycan başladığı bütün işlərdə məqsədlərinə çatacaq, ZƏFƏRlər qazanacaq, sevincimizi bölüşməyə hazır olanlara fərəhimizdən pay düşəcək, istəməyənlərin burnu ovulacaq. Ayağımızın büdrəməsini diləyirsinizsə, sizi həmişə bu irinli sevincinizdən məhrum edəcəyik.

Bu günlərdə olduğu kimi!

Və həmişə!

# COP29 EKOLOJİ PROBLEMLƏRİN HƏLLİNƏ QLOBAL MİQYASDA MÜHÜM TÖHFƏDİR

**Qərib Məmmədov,**
**AMEA-nın müşaviri, akademik**
"Azərbaycan" qəzeti, 16.11.2024

Bəşəriyyət qarşısında duran qlobal problemlərdən biri də dünyanın ekoloji durumudur. Əsrlərdir təbiətdən istifadəyə ənənəvi baxışlar, yanaşmalar davam etdiyi üçün insanlığı narahat edən ekoloji böhran sürətlənərək fəsadları lokal və regional səviyyələrdən çıxaraq qlobal xarakter almış, nəticədə onu aradan qaldırmağı çətinləşdirmişdir.

Problemlərin sürətlə artan miqyası, dağıdıcı təsiri qlobal sosial-iqtisadi inkişafda da özünü daha sərt şəkildə göstərmişdir. Təəssüf ki, tropik meşələrin məhv edilməsi, meşə biogeosenozlarına antropogen müdaxilə meşələrin təkcə yayılma arealına deyil, onların növ tərkibinə, formasiyalararası və formasiyalardaxili təbii-tarixi struktur münasibətlər kompleksinə də təsir göstərmişdir. Bundan başqa, su və atmosfer hövzələrinin çirklənməsi, stratosfer və troposferdə ozon təbəqəsinin vəziyyəti ilə bağlı problemlər, qlobal iqlim dəyişmələri, səhralaşma, biomüxtəlifliyin azalması arzuolunmaz həddə çatmışdır.

Planetimizin təbii sərvətlərindən istifadədə səmərəli beynəlxalq nəzarətin olmaması səbəbindən mövcud problemlər zaman-zaman dərinləşməkdədir. Düzdür, bioloji müxtəlifliyin qorunmasının vacibliyini nəzərə alaraq BMT-in Rio-de-Janeyro konfransında "Bioloji müxtəliflik haqqında" Konvensiya qəbul edilmişdir. Respublikamız da bu konvensiyaya qoşulmuş ölkələr sırasındadır. Ümummilli Liderimiz Heydər Əliyev sözügedən konvensiya üzrə Azərbaycan Respublikasının öz üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsini, torpaq, bitki, heyvan və mikroorqanizmlərin genetik ehtiyatlarının yox olması təhlükəsinin qarşısını almaq üçün kompleks tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə "Bioloji müxtəlifliyin genetik ehtiyatları üzrə Dövlət Komissiyasının yaradılması barədə" sərəncam imzalamışdır. Ancaq istər dünya miqyasında, istərsə də respublikamızda ekoloji problemlərin həlli yollarının tapılması, ilk növbədə, bu problemlərə və bütövlükdə təbiətə düzgün münasibətin, yəni ekoetik baxışın formalaşdırılmasından asılıdır. Çünki insan və təbiətin qarşılıqlı əlaqələri müasir cəmiyyətin bütün daxili münasibətlər sisteminə, o cümlədən in-

sanın mənəvi həyatına təsir göstərən ümumi böhranın mühüm bir hissəsidir və onun qarşısı yalnız insanın zəkasının gücü və bəşəri birliyin köməyi ilə alına bilər. Bu problemlər cəmiyyətlə təbiət münasibətlərindəki mənəvi dəyərlərin korlanması zəminində ortaya çıxdığından insanlarda təbiətə qayğı göstərmək vərdişi, təbiət-cəmiyyət münasibətlərini harmoniyalaşdırmaq istəyi, ekoloji düşüncə, bir sözlə, təbiətə ekoetik münasibət və ekoloji mədəniyyət formalaşdırmaq lazımdır. Başqa sözlə, ekoloji problemlər etik məzmun kəsb etdiyindən ona ekoetik problemlər kimi yanaşmaq lazımdır.

Ümumiyyətlə, ekoetika son illər real elmi tutum və sanbal qazanmış istiqamətdir. Onun elmi, hüquqi və mənəvi aspektlərini şərh edən tədqiqatlara böyük ehtiyac yaranmışdır. Bu məqsədlə müəllifi olduğum "Ecoethic problems of Azerbaijan: scientific, legal, moral aspects" adlı kitabın nəşr olunması ekoloji problemlərə ekoetik yanaşmanın nəzəri əsaslarının öyrənilməsinin önəmindən irəli gəlir.

Azərbaycanın ekoloji problemlərinə ekoetik yanaşdıqda onun qlobal və milli tərəflərinin elmi şərhinə böyük ehtiyac yaranır. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyasının birgə əməkdaşlığı ilə işıq üzü görmüş "Qırmızı Kitab"ın ötənildəki III nəşrində nadir, nəsli kəsilmək təhlükəsi altında olan 152 onurğalı, 89 onurğasız olmaqla, 241 fauna və 383 ali, 15 ali sporlu, 6 mamır, 14 şibyə, 5 yosun olmaqla, 460 flora növünün əks olunması dünyanın biomüxtəlifliklə zəngin bir hissəsində – Azərbaycanda nadir və nəsli kəsilməkdə olan heyvan və bitki növlərinin mühafizəsi və bərpasına xüsusi diqqət göstərildiyinə bariz sübutdur.

Sevindirici haldır ki, artıq ekoloji problemlər bütün dünyanı düşündürən siyasi, iqtisadi, hüquqi və mənəvi məzmun kəsb etməyə başlayıb və ortaya çıxan risklər öz kəskinliyini artırdıqca onların yeni tərzdə dərk edilməsi, eləcə də həlli yollarının tapılması üçün ciddi addımlar atılmaqdadır. Bu baxımdan Azərbaycanda keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası – COP29-dan böyük gözləntilər var. Qeyd edək ki, COP29 sədrliyi İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun yaradılması, iqlim dayanıqlılığı üçün harmoniya, təmiz hidrogen, orqanik tullantılarda metanın azaldılması, "yaşıl enerji" dəhlizləri, saxlancları, "yaşıl rəqəmsal" fəaliyyət, "COP atəşkəsi" və digər mövzuları özündə ehtiva edən on dörd təşəbbüs irəli sürüb. İnanırıq ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə keçirilən COP29 iqlim dəyişikliyinə qlobal miqyasda mühüm bir töhfə olacaq.

## МАГИСТРАЛЬНЫЙ ПУТЬ – СОПРЯЖЕННОЕ РАЗВИТИЕ
**Опираясь на политическую волю и новейшие технологии, можно обеспечить переход к новому мышлению**

**Ибрагим Гулиев,**
**вице-президент НАНА, академик**
“Бакинский рабочий” qəzeti, 17.11.2024

*Как любое событие такого масштаба, COP29 имеет множество аспектов, хотя и объединена главной идеей. Политический аспект – это безусловное влияние на мировую политику, как бы ни старались принизить ее значение противники климатических изменений.*

Тенденция явного роста катастрофических бедствий, с которой уже никто не спорит, – это событие мировой геополитики, хотят этого лидеры государств или игнорируют этот факт. Анализ влияния конференции на ход мировых событий – дело будущего, но несомненно, что Международная климатическая конференция COP29 войдет в историю современности как масштабное событие мирового уровня. Этот лейтмотив красной нитью проходит в выступлениях Президента Азербайджана Ильхама Алиева.

**Изменить философию и идеологию будущего**

Трудно переоценить и еще один безусловно важнейший аспект – экономический. Ни одна страна не откажется от снижения темпов сегодняшнего роста бизнеса ради будущих и не вполне однозначных климатических преференций. Тем не менее магистральный путь – это сопряженное развитие и гармония экономики и процветания.

Третий аспект, хотя и не такой очевидный, – это изменение философии и идеологии будущего развития: мировые лидеры единогласно согласились провести международную климатическую конференцию в стране, которая в течение века подвергалась наиболее интенсивной экспансии нефтегазовой промышленности. Чтобы убедиться в этом, достаточно посмотреть космические снимки Абшеронского полуострова и просто взглянуть из иллюминатора самолета на сам полуостров. Невольно вспоминаются слова Максима Горького о Баку как «…гениально сделанной картине мрачного ада». Причины этого объективны и связаны с развитием промышленности. И не только.

Нефтяной бум начала XX века – Азербайджан давал половину мировой нефтедобычи. Далее – азербайджанская нефть обеспечила победу во Второй мировой войне. И, наконец, последние тридцать лет века XXI нефть стала основой победы и процветания независимого Азербайджана. Все это не могло не отразиться на экологической панораме Баку. Возможно ли преодолеть этот парадокс?

Сегодня Страна огней вновь в центре внимания как государство совершенно нового типа, которое своим примером показывает, как, опираясь на политическую волю и новейшие технологии, можно обеспечить пока только тенденцию перехода к новому мышлению и реализовать его – на ограниченных территориях построить новую экономику, основанную на «зеленой» энергетике.

**Убедительная аргументация**

И об этом красноречиво и очень убедительно говорится в выступлении главы нашего государства: «В XIX веке Азербайджан производил более половины мировой добычи нефти. И если бы некоторые западные политики и СМИ назвали нас нефтяным государством тогда, это, наверное, было бы приемлемо. Но сегодня потенциал возобновляемых источников энергии оценивается в 135 ГВт на суше и 157 ГВт на море. В прошлом году компания Masdar из ОАЭ торжественно открыла крупнейшую в нашем регионе солнечную электростанцию мощностью 230 МВт. Саудовская компания ACWA Power в настоящее время строит ветряную электростанцию мощностью 240 МВт.

Во время проведения COP29 будет подписано соглашение с британской компанией bp о строительстве солнечной электростанции мощностью 240 мегаватт в Джебраильском районе, освобожденном от армянской оккупации четыре года назад. Этот проект обеспечит декарбонизацию одного из крупнейших в мире нефтегазовых терминалов – Сангачальского терминала. К 2030 году мы планируем построить солнечные, ветряные и гидроэлектростанции общей мощностью около шести гигаватт. Но это не все наши планы. Подписаны контракты и меморандумы о взаимопонимании по проектам возобновляемой энергии общей мощностью 10 гигаватт. Мы также ориентируемся на экспортные рынки и активно сотрудничаем с нашими партнерами для реализации еще одного важного проекта в области энергетической безопасности – энергокабеля Черное море-Каспийское море. Но это только начало. Наша

зеленая повестка охватывает различные регионы Азербайджана. Регионы Нахчыван, Карабах и Восточный Зангезур объявлены зонами «зеленой» энергии, что составляет около четверти нашей территории».

И это действительно так. Безусловно, основой устойчивого развития республики, несмотря на развитие «зеленой» энергетики, в ближайшие десятилетия останутся углеводородные ресурсы и проблемы их оптимального освоения. Здесь ключевой задачей остается оценка углеводородного потенциала Каспийского региона и прилегающих областей.

**Определяя вектор развития**

Известно, что тепловые электростанции нашей страны, ежегодно выбрасывающие в атмосферу более 10 млн тонн углекислого газа (CO2), являются основным источником выбросов углерода в атмосферу. А улавливание и хранение отработанного диоксида углерода с использованием его вместо природного газа метана ($CH_4$), который применяется в качестве сырья при производстве метанола и карбамидных удобрений, могут стать одними из эффективных методов борьбы с изменением климата. В настоящее время прорабатываются научно-технические и экономические основы этого проекта, который, по нашим расчетам, позволит сэкономить значительные объемы метана, ежегодно используемого в качестве сырья, и увеличить экспортный потенциал газа.

Что касается газогидратов в Каспийском море, то уже получены данные о термодинамических условиях их формирования как потенциальных ресурсов энергетического сырья и возможных экологических угроз.

Общество отчетливо понимает, что традиционная энергетика, основанная на углеводородном сырье, еще долго будет определяющей, но сегодня речь идет об определении вектора развития. Сегодня наши гости могли убедиться, что тенденция развития в Азербайджане энергетического сектора (главным образом нефтегазового), а также логистики, туризма и др. сохранится как приоритетное направление. Вместе с тем развитие городской инфраструктуры свидетельствует об изменении философии развития республики. Наши приоритеты в других сферах так или иначе связаны с повесткой дня.

На форуме неоднократно подчеркивалась необходимость совместных проектов. Это, безусловно, проблемы Каспийского моря, водных ресурсов, трансграничных рек, динамики берегов. Эти проекты позволят не только объединить усилия государств Каспийского региона, но также будут примером для взаимодействия государств мира. Приятно видеть на конференции молодых людей, и это еще один фактор успеха конференции.

# COP29 AZƏRBAYCANIN DÜNYANIN YAŞILLAŞDIRILMASINDAKI ROLUNUN AYNASIDIR

**Pənah Muradov,**
**AR ETN Mikrobiologiya İnstitutunun**
**baş direktoru, AMEA-nın müxbir üzvü**
"Azərbaycan" qəzeti, 17.11.2024

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanların iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir və onun da ilk sessiyası 1995-ci ildə Almaniyanın Berlin şəhərində keçirilmişdir.

Qeyd etmək yerinə düşər ki, iqlimin dəyişməsi ümumən təbiət hadisəsi olsa da, hazırda qeyd edilən qlobal iqlim dəyişməsi insanların təbiətə intensiv müdaxiləsinin (istixanalar, avtomobil qazları, fabrik-zavod tullantıları və s.) nəticəsi olması hamının qəbul etdiyi reallıqlardandır. Belə ki, buna misal olaraq insanların qidaya olan tələbatlarının ödənilməsi üçün meyvə və tərəvəzlərin becərilməsi məqsədi ilə istifadə edilən istixanalardan və meqaşəhərlərdə avtomobillərdən atmosferə buraxılan zərərli qazların insan orqanizminə nə qədər ağır təsir etdiyini demək yetərli olar. Lakin iqlim dəyişmələri təkcə insanların sağlamlığına mənfi təsir etmir, eyni zamanda özü ilə bir sıra iqtisadi və ekoloji problemlər də yaradır.

İqlimin mənfi tərəfə dəyişməsi müxtəlif sahələrə müxtəlif formada təsir etsə də, ən ciddi təsir tullantıların səmərəli utilizasiya olmamasına və temperaturun yüksəlməsinə görə aqrar sektorda, xüsusən də bitkiçiliklə bağlı olanlarda hiss edilməkdədir. Belə ki, bitkilər təkamül prosesində daim iqlim dəyişikliklərinə məruz qalmışlar ki, bu da CO2 qazının atmosferdəki miqdarı və temperaturla əlaqədar olmuşdur. Bəzi məlumatlara görə, təxminən 20 min il bundan qabaq, daha dəqiq, sonuncu buzlaşma dövründən bəri havada CO2-nin miqdarı 0,018 faiz ppm olduğu halda, hazırda onun miqdarı 0,041 faiz təşkil edir və əsrin sonuna kimi onun 0,051-0,1 faizə kimi yüksəlməsi gözlənilir. Qlobal temperaturun orta göstəricisi isə həmin dövrdən birinci sənaye inqilabına kimi 4,50C yüksəlmişdir və ondan sonra isə hazırkı günlərə kimi daha 0,80C artmışdır.

Yaşadığımız əsrin sonuna kimi temperaturun 1-3,70C arasında yüksələcəyi də proqnozlaşdırılır. Bunun qarşısının alınmasının zəruri

olması COP-un qarşısında duran vəzifədir. Çünki COP bir sıra iqlim dəyişikliyi məsələlərini müzakirə etmək və danışıqlar aparmaq üçün dünya liderlərini, hökumət rəsmilərini, alimləri, QHT-ləri və digər maraqlı tərəfləri bir araya gətirən böyük tədbirdir ki, onun 29-cu sessiyası Azərbaycanda keçirilir. COP29-un əsas mövzusunun iqlim dəyişmələrinin təsirlərindən zərər görən ölkələr üçün nəzərdə tutulan maliyyələşmə ilə bağlı olacağı açıqlanmışdır. Belə bir mövzunun seçilməsini də təbii hesab etmək olar. Belə ki, maliyyə mənbəyi olmayan ən gözəl ideya belə söz olaraq qalacaq. İnanırıq ki, COP29 bu məsələnin öhdəsindən gələcək və bu gün bəşəriyyəti narahat qedən karbon emissiyasının azaldılması üçün işlək maliyyə mexanizminin tapılması yolunda ciddi addımlar atılacaqdır.

Onu da deyək ki, COP29-un Azərbaycanda keçirilməsi bir dövlət olaraq aparılan xarici siyasətin böyük təntənəsidir və ölkəmizə həm siyasi, həm iqtisadi, həm də elmi baxımdan böyük dividendlər gətirəcək, dünyanın yaşıllaşdırılmasında respublikamızın da payının olmasını əyani şəkildə göstərəcəkdir. Belə ki, Prezident İlham Əliyevin 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsi, Azərbaycanda istixana qazı emissiyalarının 2050-ci ilə qədər 40 faiz azaldılmasının planlaşdırılması, su qıtlığının aradan qaldırılmasına və biomüxtəlifliyin kasadlaşması kimi qlobal xarakterli problemin həllinə istiqamətlənmiş strategiya və tədbirlər bunu əyani şəkildə təsdiq edir və COP29 bunu özündə aydın şəkildə əks etdirən bir ayna kimi də xarakterizə oluna bilər.

# AKADEMİK RASİM ƏLİQULİYEV: "SÜNİ İNTELLEKT TEXNOLOGİYALARI YAŞIL PROBLEMLƏRİN HƏLLİNDƏ MÜHÜM ROL OYNAYACAQ"

"Elm" qəzeti, 19.11.2024

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Azərbaycan elminin qarşısına ölkəmizdə yaşıl iqtisadiyyatın, yaşıl cəmiyyətin formalaşdırılması, ekoloji vəziyyətin yaxşılaşdırılması, o cümlədən alternativ enerji mənbələrindən istifadənin genişləndirilməsi ilə bağlı mühüm vəzifələr qoyur.

Bunu AMEA-nın vitse-prezidenti, Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev **AzərTac**-a açıqlamasında söyləyib.

COP29-un Azərbaycan elminin qarşısına qoyduğu problemlər və vəzifələrə, yeni prioritetlərə diqqət çəkən akademik Rasim Əliquliyev rəqəmsal texnologiyaların yaşıl dünya üçün yaratdığı neqativ təsirlərin minimallaşdırılmasında, eyni zamanda, mürəkkəb ekoloji problemlərin həllində süni intellekt texnologiyalarının tətbiqinin çox böyük perspektivlər vəd etdiyini söyləyib.

Akademik qlobal iqlim dəyişmələri problemlərinin həllində alim və mütəxəssislərin fəal iştirakının vacibliyinə toxunub. Bildirib ki, sağlam ətraf mühiti formalaşdırmaq məqsədilə rəqəmsal texnologiyalardan istifadə əsasında müxtəlif yaşıl problemlərin həllinə dəstək verilməlidir. Təbiətdə gedən prosesləri təhlil etmək, iqlim dəyişmələri ilə bağlı ifrat böyük məlumatları vaxtlı-vaxtında toplamaq, intellektual emal etmək, yüksəkkeyfiyyətli, analitik və proqnoz üçün əhəmiyyətli bilikləri əldə etmək son dərəcə vacibdir.

"Prezident İlham Əliyevin yaşıl texnologiyaların inkişafı, yaşıl cəmiyyətin və yaşıl iqtisadiyyatın formalaşdırılması ilə bağlı çağırışlarına elmi dəstək verməliyik", – deyən AMEA-nın vitse-prezidenti, IV Sənaye İnqilabının gətirdiyi yeniliklər kontekstində ölkəmizdə yeni enerji, nəqliyyat və su təchizatı infrastrukturlarının qurulması, eləcə də digər kritik sistemlərin fəaliyyətinin intellektuallaşdırılması, kibertəhlükəsizliyinin təmin olunması istiqamətində konkret elmi innovativ layihələrin işlənilməsinin nəzərdə tutulduğunu vurğulayıb.

## QLOBAL İQLİM DƏYİŞİKLİKLƏRİ İLƏ ƏLAQƏDAR ELMİN VƏZİFƏLƏRİ

**Tariyel Talıbov,**
**AR ETN Bioresurslar İnstitutunun (Naxçıvan)**
**baş elmi işçisi, akademik**
"Azərbaycan" qəzeti, 19.11.2024

Dünya üzrə elmi mühit qlobal iqlim dəyişikliklərinin başvermə səbəblərindən birinin öncə antropogen faktor olduğunu qəbul etsə də, daha mühümünün qalaktikamızın, o cümlədən Yer kürəsinin hərəkət trayektoriyası və ya kosmik anomaliyalarla əlaqədar olub-olmadığının müəyyənləşdirilməsi vacibdir. Aydınlaşdırılmalıdır ki, ən azından Yer kürəsində belə bir ardıcıl kritik iqlim dəyişiklikləri nə vaxtsa baş vermişdimi? Çünki biz kainatda və məskunlaşdığımız planetdə prosesləri tam da olmasa, dəqiqləşdirməsək, qabaqlayıcı tədbirlərimizin effekti az olacaqdır.

Bizim dağlıq zonalardakı biçənəklər üzərində apardığımız müşahidələrə əsasən, iqlim dəyişiklikləri təqribən 2000-ci ildən başlayaraq intensivləşməyə başlamışdır. Həmin zamanlarda hündürlüyü təqribən 1,2 m olan ot örtüyü builki müşahidələrə görə, artıq 15-20 sm səviyyəsinə düşmüşdür. Bəzi yerlərdə biçənəklər artıq otlaq kimi istifadə edilir. Ot kütləsinin azlığı əhalini məcbur etmişdir ki, meşə talalarını biçənək kimi istifadə etsinlər, həm də heyvanları, xüsusən iribuynuzluları meşədə otarsınlar. Bu isə birbaşa və ya dolayısı yolla talaların genişlənməsinə, meşələrin seyrəlməsinə səbəb olmuşdur. Beləliklə, sutənzimləyici rolu olan meşələr su itkisinin də baş verməsinə vəsilə olur.

Dünyada iqlim dəyişikliklərinə səbəb olan amillərdən ən başlıcası antropogen amillərdir. Bəşəriyyətin törətdiyi davamlı müharibələr, Yerin təkindən acımasızcasına istifadə, böyük şəhərlərin yaratdığı "parnik effekti", plastik, pestisid, zəhərləyici maddələrlə torpaq və suyun çirkləndirilməsi, okean və dənizlərin çirkab anbarına və atom bombaları sınaqlarının meydanına çevrilməsi təbiətin də, şübhəsiz, cavab reaksiyası verəcəyi anlamına gəlirdi. Bir çox növlər qırmızı kitablara salmağımıza baxmayraq, təbiətdə artıq müşahidə edilmir, bu fikir həm flora, həm də fauna növlərinə aiddir.

Ona görə də bəzi qabaqlayıcı tədbirlərin görülməsi vacib olduğu qədər həm də qaçılmazdır:

1. Respublikada qida zəncirinin başlanğıcı olan bitki örtüyünün qorunması, səmərəli istifadəsi və artırılması.

2. Respublikada su ehtiyatı mənbələrinin qorunması, su xətlərində itkilərin azaldılması və səmərəli istifadəsi birnömrəli məsələdir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 10 oktyabr 2024-cü il tarixli Sərəncamı ilə "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın təsdiq edilməsi su probleminin vacib faktor olduğunu göstərdi. Ölkə rəhbəri tərəfindən qəbul edilən tədbirlər ardıcıl davam etdirilməklə, şübhəsiz, əhalinin firavan və sağlam yaşayışını stimullaşdıracaq, yaşıllıqların salınması işini asanlaşdıracaqdır.

3. Təbiətdəki vəziyyəti kritik statuslu olan növlərin, xüsusən birillik bitkilərin toxum materialının toplanılaraq genbanklarda saxlanılması.

4. Digər funksiyaları ilə bərabər başlıca sutənzimləyici funksiya daşıyan meşələrdəki talalarda və çaysahili seyrəlmiş tuqay meşələrində elmi surətdə yaşıllaşdırma işlərinin davam etdirilməsi, digər üstünlükləri ilə bərabər, həm də yaşıllıq sahələrinin artmasına imkan verəcəkdir.

5. Dağlıq zonada "ağıllı çöl layihələri"nə start verilərək, yağıntılar zamanı yamaclarda yaranan axıntıları üfüqi istiqamətlərə yönləndirərək, yağış sularından istifadənin effektivliliyini artırmaq.

6. Yay otlaq sahələrində fermalara verilmiş ərazilərdə normaya uyğun mal-qaranın növ sayına ciddi nəzarət edilərək otlaq sahəsinin yüklənməsinin qarşısının alınması, otarılma qaydalarına nəzarət edilməsi.

7. İri şəhərlərdə tıxacların ciddiliyini, səmərəsiz yanacaq sərfi və havanın çirkləndirilməsini nəzərə alaraq, "yaşıl işıq" xətlərinin yaradılmasına çalışılması.

8. Televiziya verilişləri ilə əhaliyə təbiətdə baş verən qlobal iqlim dəyişikliklərinin ciddiliyini başa salaraq ətraf mühitə qarşı qayğılı münasibətin artırılması.

# "YAŞIL MƏDƏNİYYƏT"

**Rəna Mirzəzadə,**
**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun**
**şöbə müdiri, professor**
“Azərbaycan” qəzeti, 21.11.2024

XXI əsr süni intellekt erası, canlı və qeyri-canlı həyatın "ağıllı" modifikasiyası, innovativ inkişafla yanaşı, yeniliklərə yönəlik gərginliklər, təbiətin "istismarı" ilə iqlimin dəyişməsi, canlı həyatın bütün parametrlərinin - torpağın, havanın, suyun, təbiətin qorunması problemləri aktual müzakirə predmetidir.

Dünyanın 200 ölkəsinin yekdil qərarı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsinə Azərbaycanın evsahibliyi etməsi BMT səviyyəsində mövcud etibarlı tərəfdaş olmasından, respublikamızın nüfuzundan və beynəlxalq müstəvidə geosiyasi mövqeyindən irəli gəlir. Bu həm də dünya siyasətində Azərbaycanın iştirak yerinin göstəricisi, dövlətlər və beynəlxalq təşkilatların ölkəyə olan marağının ifadəsi, "yaşıl iqtisadiyyat"a keçid strategiyası məntiqidir. Bu missiyaya uyğun olaraq 2024-cü il ölkəmizdə Azərbaycan Prezidentinin sərəncamı ilə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub.

Xatırladaq ki, 2024-cü il sentyabrın 20-24-də BMT-nin Nyu Yorkdakı baş qərargahındakı tədbirdə "Gələcəyin sammiti" tədbiri keçirilmişdi.

22 ölkədən iştirakçıları olan 44 QHT nümayəndəsi iqlim ədaləti fəalları müxtəlifliyi, inklüzivliyi və gender bərabərliyinin təşviqinin təbliğində COP29 sədrliyinə dəstək nümayiş olunmuşdur.

Bakı COP29 tədbiri IV sənaye inqilabının "yaşıl enerji"li "yeni sənaye inqilabı" mədəniyyətinə doğru bəyanat və çağırışların səsləndiyi dünya səviyyəli tədbirdir. COP29 Bakı tədbirinin məğzi yeni "yaşıl hərəkatlı həyat" və "yaşıl iqlimli dünya yaradaq" mahiyyətlidir.

COP29-da, gender strateji xətti də xüsusi əhəmiyyət daşıdı. Belə ki, qadın siyasətçilərin, qadın rəhbər və birinci xanımların iştirakı ilə "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusundakı konfransda əsasən gender balansı ehtiva olundu. Bu aspektdən, 2024-cü il noyabrın 12-də COP29 çərçivəsində "yaşıl zona"da "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" adlı konfransda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva, İtaliyanın baş naziri Ciorcia Meloni, Moldova Res-

publikasının Prezidenti Maya Sandu, Şimali Makedoniya Respublikasının Prezidenti Gordana Silyanovska-Davkova, Birləşmiş Millətlər Təşkilatının Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Tatyana Molçan, BMT-nin Uşaq Fondunun (UNICEF) Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Regina De Dominikis, Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan, Qırğız Respublikasının birinci xanımı Aygül Japarova, Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva və s. iştirak ediblər.

Bu konfransın mühüm istiqaməti Mərkəzi Asiya və türkdilli ölkələrin iqlim dəyişikliyi ilə bağlı apardığı mübarizəni dünya ictimaiyyətinin nəzərinə yetirmək və gənclərin baxışlarını iqlim məsələlərinə yönəltməklə, həm də beynəlxalq öhdəliklər sahəsində keçirilən tədbirlərin yekununa diqqət yetirilməsi idi.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva bu konfransda ictimai-siyasi və sosial-humanitar paradiqmalı məzmunda ətraflı məruzə ilə çıxış etdi. Xanım Mehriban Əliyevanın məruzəsinin əsas paradiqmaları "ölkələrə sülh və əmin-amanlıq diləməklə" dünyaya barış çağırışı idi.

Birinci vitse-prezident elmi-ictimai yönlü çıxışında "biosferin çirklənməsi, içməli suyun qıtlığı, quraqlıqlar, ərzaq təhlükəsizliyi probleminə" də toxunaraq Azərbaycanın bərpaolunan enerji-"yaşıl mədəniyyət"li uğurlarını real faktlarla açıqladı.

Bəs COP29 Azərbaycana nə qazandırdı...

– Bakının növbəti dəfə beynəlxalq miqyaslı tədbirlərə evsahibliyini layiqli yerinə yetirən regional liderliyi dünyaya nümayiş olundu.

– COP29 böyük qlobal tədbirini keçirməklə ölkənin ictimai-siyasi, daxili sabitliyi, geoiqtisadi gücü, beynəlxalq münasibətlər sistemində yeri və rolu göstəricisini təsdiqlədi.

– Azərbaycanın bütün sahələrində bir sıra dividendlər qazandırmaqla ölkənin inkişafını, milli resurs və mahiyyətini, nüfuzunu daha da yüksəldərək tanıtdı.

– Ölkəyə yönəlik ikili standartlı mövqelərin qarşısının alınmasında Azərbaycanın gerçək reallıqlarının dünya ictimaiyyətinə çatdırılmasına əhəmiyyətli təkan oldu.

– COP29-da ölkənin iqtisadi investisiya, sosial və turistik əhəmiyyətinin böyük olduğunu əks etdirdi. Turizmin, hotelçiliyin, aqrar sektorun, qalanteriya sənayesinin inkişafına yeni bir impuls verəcəkdir. Bu, qeyri-neft sektoru üzrə dövlət büdcəsi gəlirlərinin də artmasına töhfə verəcəkdir.

– Bakıda keçirilən bu vacib platformada "dünyanın 80 faizinin iqlim dəyişikliyindən əziyyət çəkdiyi bir vaxtda" problemin həlli yolları müəyyənləşdirildi.

– Bakı COP29 tədbiri bəşər həmrəyliyinin simvoluna çevrilərək, hamı üçün daha təhlükəsiz, firavan və davamlı gələcək naminə platforma olaraq tarixləşdi.

– COP29 Bakı tədbiri dövlətin iqlim siyasətinin mütəşəkkil formalaşdırılması və inkişaf etməkdə olan ölkələrin "yaşıl mədəniyyət"inin ekoloji şüur və davranışının artmasına zəmin olacaqdır.

Bu yanaşmalardan da COP29 kimi mötəbər bir tədbirin Bakıda baş tutması, təbiətin ani olaraq yaratdığı gözlənilməz fəlakətlərin bəzən öncədən qarşısının alınması, törətdiyi fəsadların aradan qaldırılması və s. bu kimi iqlim dəyişikliyi ilə əlaqədar qərarların qəbulunda Azərbaycanın evsahibliyi ölkənin beynəlxalq səviyyədə aparıcı aktorlardan olduğu faktorudur.

Birinci vitse-prezident Mehriban Əliyevanın məruzəsi Konsensus və Ədalət paradiqmalı, "riyakarlığa yox deyək" Xeyirxahlıq və Həmrəylik mətnli, milli və beynəlxalq müstəvidə Sülh-Barışdırıcılıq missiyasını əxz edən humanitar çağırışlı Azərbaycan rəhbər qadınının motivasiyalı uğur siyasi ictimai-diplomatik fəlsəfəsidir.

# AZƏRBAYCAN MİLLİ ELMDƏN TƏRƏQQİ VƏ RİFAH İMPULSLARI GÖZLƏYİR

**Müsahibəni apardı:**
**Nərgiz Qəhrəmanova,**
**AMEA Rəyasət Heyəti aparatının sektor müdiri**
"Xalq qəzeti", 23.11.2024

**Müsahibimiz AMEA-nın akademik-katibi, Elm və Təhsil Nazirliyi Fizika İnstitutunun direktoru, akademik Arif Həşimovdur.**

**– Arif müəllim, qarşıda AMEA-nın 80 illik yubileyi gəlir. Uzun illər bu elm ocağında rəhbər vəzifələrdə çalışmısınız, Azərbaycan elminin inkişafına mühüm töhfələr vermisiniz. Son illər AMEA-da aparılan islahatları, elmin tərəqqisi yönündə həyata keçirilən tədbirləri necə qiymətləndirirsiniz?**

– Əvvəlcə onu qeyd edim ki, AMEA-da aparılan islahatlar təkcə akademiyanın deyil, bütövlükdə Azərbaycan elminin gələcək inkişafına yönəlmişdir. Təkcə bu gün əldə olunan nailiyyətlərlə kifayətlənmək yox, eyni zamanda həm keçmişə, həm də gələcəyə baxmaq, bütün dövrləri təhlil etmək lazımdır. Hər kəsə məlumdur ki, AMEA-nın 80 illik yubileyi yaxınlaşır. Tarixi nöqteyi-nəzərdən 80 rəqəmi o qədər də böyük deyil. Lakin mən hesab edirəm ki, bu illər ərzində Azərbaycan elmində əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur. Həmin nailiyyətlərin qazanılmasında təkcə AMEA və onun elmi müəssisələrinin deyil, həm də respublikanın bütün elmi tədqiqat qurumları, ali təhsil ocaqları və əlbəttə ki, elmlə məşğul olan hər kəsin payı vardır.

Ölkəmizdə elm sahəsində aparılan islahatlara gəldikdə, təbii ki, indiki dövrdə bu istiqamətdə həyata keçirilən tədbirlər əsasən XXI əsrin tələblərinə, qlobal çağırışlara cavab verməli və əvvəlki illərlə müqayisədə fərqlənməlidir. Müasir dövrdə bütün cəmiyyət, bəşəriyyət elmdən daha böyük nailiyyətlər, yeniliklər gözləyir. Aydın məsələdir ki, dünyada gedən rəqəmsallaşma prosesləri, IV Sənaye İnqilabı və süni intellektin gətirdiyi yeniliklər, eyni zamanda, informasiya bolluğu elmin qarşısında yeni vəzifələr, prioritetlər qoyur. Bütün bunlar AMEA-da da dünya elminin tələblərinə cavab verən elmi tədqiqatların aparılmasını, gələcək inkişafa ünvanlanmış yeni islahatların həyata keçirilməsini tələb edir.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin rəhbərliyi dövründə və birbaşa onun təşəbbüsü ilə Azərbaycan elminin inkişafı və beynəlxalq aləmə sürətli inteqrasiyası istiqamətində yenilikçi islahatlara təkan verilib. Bu islahatların əsas fərqi ondan ibarətdir ki, elmin, alim və ziyalıların qarşısına tamamilə yeni vəzifələr qoyulub. Təbii ki, həyata keçirilən bütün tədbirlər Sovet və keçid dövründə aparılan islahatlardan fərqlənir. Bu gün Azərbaycan müstəqil və öz torpaplarını işğaldan azad etmiş bir ölkə kimi bütün dünyada yüksək nüfuza, strateji mövqeyə malikdir.

Xüsusilə qeyd etməliyəm ki, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın son illərdə qazandığı nailiyyətlər ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş məqsədyönlü siyasətin məntiqi davamı və real nəticəsidir. Təbii ki, Azərbaycan alimlərinin də, AMEA üzvlərinin də əsas ümdə vəzifələrindən biri bu strateji xəttin davamı kimi, Azərbaycan elminin inkişafını sürətləndirmək, beynəlxalq aləmə inteqrasiyasını təmin etmək, alim və ziyalılarımızın mühüm elmi nailiyyətlərini dünyaya tanıtmaqdır.

**– Müasir dövrdə ölkəmizdə energetika sahəsində aparılan tədqiqatlar və əldə olunan nəticələr sizi qane edirmi? Bu istiqamətdə hansı problemlərin araşdırılması zəruridir?**

– Bu sual təkcə elm ictimaiyyətini deyil, həm də, bütövlükdə, respublikanı əhatə edir. Çünki hər bir ölkənin inkişafı və gələcəyi onun energetika təhlükəsizliyi ilə birbaşa bağlıdır. Bu gün Azərbaycanda energetika sahəsində aparılan uğurlu dövlət siyasətinin nəticəsidir ki, ölkəmiz enerji təhlükəsizliyi baxımından özünü tam təmin edir. Əminliklə demək olar ki, Azərbaycanda elektroenergetika sistemi artıq dünyanın bu sahədə ən qabaqcıl sistemlərindən birinə çevrilmişdir. Son illər energetika sistemində tikilən ən müasir tipli elektrik stansiyaları, elektrik veriliş xətləri və həyata keçirilən digər məqsədyönlü tədbirlərin hesabına Azərbaycanda elektrik enerjisinin təminatı nəinki yaxşılaşmış, həm də onun keyfiyyəti artmış, eyni zamanda, bir kilovat/saat elektrik enerjisinə düşən yanacağın sərfi də xeyli azalmışdır. Nəticədə, böyük həcmdə yanacağa qənaət edilmişdir.

Məlumdur ki, Azərbaycanda ölkənin təbii potensialından istifadə etməklə alternativ enerji mənbələrinin inkişafı dövlət başçısı tərəfindən xüsusi diqqət yetirilən əsas məsələlərdən biridir. Bu istiqamətdə kifayət qədər işlər görülüb və hazırda da davam etdirilməkdədir.

Azərbaycanda etibarlı elektrik enerjisi təminatının, energetika sisteminin inkişafının əsasında böyük zəhmət və əmək dayanır. Çünki, sistem istehsal etdiyi enerjini həm də satmalıdır. Bu istiqamətdə də ölkəmizdə xeyli iş görülüb. Enerji sisteminin müasirləşdirilməsi, rəqəmsallaşdırılması, onun idarə olunması, eləcə də, süni intellektdən istifadə əsasında aparılan tədqiqat işləri və onların praktikada tətbiqi sistemin dayanıqlığı sahəsində ciddi uğurların əldə olunmasına gətirib çıxarmışdır. Eyni zamanda, müvafiq sahədə müasir tələblərə cavab verən yüksəkixtisaslı kadr potensialının formalaşdırılması sahəsində mühüm tədbirlər görülmüşdür.

Bundan əlavə, Azərbaycanın enerji təhlükəsizliyinin dayanıqlı, etibarlı inkişafının təmin edilməsi istiqamətində görülən işləri bir-biri ilə əlaqələndirmək lazımdır. Alternativ enerji mənbələrinin – su, Günəş, külək və s. əsasında böyük stansiyaların tikilməsi, quraşdırılması və onların sistemə qoşulması prosesində müəyyən problemlər vardır. Onların həlli üçün çevik yanaşmalar, böyük manevretmə qabiliyyətinə malik sistemin qurulması tələb olunur. Əgər bu kimi problemlər öz həllini tapmazsa, həmin enerji mənbələrinin yaradılması, sistemə qoşulması üçün müəyyən maneələr yarana bilər. Ona görə də bu gün Azərbayan energetikləri, bu sahədə fəaliyyət göstərən alim və mütəxəssislərin qarşısında çox ciddi, taleyüklü vəzifələr dayanır. Bu istiqamətdə fəaliyyət uğurla davam etdirilsə də, qarşıda görüləcək işlər hələ çoxdur. Yəni, sistemdə çevik dəyişmələrə cavab verən infrastruktur yaradılmalıdır. Nəzərinizə çatdırım ki, elektrik enerjisinin istehsala ötürülməsi və istehlakı eyni vaxtda gedir. Yəni, elektrik enerjisinin saxlanması, qorunması və istifadə edilməsi üçün də yeni yanaşmalar formalaşmışdır. Azərbaycan energetikləri, elmi-tədqiqatla məşğul olan mütəxəssislər bu sahədə də geniş səpkili işlər yerinə yetirirlər.

Onu da qeyd edim ki, yeni yanacaq növlərinin, məsələn hidrogen energetikasının istifadə problemləri üzərində də artıq bir müddətdir ki, müzakirələr aparılır, əməli addımlar atılır. Həmçinin tullantı qazlarının tutulması, gələcəkdə onlardan istifadənin qarşısının alınması və müəyyən həddə saxlanılması istiqamətində müvafiq tədbirlər görülür, praktiki işlərin yerinə yetirilməsi üçün innovativ layihələrin həyata keçirilməsi planlaşdırılır.

**– Bərpaolunan və alternativ enerji mənbələrindən istifadənin mövcud vəziyyəti və perspektivləri barədə də fikirlərinizi öyrənmək istərdik. Zəruri tədbirlər görülməzsə, cəmiyyəti hansı təhlükələr gözləyir?**

– Sualın cavabına keçməzdən əvvəl qeyd edim ki, ölkəmizdə energetika sahəsində bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi Prezident İlham Əliyev tərəfindən prioritet vəzifə olaraq irəli sürülüb. Azərbaycan 2030-cu ilə qədər bərpaolunan enerjinin payını 30 faizə çatdırmağı hədəfləyir.

Əvvəlki illərdə aparılan tədqiqatlar nəticəsində, alternativ və bərpaolunan elektrik stansiyalarında elektrik enerjisi istehsalının həcmi ümumi istehsalda artmaqdadır. Hazırda respublikamızın digər regionlarında, o cümlədən Naxçıvanda yeni Günəş elektrik stansiyalarının tikintisi davam etdirilir. Stansiyadan alınan nəticələr göstərdi ki, elektrik stansiyasının tikilməsi üçün düzgün ərazinin seçilməsi əsas şərtlərdən biridir.

Bundan başqa, dövlət başçısının iştirakı ilə respublikanın müxtəlif bölgələrində bir sıra stansiyaların təməlqoyma mərasimləri keçirilib, həmçinin ölkəmizin enerji potensialını gücləndirəcək böyük stansiyalar istifadəyə verilmə ərəfəsindədir. Günəş, külək elektrik stansiyalarından sonra işğaldan azad edilmiş Qarabağ torpaqlarında çoxlu sayda kiçik su elektrik stansiyaları tikilib. Bu ərazilərdə indiyədək 270 meqavat gücündə 32 su elektrik stansiyası istismara verilib.

Ölkəmizdə su potensialından tam səmərəli istifadə etmək üçün "AzərEnerji" ASC tərəfindən bir sıra stansiyaların tikintisi davam etdirilməkdədir. Yaxın gələcəkdə işğaldan azad olunmuş ərazilərin, ətraf rayonların elektrik enerjisi təchizatını alternativ enerji mənbələrinin, əsas da su elektrik stansiyalarının hesabına təmin etmək mümkün olacaq. Bu stansiyaların hər biri həm də ölkənin ümumi enerji sisteminə inteqrasiya olunub.

Qeyd etdiyim kimi, elektrik enerjisinin istehsalından başqa, onun ötürülməsi də böyük problemlərdən biridir. Bu səbəbdən hazırda elektrik veriliş xətlərinin çəkilməsi, bu zaman ekoloji problemlərin həlli və digər məsələlər kompleks şəkildə araşdırılır.

Bundan başqa, Azərbaycan və İran arasındakı dövlət sərhədində yerləşən, Araz çayı üzərində tikilmiş "Xudafərin" və "Qız qalası" su elektrik stansiyalarının tikintisi başa çatdıqdan sonra ucuz elektrik enerjisi istehsalı respublikamızın enerji sisteminə tam şəkildə qoşulmaqla enerji təhlükəsizliyinin, enerji təminatının keyfiyyətini daha da artıracaqdır.

Eyni zamanda, bu stansiyaların tikilməsi su problemlərinin həllində, yəni su anbarları kimi istifadə olunmasında da böyük əhəmiyyət kəsb edir.

Xatırladım ki, Azərbaycan dünyada su ehtiyatları az olan ölkələrdən biridir. Bu səbəbdən xeyli sayda su anbarları tikilmişdir. Məlumdur ki, ölkənin ən böyük çayları olan Kür və Araz öz mənbələrini başqa ölkələrdən götürürlər. Yəni, bizim su ehtiyatlarımız, adətən, qonşu dövlətlərdə formalaşır. Bu səbəbdən həmin çaylardan səmərəli istifadə etmək üçün süni göllərin yaradılmasına da ehtiyac vardır. Bu süni göllər elektrik enerjisinin alınmasında çox əhəmiyyətlidir.

Respublika ərazisində ən böyük su anbarı Mingəçevir su anbarıdır ki, Yuxarı Qarabağ, Aşağı Qarabağ kanalları bu su-elektrik stansiyasının (SES) hesabına tikilmişdir. Mingəçevir SES-in istehsal etdiyi elektrik enerjisi su ilə yanaşı, ölkəmizin enerji təchizatında da xüsusi önəm daşıyır.

**– Bildiyimiz kimi, bu il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub. Həmçinin ölkəmiz COP29 kimi mötəbər bir tədbirə ev sahibliyi edir. Sizcə bu tədbir Azərbaycanda "yaşıl təfəkkür"ün formalaşması, ekoloji problemlərin həlli istiqamətində hansı töhfələr verəcək?**

– Prezident İlham Əliyevin ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncamında Azərbaycanın beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verdiyi qeyd olunub. Sənəddə, eyni zamanda, respublikamızın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair 5 milli prioritetindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyənləşdirildiyi bildirilib.

Həmin prioritetə uyğun olaraq ölkəmizdə artıq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından, həmçinin dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin gerçəkləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsinə başlanılıb.

Qürur hissi ilə qeyd etməliyəm ki, ötən əsrdə iqtisadi fəaliyyətin ekosistemin ekoloji tutumundan kənara çıxmasının gözlənilən fəsadlarına dair ilk çağırışları edən ümummilli lider Heydər Əliyevin qardaşı, görkəmli alim, akademik Həsən Əliyev olmuşdur. Bu, həm də onun sübutudur ki, Azərbaycanda "yaşıl təfəkkür"ün, ekoloji düşüncənin tarixi heç də son onilliklərdəki dünyanın yeni çağırışları ilə bağlı deyildir. Bizim elmi fikir tariximizdə belə mütərəqqi yanaşmaların tarixi xeyli əvvəlki dövrlərə təsadüf edir. Belə ki, SSRİ EA və müttəfiq respublikaların elmlər akademiyaları arasında ilk dəfə olaraq 1955-ci ildə Azərbaycan EA Rəyasət Heyəti

nəzdində Təbiəti Mühafizə Komissiyası təşkil edilmişdir. Bu komissiyaya akademik Həsən Əliyev başçılıq etmişdir.

Azərbaycan COP29-un evsahibi olaraq, BMT-nin bu nüfuzlu tədbirinə ciddi hazırlıq və təşkilatı işlər görmüşdür. Ona görə də tədbir gözlənildiyindən də yüksək səviyyədə baş tutmuşdur. İştirakçı ölkələr planetimizin qorunması ilə bağlı görülən işlər, mövcud problemlər və onların həlli yollarına dair hesabatlarını təqdim etmişlər. Bundan başqa, COP29 çərçivəsində qlobal təhlükəsizliyi təmin edən enerji mənbələrindən istifadənin vacibliyi diqqətə çatdırılmış və müvafiq qərarlar qəbul olunmuşdur.

Prezident İlham Əliyev COP29 öncəsi tədbir iştirakçılarına müraciətində demişdir: "Mən COP29-da tarixi razılaşmanın – "Bakı Sazişi"nin əldə olunmasını gözləyirəm". Düşünürəm ki, bu, olduqca böyük əhəmiyyətə malik çıxışdır. Əgər həmin sazişin imzalanması gerçəkləşsə, Azərbaycanın adı tarixə qızıl hərflərdə yazılacaq. Bu razılaşmanın əhəmiyyətini indi tam dərk edə bilməsək də, bir neçə ildən sonra daha dolğun şəkildə ifadə etmək mümkün olacaq. Hər bir alim öz çıxışında və hazırladığı statistik məlumatlarda tullantıların həcmi, görülən işlər və gözləntilər haqqında məlumat verir. Lakin gələcəkdə bu işləri daha da təkmilləşdirmək və problemləri aktuallaşdırmaq üçün "Bakı Sazişi"ndən böyük gözləntilər var.

COP29-un əsas vəzifələrindən biri, bütün tərəflərin ehtiyaclarını nəzərə alan iqlim maliyyəsi üçün aydın və iddialı yeni kollektiv kəmiyyət hədəfi müəyyən etməkdir. Yəni, bütün dünya bu sahədə görülən işlərin maliyyələşmə mexanizmini ortaya qoymalıdır. Bundan sonrakı işlər "Bakı Sazişi"ndən asılı olacaq və bu məsələ həllini tapsa, ölkə Prezidentinin dediyi kimi, böyük tarixi bir məsələnin həlli təmin olunacaq.

Mən ölkəmizin daha da yaxından tanıdılması baxımından COP29-un əhəmiyyətini xüsusi qeyd etməliyəm. Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi müasir dünyanın çağırışlarını bütün istiqamətlərdə tam şəkildə əhatə edir. Düşünürəm ki, COP29-da bu sənəddə əks olunan məsələlər bir daha nümayiş etdiriləcək.

# ELM VƏ ƏMƏKDAŞLIQ DÜNYANI XİLAS EDƏCƏK

**İradə Hüseynova,**
**AMEA-nın vitse-prezidenti, akademik**
"Azərbaycan" qəzeti, 14.12.2024

Noyabrın 11-22 tarixlərində dünyamızın varlığını və planetimizin gələcəyini təhlükə altında qoyan qlobal iqlim problemlərini dərk etməklə xilas yolu arayan tərəqqipərvər bəşəriyyətin diqqəti tam şəkildə Azərbaycanın paytaxtı Bakı şəhərinə yönəldi. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) böyük uğurla baş tutdu və çox mühüm qərarlar qəbul edilməklə qarşıya qoyulan məqsədlərin əksəriyyətinə nail olundu.

COP29-un proqramlarında Elm, Texnologiya və İnnovasiya Rəqəmsallaşma Günündə yer alan "Xəzər Hövzəsində Dönüş Nöqtəsi: Çevik Reaksiya və Adaptasiya Strategiyaları üçün Regional Siyasət Çərçivəsi", "Davamlı su resurslarının idarəedilməsi üzrə innovativ yanaşmalar", "Xəzər dənizinin ekoloji vəziyyətinə dair elmi panel" interaktiv panel sessiyaları və Qida, Kənd Təsərrüfatı və Su Günündə yer alan "Aşağı emissiyalı və dayanıqlı ərzaq sistemləri üçün elm və innovasiya", "COP-dan COP-a aqrar-qida irsləri: qlobal iqlim məqsədlərinə nail olmağın açarı" və sairə tədbirlərin hər birində növbəti illər üçün dünya elmi qarşısında duran başlıca prioritet məsələlərdən söz açılmış, heç bir problemin elm, yüksək texnologiyalar və innovasiyaların birbaşa iştirakı olmadan aradan qaldırılmasının mümkün olmayacağı dəfələrlə vurğulanmışdır.

Bütün tədbirlərdə, görüşlərdə aparılan rəsmi və qeyri-rəsmi müzakirələrdə iqlim dəyişikliyinin təbii ekosistemlərin dayanıqlığına, bioloji müxtəlifliyə, torpaq və şirin su resurslarına, ərzaq və kənd təsərrüfatı sisteminə davamlı mənfi təsirinə aid çoxsaylı faktlara diqqət çəkilmişdir.

Yeri gəlmişkən, həm yerli, həm də qlobal miqyasda elm tərəfindən ərzaq və bioloji təhlükəsizliyə müasir yanaşmaların tətbiqi ilə töhfə verilməsi AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin daim diqqət mərkəzində olmuşdur. Ölkədə tədqiqatlar üçün bölmə tərəfindən müəyyənləşdirilmiş prioritet istiqamətlərdən ikisi ("Biomüxtəlifliyin, torpaq və su ehtiyatlarının müasir yanaşmalarla tədqiqi, bərpası, mühafizəsi, səmərəli istifadəsi, elektron məlumat bazaları və xəritələrinin yaradılması", "Bioloji

proseslərin molekulyar-genetik və fiziki-kimyəvi əsasları, genom, proteom və metabolom tədqiqatları, yeni bio-, nano- və postgenom texnologiyalarının fundamental və tətbiqi əsaslarının işlənib hazırlanması" və Maşınöyrənmə üsullarının və süni inttellektin biologiyada, kənd təsərrüfatında və tibbdə tətbiqi) əsasən qeyd edilən problemlərə və müasir yanaşmalarla onların həllinə hədəflənmişdir.

COP29-un gedişində iqlim dəyişikliklərinin dünyanın ərzaq təhlükəsizliyinə yaratdığı xüsusi təhlükə də başlıca müzakirə mövzularından olmuşdur. Müzakirələrdə qeyd edilmişdir ki, 2022-ci ildə 738,9 milyon insanın aclıqla üzləşdiyini və 3,1 milyarddan çox insanın sağlam qidalanmaya çıxışının olmadığını nəzərə almaqla, qlobal istixana qazı emissiyalarının təxminən 30 faizini təşkil edən kənd təsərrüfatı sistemi təcili olaraq transformasiya edilməlidir.

Müvafiq beynəlxalq, regional və milli təşkilatların, mütəxəssislərin, ekspertlərin iştirakı ilə keçirilmiş tədbirlərdə, o cümlədən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Kənd Təsərrüfatı Tədqiqatları üzrə Beynəlxalq Məşvərətçi Qrup (CGİAR) və digər beynəlxalq qurumların birgə keçirdikləri "Aşağı emissiyalı və dayanıqlı ərzaq sistemləri üçün elm və innovasiya" mövzusunda toplantıda mövcud problemlərin aradan qaldırılmasında, iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizədə, onların təsirinin yumşaldılmasında digər amillərlə yanaşı, elm və innovasiyaların xüsusi rolu olduğu dönə-dönə vurğulanmışdır.

Azərbaycanda da fermerlər əvvəllər heç vaxt yaşamadıqları problemlərlə qarşılaşılar: iqlim göstəricilərində kəskin sıçramalar, daha yüksək orta temperatur, həddindən artıq isti günlərin sayının artması, vegetasiya mərhələlərində dəyişmələr, bəzən hədsiz quraqlıq, bəzən yüksək nəmlik stresi, suvarma sistemlərinin şoranlığa rəvac verməsi, xəstəlik və zərərvericilərin iqlimin təsiri ilə artması.

Ümumiyyətlə, COP29 dövründə ən çox müzakirə edilən mövzulardan biri də meşə sistemləri, müxtəlif məqsədlərlə meşələrin məhv edilməsi, bunun isə çayların, bulaq və kəhrizlərin qurumasına, torpaqların deqredasiyaya uğramasına, torpaq sürüşmə və uçqunlarına rəvac verməsi olmuşdur. Meşələrin qırılması ziyanın yalnız yarısıdır, fotosintez prosesində fəal iştirak edərək atmosferi oksigenlə zənginləşdirmək əvəzinə qırılan ağacların oduncağı yanacaq, sənaye xammalı və sairə kimi istifadə olunaraq karbon emissiyasının daha da artmasına vəsilə olur.

Təbii yaşıllıqların, eləcə də kənd təsərrüfatının uyğunlaşması üçün bitkilər uyğunlaşmalıdır, lakin onların yeniləşən iqlimlərdə həyat üçün dirəniş göstərməsini, məhsuldarlığını saxlamasını, xəstəlik və zərərvericilərə qarşı davamlılığını təmin edə biləcək heç bir "iqlim dəyişikliyi geni", heç bir "sehirli çubuq" yoxdur.

COP29-un tədbirlərində iqlim dəyişikliklərinin fəsadlarının yumşaldılması, adaptasıya mexanizmlərinin, elmi nailiyyətlərin və innovasiyaların tətbiqi ilə bağlı Azərbaycanda beynəlxalq mərkəzlərlə əməkdaşlığı da nəzərə almaqla müəyyən təcrübə toplanmışdır.

İqlim dəyişiklikləri dövründə ərzaq və kənd təsərrüfatı sisteminin davamlılığı üçün ilk şərtlərdən biri əkin üçün şəraitə və tələblərə uyğun bitkilərin seçilməsi, əkinçilikdə diversifikasiyaya nail olunmasıdır. Burada söhbət həm növlərarası, həm də növdaxili – sort və hibrid müxtəlifliyindən gedir. Torpaq-iqlim şəraiti, yağıntıların mövcud və proqnozlaşdırılan səviyyəsi, yeraltı sular, temperatur, torpaq və suda duzların miqdarı, üfüqün tərəfi, meyilliyi və s. amillər nəzərə alınmaqla əkiləcək bitki növlərinin, daha sonra isə bu növlərə aid sort və hibridlərin seçilməsi, onların toxumçuluğunun təmin edilməsi elmin vəzifəsidir.

Geniş miqyasda genetik müxtəlifliyin mövcudluğu, qiymətli nümunələrin yaxşı qorunub saxlanılması, onların bitki yaxşılaşdırılması proqramlarında səmərəli istifadəsi mühüm rola malikdir. Əkinçilik Elmi Tədqiqat İnstitutunda, digər sahə institutlarında böyük genofond toplanmış, bu nümunələr İCARDA (Quraq Ərazilərdə Kənd Təsərrüfatı Tədqiqatları üzrə Beynəlxalq Mərkəz) və CİMMYT-in (Buğda və Qarğıdalının Yaxşılaşdırılması üzrə Beynəlxalq Mərkəz) pitomniklərindən gətirilən on minlərlə nümunə ilə birgə seleksiya proqramlarında səmərəli istifadə olunmuşdur və indi də olunur.

İqlim dəyişikliyinə qarşı elmi fəaliyyətlərdə davamlılıq və uyğunlaşma əlamətlərinə malik bitki genetik ehtiyatlarının, xüsusən mədəni bitkilərin və xalq seleksiyası sortlarının toplanması, öyrənilməsi və mühafizəsi vacib mərhələdir. Akademik Cəlal Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Genetik Ehtiyatlar İnstitutunda yaradılmış Milli Genbankda, ölkədə mövcud olan digər genofond kolleksiyaları və bağlarında toplanmış və tədqiq edilmiş genetik müxtəliflik seleksiya proqramlarında daim dəyişən mühitədavamlı yeni sort və hibridlərin yaradılmasında istifadə olunur. Tək son 6-7 il ərzində ölkə üzrə 70-dən çox bu cür sort rayonlaşdırılmışdır.

Yabanı bitki və vəhşi heyvan müxtəlifliyinin, xüsusən qırmızı siyahı növlərinin itmək təhlükəsindən mühafizə edilməsi olduqca vacibdir. İtmək təhlükəsində olan bitki növlərinin müvafiq şəraitləri olan genbanklarda, nəbatat bağlarında toplanaraq qorunub saxlanması və lazım gəldikcə reintroduksiya fəaliyyətlərinin həyata keçirilməsi böyük əhəmiyyət kəsb edir. Bu baxımdan təbii növlərin mühafizəsi və təbliği sahəsində yüksək təcrübəyə malik Beynəlxalq Təbiətin Mühafizəsi Birliyi (İUCN, 1948), Ümumdünya Təbiəti Mühafizə Fondu (WWF, 1961), BMT-nin Ətraf Mühit Proqramı (UNEP, 1972), BMT-nin Biomüxtəliflik üzrə Konvensiyasının icraçı katibliyinin və digər beynəlxalq təsisatların, eləcə də İDEA kimi yerli biomüxtəlifliyin bərpasında mühüm rol oynayan milli təşkilatların COP29-un işində, COP29 sədrliyi ilə birgə keçirilən tədbirlərdə, panel müzakirələrində fəal şəkildə iştirak etmələri olduqca təqdirəlayiq və sevindirici faktlardır.

COP29 Sədrliyi, IUCN və UNEP tərəfindən təşkil edilmiş "Qlobal Liderlərin Dəyirmi Masa tədbiri: Təbiətlə bağlı müsbət gələcəyə və Paris Sazişinin Məqsədlərinə nail olmaq üçün İqlim Fəaliyyətinin və Biomüxtəlifliyin Mühafizəsinin Uyğunlaşdırılması", COP29 Sədrliyi ilə Rio Konvensiyalarının (UNFCCC, CBD, UNCCD) birgə əməkdaşlığı çərçivəsində keçirilmiş "Rio-Trio Təşəbbüsünə həsr olunmuş yüksəksəviyyəli tədbir", İDEA-nın İUCN-lə birgə "İUSN-in Qırmızı Siyahısının planetimizi xilas etmək üçün çağırışı", WWF-lə birgə "Dəyişən iqlimdə bəbirlərin gələcəyinin təmin edilməsi" tədbirləri böyük maraqla qarşılanmış və gələcək fəaliyyətlərlə bağlı bir sıra qərarların əldə edilməsinə təkan vermişdir.

Bu təşkilatların da bütün müzakirələrdə vurğuladıqları kimi, mövcud olan və itirilmə təhlükəsi ilə üzləşən dəyərli genetik müxtəlifliyin qorunmasına təminat vermək üçün dünya miqyasında, xüsusən böyük dövlətlər tərəfindən daha davamlı institusional və maliyyə tədbirləri görülməlidir.

Ölkə üçün aktual olan adaptiv su və torpaqqoruyucu texnologiyaların, biotəhlükəsizliklə bağlı problemlərin innovativ yanaşmalarla tədqiqi üzrə də Azərbaycanda müəyyən işlər görülür, lakin bunlar əsasən ənənəvi monitorinqlərin keçirilməsi, yeni texnologiyaların transferi və tətbiqi ilə məhdudlaşır. Milli tədqiqat sisteminin dünya səviyyəsinə çıxaraq proseslərə daha dərindən və daha fəal nüfuz etməsinə ehtiyac vardır.

Ətraf mühitlə, təbiətin, biomüxtəlifliyin öyrənilməsi və qorunması, ərzaq təhlükəsizliyi, insan sağlamlığı ilə bağlı tədqiqatlar sistemində rəqəmsallaşdırılma ölkənin əsas prioritetlərindəndir. Bir faktı qeyd edə bilərik ki, 2020-ci ildən etibarən ölkədə su və torpaqlardan istifadənin yüksək səmərəliliyinin təmin olunmasına xidmət edən Elektron Kənd Təsərrüfatı İnforma-

siya Sistemi yaradılmışdır. İqlimlə əlaqəli tədqiqatlarda, xüsusən proqnozlaşdırmada, ekspert proqramlarının hazırlanmasında maşınöyrənmə üsullarının, süni intellektin tətbiqi gündən-günə genişlənir.

Rəqəmsallaşdırma və digər yüksək texnologiyalar da daxil olmaqla, elm və innovasiyaların tətbiqinə xüsusi ehtiyac olan digər bir sahə seleksiyanın məqsədyönlülüyünü artırmaq və müddətini qısaltmaqla bitkilərdə sürətlə dəyişən iqlim və torpaq şəraitinə uyğunlaşmanı vaxtında təmin etməkdən ibarətdir. Azərbaycanda genidəyişdirilmiş bitkilərdən istifadə qadağandır. Ölkə zəngin biomüxtəlifliyə malikdir, GMO bitkiləri isə ətraf mühitlə bərabər, bu müxtəlifliyi çirkləndirə, həşərat faunasına ziyan verə bilər. Ona görə də seleksiyada ənənəvi metodlarla molekulyar-genomiks texnologiyalarının vəhdəti arzuolunandır.

Bu istiqamətdə Azərbaycanda son illərdə həm maddi-texniki baza, həm kadr hazırlığı, hən də tədqiqatların intensivləşdirilməsi baxımından müəyyən irəliləyişlərə nail olunmuşdur. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda aparılan tədqiqatlar nümunə göstərilə bilər. Burada qeyd olunmuş istiqamətlərdə bir sıra mühüm fundamental və tətbiqi nailiyyətlər əldə olunmuş, rəqəmsal fenomiks, genomiks, molekulyar, biokimyəvi, morfo-fizioloji və biofiziki parametrlərin bioinformatik proqramlarla kompleks müqayisəli analizinin nəticələri artıq davamlı sortların yaradılmasında birbaşa tətbiq edilmişdir.

Bu gün dünyanın inkişaf etmiş ölkələrində davamlılıq kimi multimürəkkəb əlamətlərin genetik "arxitekturası"nın təyini üzrə tədqiqatlarda artıq irimiqyaslı genetik analizlər aparılır. Bu baxımdan son tədqiqatlarımızda buğda genomunda yüksək dəqiqliklə təsərrüfat əhəmiyyətli multimürəkkəb əlamətlərin genetik izlərini identifikasiya etmək məqsədilə GWAS (genome-wide association studies) - bütöv genom üzrə qiymətli əlamətlərlə ilişikli assosiasiyaların təyini analizi aparılmışdır.

COP29 göstərdi ki, həm ümumən dünyada, həm də ayrı-ayrı ölkələrdə iqlim-stres amillərinin fəsadlarına qarşı davamlı sistemlərin qurulması və bu işdə elmin yüksək iştirakının təmin olunması üçün iri həcmdə maliyyə yatırımlarına ehtiyac var. Bəzi inkişaf etmiş dövlətlərin etinasızlığına baxmayaraq, müxtəlif səviyyələrdə qəbul edilmiş qərarlar bu sahədə də irəliləyişlərə nail olunacağına inam yaradır.

Azərbaycan "yaşıl dünya" naminə öz imkanlarından, o cümlədən maliyyə resurslarından maksimum istifadə təcrübəsi nümayiş etdirir. İşğaldan azad edilmiş ərazilərin "yaşıl inkişaf" prinsiplərinə uyğun inkişafı istiqamətində önəmli layihələrə start verilməsi bunun sübutudur. Hazırda qarşıya

Qarabağ və Şərqi Zəngəzurda, eləcə də Naxçıvan MR-də "sıfır emissiya"ya nail olunması kimi çox mürəkkəb bir vəzifə qoyulmuşdur. Böyük qayıdış ərazilərində artıq ağıllı, süni intellekt metodlarına əsaslanan müəssisələrin, yaşayış məntəqələrinin yaradılmasına başlanmışdır. Bütün bu faktlar COP29-un yüksək kürsülərindən də dəfələrlə qeyd edilmiş və dünyanın "yaşıl gündəliy"ində qalmaqda davam edəcəkdir.

COP29-da iqlim dəyişikliyinin insan sağlamlığına təsiri də geniş şəkildə ən yüksək səviyyələrdə müzakirə olunmuş, bu problemin qoyuluşu, şərhi və həll yollarının axtarışına bir neçə tədbir həsr edilmişdir. Burada "Vahid Sağlamlıq yanaşması: İnsan inkişafı naminə sahələrarası işbirliyinin artırılması" mövzusunda yüksəksəviyyəli "dəyirmi masa" qeyd edilə bilər. Tədbirdə "Dəyişən iqlimdə davamlılığın artırılması: Daha sağlam gələcək üçün Azərbaycanın Vahid Sağlamlıq yanaşması" və "Vahid Sağlamlığın tətbiqi üzrə dörd tərəfin birgə yanaşması: Effektiv sahələrarası işbirliyi yolu ilə daha böyük təsirə nail olunması" mövzularında sessiyalar keçirilmişdir.

COP29 bir daha göstərdi ki, bu gün iqlimdən doğan problemlərin həlli kompleks elmi, multidissiplinar yanaşma tələb edir, burada tədqiqat və innovasiyalar təkcə texnoloji irəliləyişlərə deyil, həm də effektiv siyasi mövqe və qərarlar, adekvat potensialın və texniki yardımlar vasitəsilə araşdırmalar üçün əlverişli mühitin yaradılmasını tələb edir. COP29-un da aşkar göstərdiyi kimi, Azərbaycan elə bir inkişaf səviyyəsinə çatmışdır ki, iqlimin doğurduğu problemlərin həlli texniki və maliyyə resursları, eləcə də siyasi iradənin mövcudluğu baxımından tamamilə mümkündür.

COP29-un Bakıda keçirilməsinin bir müsbət nəticəsi də onun Azərbaycanda insan kapitalının inkişafına verdiyi töhfələr hesab edilə bilər.

İnanırıq ki, COP29 Azərbaycanın müvafiq elm sahələrinə, elmi mühitə yeni ruh gətirəcək, problemlərin daha aydın dərk edilməsi, elmi prioritetlərin düzgün qoyulması, atılacaq addımların sistemli xarakteri, elm və innovasiyalara istiqamətlənmiş investisiya qoyuluşları tezliklə dünyada və ölkədə daha böyük və uzunmüddətli faydaların əldə olunmasına imkan verəcəkdir.

**AMEA Rəyasət Heyətinin 29 noyabr 2024-cü il tarixli iclasında AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynovanın təqdimatı**

# COP29: çağırışlar və AMEA-nın qarşısında duran vəzifələr

# COP29: çağırışlar və AMEA-nın qarşısında duran vəzifələr

**akademik İradə Hüseynova**

**Bakı, 29 noyabr 2024-cü il**

# DÜNYANIN COP29-a GEDƏN YOLU

İnkişaf etmiş ölkələrdə sənayenin məhdudiyyətsiz inkişafı, bütün dünyada təbiətin səmərəsiz talanması qlobal ekoloji fəlakətə gətirib çıxarmışdır.



- İstixana qazlarının, xüsusən karbon qazı emissiyasının durmadan artması nəticəsində qlobal istiləşmə baş vermiş (temperatur 1,5 dərəcə yüksəlmiş),
- Atmosfer, su mənbələri və torpaqlar kəskin şəkildə məişət və sənaye tullantıları ilə çirklənmiş,



- Ekosistemlər dayanıqsız vəziyyətə düşmüş, səhralaşma, torpaqların deqradasiyası böyük sahələri zəbt etmiş,
- Yağıntıların paylanmasında dəyişikliklər, içməli və suvarma suları ilə təminatda problemlər baş vermiş,



- Buzlaqların və göllərin sahə və həcmləri azalmış,
- Bioloji müxtəliflik azalmış, növlərin itməsi, növ miqrasiyası güclənmiş,
- İqlimlə bağlı sağlamlıq problemləri artmış,
- Ekosistem xidmətlərinin keyfiyyəti aşağı düşmüşdür və s.




- Dünya Bankının hesabatına görə, Azərbaycan 2040-cı ilə qədər güclü quraqlıq riskinə görə dünya üzrə 18-ci yerdədir.
- "Azərkosmos" Agentliyinin hesablamalarına görə, ölkə ərazisinin yalnız 24%-i quraqlıq təhlükəsi ilə üzləşməmişdir.
- Azərbaycan ərazisinin 15%-də quraqlıq riski çox yüksək, 8%-də yüksək, 28%-də orta, 25%-də isə aşağı qiymətləndirilir.
- Ölkədə 2000-2022-ci illərdə deqradasiyaya uğramış torpaq sahələri 18,5%, urbanizasiyalaşmış ərazilər 25,8%, eroziyaya uğramış sahələr 10,5%, quru çöllərin sahəsi 15,8% artmış, sıx bitki örtüyü sahəsi (meşə və kolluqlar) təqribən 18%, çəmənliklər 26% azalmışdır.
- Ölkəmizdə son 30 ildə (1991-2020-ci illər) havanın orta illik temperaturu əvvəlki dövrlə (1961-1990-cı illər) müqayisədə orta hesabla 0,9 dərəcə yüksəlmişdir. Ərazinin əksər hissəsində yağıntının miqdarı orta hesabla 4% azalmışdır.

## Respublika ərazisində deqradasiyaya məruz qalmış torpaqların ümumi torpaq fondunda xüsusi çəkisi barədə
## M Ə L U M A T

| Ümumi torpaq fondu, ha | Deqradasiya növləri | Deqradasiyaya məruz qalmış sahə, ha | Deqradasiyaya məruz qalmış torpaqların ümumi torpaq fondunda xüsusi çəkisi, %-lə |
|---|---|---|---|
| 8641506 | Şorlaşmış | 722958 | 8,7 |
| | Şorakətləşmiş | 291290 | 3,37 |
| | Eroziya | 146820 | 1,70 |
| | Hərbi deqradasiya | 790,02 | 0,009 |
| | Cəmi | 1161858,02 | 13,45 |

- Azərbaycanın əksər regionlarında quraqlıq şəraitinin artması fonunda 2024-cü il yazın sonu, yayın əvvəllərində qəfil yağan leysan yağışları əkin sahələrinə, hazır məhsula ciddi ziyan vurmuşdur. Bu cür qısamüddətli, lakin həcmcə böyük yağıntılar həmçinin torpaq eroziyasına, sürüşmələrə, şor qrunt sularının səthə çıxmasına səbəb olur.
- Nə vaxtsa qurulmuş kollektor-drenaj sisteminin sıradan çıxması və ya heç olmaması da problem yaradır.
- Naxçıvan MR-də əhalinin 2000-ci illərin əvvəllərində geniş istifadə etdiyi biçənəklərdə bitən ot bitkilərinin hündürlüyü son illərdə bir neçə santimetri keçmir, bu isə yem tədarükünü mümkünsüz edir.
- Quraqlıqlar səbəbindən meşələrə təzyiq artır, seyrəlmə baş verir, bu da yeraltı su ehtiyatlarına mənfi təsir göstərir.

# İqlim dəyişikliklərinə qarşı təşkilatlanma

- Beynəlxalq Təbiətin Mühafizəsi Birliyi (İUCN, 1948),
- Ümumdünya Təbiəti Mühafizə Fondu (WWF, 1961),
- Greenpeace (1971),
- BMT-nin Ətraf Mühit Proqramı (UNEP, 1972) və s. kimi qurumlar,
- "Yaşıllar" partiyaları,
- Dünya yaşıllar hərəkatı,
- BMT-nin tədbirləri.



# 1992-ci il Rio-de-Janeyro konfransı

**BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyası (UNFCCC) BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Konfransında (UNCED) (4-14 iyun 1992-ci il) 154 dövlət tərəfindən imzalanmışdır.**

- Konvensiyanın ali qərar qəbul edən orqanı – tərəflərin konfranslarıdır (COP).
- 21 mart 1994-cü il tarixində 50-ci üzv ölkənin ratifikasiya prosesinin tamamlanması ilə qüvvəyə minmişdir.
- Hazırda 198 ölkə və ərazi Konvensiyanın tərəfləridir.

Konvensiya beynəlxalq sistemdə ətraf mühit sahəsində qəbul edilmiş ən iri konvensiyadır və müvafiq **"Ozon qatının qorunması üzrə Konvensiya", "Bioloji müxtəliflik üzrə Konvensiya" (BMK), "Səhralaşmaya qarşı mübarizə Konvensiyası"** kimi sənədlərlə sıx əlaqədədir.

BMK Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 14 mart 2000-ci ildə ratifikasiya olunmuşdur.

## TƏŞKİLATİ ADDIMLAR

- Tərəflərin konfransları (COP) iqlim dəyişikliyi ilə mübarizədə əldə edilmiş tərəqqini qiymətləndirmək və inkişaf etmiş ölkələrdə istixana qazı emissiyalarını azaltmaq məqsədilə hüquqi cəhətdən məcburi öhdəlikləri müəyyən etmək üçün keçirilir.
- COP1 1995-ci ildə Berlin şəhərində keçirilmişdir.
- UNFCCC-nin Katibliyi əvvəlcə Cenevrədə yerləşmiş, 1996-cı ildən Bonn şəhərinə köçürülmüşdür.

- 2005-ci ildən başlayaraq konfranslar həm də "Kioto Protokolunun Tərəflərinin Müşavirəsi rolunu oynayan Tərəflərin Konfransı" (CMP) kimi fəaliyyət göstərmişdir.
- Kioto Protokoluna əsasən istixana qazları bunlardır: karbon qazı ($CO_2$), metan ($CH_4$), azot oksidi ($N_2O$), hidroftorkarbonlar (HFC), perflorokarbonlar (PFC), kükürd heksaflorid ($SF_6$), azot triflorid ($NF_3$). $CO_2$ ən vacib antropogen istixana qazıdır.
- 2011-ci ildən 2015-ci ilə qədər görüşlərdə iqlim fəaliyyətinə doğru ümumi yol yaradan Durban platformasının bir hissəsi kimi Paris Sazişi müzakirə edilmişdir.
- 12 dekabr 2015-ci il tarixində (COP21) iqlim dəyişikliyi ilə bağlı hüquqi cəhətdən məcburi beynəlxalq müqavilə olan Paris Sazişi qəbul olunmuşdur.

## Çərçivə Konvensiyası

- Çərçivə Konvensiyası atmosferdə istixana qazlarının miqdarını sabitləşdirməklə "insanların iqlim sisteminə təhlükəli müdaxiləsi" ilə mübarizə aparmaq üçün ölkələr arasında bağlanmış beynəlxalq müqavilədir.
- Son məqsədi "atmosferdə istixana qazlarının konsentrasiyalarının iqlim sisteminə təhlükəli antropogen müdaxilənin qarşısını alacaq səviyyədə sabitləşdirilməsidir".
- Konvensiyanın 1 saylı əlavəsinə daxil edilmiş ölkələr (inkişaf etmiş ölkələr) atmosferə tulladıqları istixana qazlarının azaldılmasına dair öhdəliklər götürürlər.
- Əlavə 1-ə daxil edilməyən ölkələrin qarşısında emissiyanın azaldılması istiqamətində öhdəlik qoyulmur.

## Dayanıqlı İnkişaf Məqsədləri və ətraf mühit

- BMT Baş Assambleyasının 2015-ci il 25 sentyabr tarixli qətnaməsi ilə 17 məqsəd və 169 hədəfdən ibarət "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" təsdiq edilmişdir.
- Ətraf mühitlə bağlı Dayanıqlı İnkişaf Məqsədlərinin ümumiləşməsi: "Təbii ehtiyatların dayanıqlı şəkildə idarə olunması və iqlim dəyişikliyi ilə bağlı təxirəsalınmaz tədbirlər görməklə planeti korlanmadan qoruyaraq indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi".
- İqlimlə bağlı əsas məqsəd (13-cü məqsəd): "İqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə üzrə təcili tədbirlər görmək".





## Ətraf mühit problemlərinə aidiyyəti olan digər məqsədlər

- Məqsəd 2. Aclığa son qoymaq, ərzaq təhlükəsizliyini təmin etmək, qidalanmanı yaxşılaşdırmaq və kənd təsərrüfatının dayanıqlı inkişafına dəstək vermək.
- Məqsəd 6. Hamı üçün su və sanitariyaya əlçatanlığı və dayanıqlı idarəetməni təmin etmək.
- Məqsəd 7. Hamının sərfəli, etibarlı, dayanıqlı və müasir enerji mənbələrinə çıxışını təmin etmək.
- Məqsəd 11. Şəhər və yaşayış məntəqələrinin açıqlığını, təhlükəsizliyini, davamlılığını və ekoloji dayanıqlılığını təmin etmək.
- Məqsəd 14. Dayanıqlı inkişaf naminə okeanları, dənizləri və dəniz ehtiyatlarını qorumaq və onlardan səmərəli istifadə etmək.
- Məqsəd 15. Yer ekosistemlərini mühafizə və bərpa etmək, onların səmərəli istifadəsinə dəstək vermək, meşələrdən səmərəli istifadə etmək, səhralaşmaya qarşı mübarizə aparmaq, torpaq deqradasiyasını dayandırmaq, ona qarşı əks tədbirlər görmək və bioloji müxtəlifliyin itkisinin qarşısını almaq.

- Paris razılaşmasında qəbul edilmiş qərarların icrası ondan sonra keçirilən bütün COP-larda əsas məsələ kimi qoyulmuş və məqsəd həmin razılaşmanın qərarlarının icrasına yönəldilmişdir.
- COP24 (2018, Katovitse, Polşa), COP25 (2019, Madrid, İspaniya) və COP26-da (2021, Qlazqo, Şotlandiya) yerətrafı temperatur artımının 2°C-ni keçməməsinə və 1,5°C həddində saxlanmasına nail olmaq barədə fəaliyyət planları işlənib hazırlanmışdır.
- COP27 (2022, Şarm-əl-Şeyx, Misir) və COP28-də (2023, Dubay, BƏƏ) həmin fəaliyyət planlarının necə həyata keçirilməsi, hansı tədbirlərin görülməsi müzakirə olunmuşdur.
- Paris razılaşmasının hədəflərinə catmaq yolunda vəziyyətin təhlili, qlobal istiləşmə ilə mübarizədə maliyyə məsələləri COP28-in gündəliyində olmuşdur.
- COP28 ərəfəsində, hələ COP26-da başlamış İqlim Dəyişiklikləri sahəsində qlobal inventarlaşdırmaya yekun vurulmuşdur.
- BMT-nin Dünya Meteorologiya Təşkilatı COP28-ə məruzəsində planetimizin iqlim mənzərəsini son dərəcə təhlükəli saymışdır.

## COP28-in qərarlarının hədəfləri:

- Bərpa olunan enerji potensialının üç dəfə artırılması;
- 2030-cu ilə qədər enerji səmərəliliyinin qlobal orta illik sürətinin iki dəfə artırılması;
- Emissiyaların azaldılması tədbirləri olmadan kömürlə işləyən elektrik enerjisi istehsalının azaldılması istiqamətində səylərin sürətləndirilməsi;
- İtki və Zərərin Ödənilməsi Fondu fəaliyyətə başladı;
- Ölkələr Yaşıl İqlim Fondunu 3,5 milyard dollar həcminə çatdırmağı öhdələrinə götürdülər;

## COP28-in qərarlarının hədəfləri:

- Az İnkişaf Etmiş Ölkələr Fonduna və Xüsusi İqlim Dəyişikliyi Fonduna əlavə olaraq 150 milyon dollardan çox vəsaitin ödənilməsi açıqlandı;
- Dünya Bankı 2024 və 2025-ci illər üçün iqlim maliyyəsini ildə 9 milyard dollar artırmaq barədə öhdəlik götürdü;
- 120-yə yaxın ölkə İqlim və Sağlamlıq haqqında, 130-dan çox ölkə Kənd Təsərrüfatı, Ərzaq və İqlim bəyannamələrini imzaladı;
- 66 ölkə soyutma ilə əlaqədar emissiyaları 68% azaltmağı hədəfləyən Qlobal Soyutma Öhdəliyini təsdiqlədi.

COP28-in son günü (12 dekabr 2023-cü il):

- BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-un,
- Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının,
- Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 11-22 noyabr 2024-cü il tarixlərində Azərbaycanda keçirilməsi barədə yekdilliklə qərar qəbul edilmişdir.
- Bu qərar dünya siyasi arenasında Azərbaycanın özünü etibarlı tərəfdaş kimi tanıtmasının, BMT-də və digər beynəlxalq təşkilatlarda oynadığı fəal rolun, Azərbaycan Respublikası Prezidentinin sülhün və beynəlxalq hüquq çərçivəsində ədalətin bərqərar olunması üçün əmək sərf edən güclü lider kimi yüksək şəxsi nüfuzunun nəticəsi olmuşdur.

# Yaşıl dünya naminə həmrəylik ili

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında” 25 dekabr 2023-cü il tarixli Sərəncam imzalamışdır.
- AMEA Rəyasət Heyətində “Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında” 25 dekabr 2023-cü il tarixli Sərəncamının icrasından irəli gələn vəzifələr haqqında” 9 yanvar 2024-cü il tarixli 1/1 nömrəli,
- “Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında” 25 dekabr 2023-cü il tarixli Sərəncamının icrası ilə bağlı AMEA-nın Tədbirlər planı” haqqında 22 yanvar 2024-cü il tarixli 7/1 nömrəli qərarlar qəbul edilmişdir.

## Bakı İqlim Fəaliyyəti Həftəsi
### 30 sentyabr – 4 oktyabr 2024-cü il









## Akademik İsa Həbibbəylinin Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində ölkəmizdə səfərdə olan Akademiyalararası Tərəfdaşlıq Assosiasiyasının (IAP) nümayəndəsi Dr. Robin Fears ilə görüşü




# COP29 dövründə fəaliyyətlər

**Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) böyük uğurla baş tutmuşdur.**

**Dünyanın 190-dan artıq dövləti, 80 prezident, vitse-prezident və hökumət başçısı, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçı COP29-da müzakirələrə qoşulmuşlar.**



## Akademik İsa Həbibbəyli 12 noyabrda COP29-un LİDERLƏR SAMMİTİNDƏ iştirak etmişdir.









## COP29 və Azərbaycanın sədrliyi

- Dünya bir daha əmin olmuşdur ki, müstəqil dövlətimiz ən böyük beynəlxalq tədbirləri belə yüksək səviyyədə təşkil etməyə qadirdir, Yer kürəsində həyatın xilası naminə atdığı addımlarla qlobal problemlərin həllinə öz töhfəsini verə biləcək gücə və iradəyə malikdir.
- Azərbaycan zülmə uğrayan dövlət və xalqlara da arxa olmaqdan çəkinmir, inkişaf etməkdə olan, iqlim dəyişikliyinin təsirindən daha çox ziyan çəkən ölkələrin problemlərini qaldırmağı özünə borc bilir.
- Məlumdur ki, biomüxtəlifliyin ada modellərində təcrid edilmiş ərazilərin daha çox nadir canlı növlərə malik olması və onların iqlim dəyişikliyinə həssaslığı isbat olunmuş faktdır.
- Ona görə də xüsusən uzaq adaların və yüksək dağlıq ərazilərin problemlərinə diqqət çəkilməsi bioloji müxtəlifliyin, xüsusən nadir növlərin qorunması baxımından da olduqca önəmlidir.

## COP29 və Azərbaycanın sədrliyi

- COP29 Sədrliyinin qlobal təşəbbüslərinin məqsədi sinerjini, əlaqəliliyi və yüksək təsiri təmin etməklə iqlim fəaliyyətlərini irəlilətmək, bütün maraqlı tərəfləri ortaq məxrəcə gətirərək iqlim dəyişmələri ilə bağlı ambisiyaları artırmaqdan ibarət olmuşdur.
- Təşəbbüslərin hər biri, xüsusən də iqlimlə bağlı maliyyə resurslarının formalaşdırılması və paylanması, yaşıl enerji üzrə zona və dəhlizlərin yaradılması, hidrogenlə, rəqəmsallaşdırılmaqla, su və torpaqlarla bağlı məsələlər, davamlı və sağlam şəhərlər, turizm üçün iqlim fəaliyyətləri, biomüxtəliflik və yaşıl örtük problemləri, kiçik ada dövlətlərinin məsələləri aktuallığı ilə seçilmişdir.
- İrəli sürülən təşəbbüslər üzrə problemlərin həllinin yalnız elm və texnologiyaların yüksək iştirakı ilə mümkün ola biləcəyi COP29-un gedişində dəfələrlə qeyd edilmişdir.

## “Ətraf mühit üzrə fəaliyyətin icmalı” hesabatı

- Hesabat Azərbaycanın ekoloji və iqtisadi hədəflərini uzlaşdırmağa, bu sahədə milli siyasətin formalaşdırılmasına və ölkənin beynəlxalq ekoloji öhdəliklərinin icrasını qiymətləndirməyə xidmət edir.
- Sənəd ətraf mühitin idarə olunması, təbii sərvətlərin səmərəli istifadəsi, ekoloji məsələlərin digər sektorlara inteqrasiyası, həmçinin ümumi ekoloji fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 78 tövsiyəni əhatə edir.
- Azərbaycan üzrə birinci dövr hesabat 2003-cü, ikinci dövr hesabat isə 2011-ci ildə hazırlanmışdır.

## COP29-un proqramından seçmələr

- **Elm, Texnologiya və İnnovasiya / Rəqəmsallaşma Günündə yer alan** "Xəzər Hövzəsində Dönüş Nöqtəsi: Çevik Reaksiya və Adaptasiya Strategiyaları üçün Regional Siyasət Çərçivəsi", "Davamlı su resurslarının idarəedilməsi üzrə innovativ yanaşmalar", "Xəzər dənizinin ekoloji vəziyyətinə dair elmi panel" interaktiv panel sessiyaları və s.;
- **Qida, Kənd Təsərrüfatı və Su Günündə yer alan** "Aşağı emissiyalı və dayanıqlı ərzaq sistemləri üçün elm və innovasiya", "COP-dan COP-a aqrar-qida irsləri: qlobal iqlim məqsədlərinə nail olmağın açarı", "Su və Davamlı İnkişaf: iqlim çağırışlarına cavab", Transsərhəd çayların iqlim dəyişikliyinin təsirlərinə davamlılığı", "Elmdən təcrübəyə: ərzaq sistemlərində ədalətli yanaşmalara keçidin inkişaf etdirilməsi";

## COP29-un proqramından seçmələr

**Təbiət və Biomüxtəliflik / Yerli İnsanlar / Gender Bərabərliyi / Okeanlar və Sahil Zonaları Günündə yer alan -**

- "İqlim üçün Su: Su Həllərinin MMT-lərə və MTP-lərə inteqrasiyası. Biomüxtəliflik, Su və İqlim Əlaqəliliyi mövzusunda yüksək səviyyəli dəyirmi masa",
- "İqlim, Təbiət və İnsanlar üçün Meşələr: Meşələr üçün İqlim Maliyyəsindən istifadə mövzusunda yüksək səviyyəli tədbir",
- "Qlobal Liderlərin Dəyirmi Masa tədbiri: Təbiətlə bağlı müsbət gələcəyə və Paris Sazişinin Məqsədlərinə nail olmaq üçün İqlim Fəaliyyətinin və Biomüxtəlifliyin Mühafizəsinin Uyğunlaşdırılması",
- "İqlim və biomüxtəliflik arasındakı əlaqə: davamlı gələcək üçün inteqrasiya olunmuş həllər",
- "Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Qırmızı Siyahısı" və s.

- COP29-da Beynəlxalq Elmi Şura və Almaniyanın Karlsruhe Texnologiya İnstitutunun birgə təşkilatçılığı ilə “**İqlim elmi: 2024-cü il üçün əsas nəticələr**” mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir.
- **Akademik İsa Həbibbəylinin konfransdakı çıxışından:**

“Yaşıl dünya naminə həmrəylik ili” və COP29 beynəlxalq tədbirləri cəmiyyətin bütün sahələrində, o cümlədən elmdə də yeni təfəkkür və yeni sivilizasiya yaradır. Azərbaycanda keçirilən COP29 yeni sənaye inqilabının anonsu təsiri bağışlayır.





**COP29 çərçivəsində ölkəmizdə səfərdə olan dünyanın ən nüfuzlu elmi qurumu Beynəlxalq Elmi Şuranın (ISC) baş icraçı direktoru professor Salvatore Arico ilə AMEA-da görüş (12 noyabr)**







**Nobel mükafatı laureatı, Banqladeş Xalq Respublikası Müvəqqəti Hökumətinin Baş müşaviri Məhəmməd Yunusla COP29-da görüş**

**Akademik İsa Həbibbəyli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi / Aqrar Kredit və İnkişaf Agentliyinin təşkilatçılığı ilə keçirilən «"AgriFuture 2024": Dayanıqlı və ədalətli gələcək üçün qadınları, gəncləri və innovasiyaları gücləndirən iqlim təsirlərinə davamlı kənd təsərrüfatı» tədbirində iştirak etmişdir.**




# COP29 və ərzaq təhlükəsizliyi

**COP29-un sədrliyi, FAO, Kənd Təsərrüfatı Tədqiqatları üzrə Beynəlxalq Məşvərətçi Qrup (CGİAR) və digər beynəlxalq qurumların birgə keçirdikləri "Aşağı emissiyalı və dayanıqlı ərzaq sistemləri üçün elm və innovasiya" mövzusunda toplantıda (19 noyabr, akademik İradə Hüseynovanın dəvətli məruzəçi qismində iştirakı) iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizədə, onların təsirinin yumşaldılmasında digər amillərlə yanaşı, elm və innovasiyaların xüsusi rolu olduğu dönə-dönə vurğulanmışdır.**



## COP29, biomüxtəliflik və ətraf mühit

- Beynəlxalq Təbiətin Mühafizəsi Birliyi (**İUCN**), Ümumdünya Təbiəti Mühafizə Fondu (**WWF**), BMT-nin Ətraf Mühit Proqramı (**UNEP**), BMT-nin Biomüxtəliflik üzrə Konvensiyası və s. beynəlxalq təsisatlar, eləcə də **İDEA** kimi milli təşkilatlar COP29-da fəal şəkildə iştirak etmişlər.
- COP29 Sədrliyi, IUCN və UNEP tərəfindən təşkil edilmiş **"Qlobal Liderlərin Dəyirmi Masa tədbiri: Təbiətlə bağlı müsbət gələcəyə və Paris Sazişinin Məqsədlərinə nail olmaq üçün İqlim Fəaliyyətinin və Biomüxtəlifliyin Mühafizəsinin Uyğunlaşdırılması"**,
- COP29 Sədrliyi ilə Rio konvensiyalarının (UNFCCC, CBD, UNCCD) birgə əməkdaşlığı çərçivəsində keçirilmiş **"Rio-Trio Təşəbbüsünə həsr olunmuş yüksək səviyyəli tədbir"**,
- İDEA-nın İUCN-lə birgə **"İUCN-in Qırmızı Siyahısının planetimizi xilas etmək üçün çağırışı"**, WWF-lə birgə **"Dəyişən iqlimdə bəbirlərin gələcəyinin təmin edilməsi"** tədbirləri bir sıra qərarların əldə edilməsinə təkan vermişdir.
- İqlim dəyişikliyi biomüxtəlifliyə mənfi təsir edir, eləcə də biomüxtəlifliyin qorunması, ekosistemlərin effektiv mühafizəsi və idarə edilməsi sahəsində həyata keçirilmiş tədbirlər vasitəsilə iqlim dəyişikliyinin təsirləri azaldıla bilər.

## COP29 və insan sağlamlığı

- **"Vahid Sağlamlıq yanaşması: İnsan inkişafı naminə sahələrarası işbirliyinin artırılması"** mövzusunda yüksəksəviyyəli dəyirmi masada **"Dəyişən iqlimdə davamlılığın artırılması: Daha sağlam gələcək üçün Azərbaycanın Vahid Sağlamlıq yanaşması"** və **"Vahid Sağlamlığın tətbiqi üzrə dörd tərəfin birgə yanaşması: Effektiv sahələrarası işbirliyi yolu ilə daha böyük təsirə nail olunması"** mövzularında sessiyalar keçirilmişdir.
- COP29 sədrliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, BMT-nin Ətraf Mühit Proqramı (UNEP), Dünya Səhiyyə Təşkilatı (WHO), FAO, BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) və Dünya Meteorologiya Təşkilatının (WMO) birgə təşəbbüsü ilə **"Şəhərlərdə təbiət, sağlamlıq və dayanıqlılıq"** mövzusunda yüksəksəviyyəli dəyirmi masa keçirilmişdir.

**Davamlı İnnovasiyalar Forumu - 2024, Hidrogenə Keçid Sammiti və Aqro-Ərzaq Sistemləri Sammiti**





**İCARDA-nın baş direktorunun müavini AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda olmuşdur.**



**"Xəzər dənizi hövzəsi: risklərin qiymətləndirilməsi və aradan qaldırılması" mövzusunda dəyirmi masada AMEA-nın əməkdaşları iştirak etmişlər.**

**16 noyabrda akademik İsa Həbibbəyli, akademik İradə Hüseynova, biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva ABŞ Mühafizəkar İqlim Fondunun keçirdiyi «Karbon tutulması: daha təmiz gələcək naminə innovasiya» adlı tədbirdə iştirak etmişlər.**



COP29 çərçivəsində "Birləşmiş Ərəb Əmirliklərinin qlobal iqlimə dayanıqlılıq çərçivəsi üzrə tərəqqinin təminində iqlim məlumatlı transsərhəd su idarəçiliyinin rolu" mövzusunda tədbir



IDEA İB və "Great Whale Conservancy" təşkilatının əməkdaşlığı çərçivəsində həyata keçirilən "Dəniz ekosisteminin sağlamlığında və iqlim dəyişikliyinin azaldılmasında dəniz məməlilərinin rolu" mövzusunda panel müzakirələri





